# 26 İyun Silahlı Qüvvələr Günüdür!

Xalqın qəzeti!

# Xalq qəzeti

№ 131 (30535) 26 iyun 2024-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzeti

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

## Prinsipial mövqeyimiz dəyişməzdir



Səhifə ⇨ 3

## Polis şərəfini canlarından uca tutdular



Səhifə ⇨ 5

## Fransa "Xarqo"nu unutmur



Səhifə ⇨ 10

## Qarabağda cəhənnəm cənnətə çevrilir



Səhifə ⇨ 8

## Ailə kimsəsiz uşağın ən yaxşı himayəçisidir

Səhifə ⇨ 8

# Biz sülh ordusuyuq



***Biz hesab edirik ki, hərbi xərcləri artırmaq lazımdır. Bu artım məhz yüksək texnoloji imkanları olan silahların alınmasına xərclənəcək... Çünki biz görürük ki, yeni imzalanmış kontraktlara ehtiyac var... Nə qədər lazımdırsa, o qədər də artıracağıq. Çünki biz müharibə nədir, işğal nədir yaxşı bilirik və təhlükə nədir onu da yaxşı bilirik. Hər an hazır olmalıyıq ki, öz hüququmuzu istənilən yolla təmin edək.***

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

Silahlı Qüvvələrimizin Ali Baş Komandanı bu bəyanatla çıxış edəndə 44 günlük İkinci Qarabağ müharbəsindən – yəni bizim şanlı Qələbəmizdən cəmi yeddi ay keçmişdi. O zaman bəzi "ekspert"lər yazırdılar ki, Ermənistan dövlətinin beli sındırılıb, işğalçı ölkənin ordusu diz çökdürülüb, erməni hərbçilərinin dörddən biri fərarilik edib: "Yəni Ermənistanın daha bizimlə hesablaşmaqdan başqa yolu yoxdur. Belə bir vaxtda ordu üçün yenidən milyonların ayrılmasına nə ehtiyac var? Həmin vəsaiti əhalinin sosial məsələlərinin həllinə yönəltmək daha doğru olmazmı?"

... Son zamanlar regionda baş verən ictimai-siyasi proseslər, sülhə və sabitliyə törədilən təhlükələr, ölkəmizin üzləşdiyi təhdidlər, xüsusən, Fransanın Ermənistanı silahlandıraraq, Azərbaycana qarşı açıq düşmənçilik yolu tutması cənab İlham Əliyevin nə qədər uzaqgörən siyasətçi olduğunu növbəti dəfə sübut etdi. Dünyanın əksər dövlətlərinin Azərbaycanın qələbəsini alqışladığı dövrdə, Ermənistanın baş nazirinin ölkəsinə və ordusuna rüsvayçılıq damğası vuran məğlubiyyət sənədini (Nikol Paşinyanın həmin sənədi harada imzaladığını Ermənistan əhalisi hələ də bilmir) camaata izah etməkdən ötrü dəridən-qabıqdan çıxdığı günlərdə Azərbaycan Prezidentinin yeni silah müqavilələri barədə danışması fəhmin deyil, bilavasitə müdrikliyin göstəricisi idi.

Hələ ötən ilin son ayında AZƏRTAC "Armenpress"ə istinadən xəbər verdi ki, Fransa Senatı Ermənistana CAESAR (Sezar) tipli artilleriya qurğuları və MİSTRAL raket kompleksi göndərmək barədə qərar qəbul edib. O zaman mən Qay Yuli Sezarın böyük dövlət xadimi və qüdrətli sərkərdə olduğunu xatırladaraq təəssüf etmişdim ki, Sezar Ernənistana gələndən sonra "Hay Yuli Sezar" ola bilər. Yəni Azərbaycan Ordusunun əli ilə hörmətsiz və urvatsız edilmək Sezarın adına yaraşmaz.



Son günlər isə Fransa Senatının həmin qərarının reallaşdırılması barədə xəbərlər yayılır. Doğrusu, mən bir vətəndaş olaraq, Fransa kimi aparıcı NATO ölkəsinin Ermənistanı silahlandırmasından ciddi narahat olmuşdum. Sonra Azərbaycan, Türkiyə və Rusiyanı təmsil edən hərbçi mütəxəssislər əsaslandırılmış faktlarla sübut etdilər ki, Azərbaycan Ordusunun arsenalında "Sezar"dan üstün keyfiyyətlərə malik hərbi texnikalar var.

Bu məqamda olduqca mühüm olan bir faktı xatırlatmaq istərdim. 2020-ci il dekabrın 10-da Bakıda keçirilən Zəfər paradında Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan da iştirak edirdi. Qardaş ölkənin dövlət başçısı həmin tribunadan dedi ki, müharibə başa çatdı. Ancaq mübarizə hələ davam edəcək. Fikrimcə, həmin sözləri olduğu kimi təqdim etmək daha münasib olar:

"Azərbaycanın torpaqlarını işğaldan azad etməsi heç də mübarizənin başa çatması demək deyildir. Bu günə qədər siyasi və hərbi sahələrdə davam etdirilən mübarizə bundan sonra çox fərqli cəbhələrdə davam edəcəkdir".

Cənab Ərdoğan "fərqli cəbhələr" deyəndə Makron və makronkimilərin Ermənistanda yaratdığı revanşist əhval-ruhiyyəni nəzərdə tuturdu. Ərdoğandan söz düşmüşkən, fəxrlə xatırladırıq ki, Azərbaycan Ordusunun arsenalını Türkiyə istehsalı olan hərbi texnikalar, xüsusən, "Bayraktar" pilotsuz uçan aparatlar da kifayət qədər zənginləşdirir.

*(ardı 6-cı səhifədə)*

# Kollektiv Qərb Fransadan narazıdır

## Uorlik Parisi nədə ittiham etdi?

**Fransanın Ermənistana silah tadarükü narazılıq doğurmaqdadır. Onsuz da lap əvvəldən belə bir görüntü var idi ki, Paris Azərbaycana qarşı oyunu təkbaşına qurub. Yəni, kollektiv Qərbdə mövcud istiqamətdə yekdil fikir olmayıb. Çünki ölkəmiz, kifayət qədər, düşünülmüş xarici siyasət kursu yerinə yetirir.**

Bəli, Azərbaycan – Ermənistan sülh gündəminin aktual olduğu bir dövrdə Parisin İrəvanı silahlandırmasında fərdi motivlər nəzərə çarpırdı. Hiss olunurdu ki, götürülmüş sülh kursu Fransa hakimiyyətini qane etmir. Niyə qane etmir, bu barədə söz açacağıq. Ölkənin təbliğat vasitələrinin Azərbaycan əleyhinə hədyanlarını da diqqətə çatdıracağıq. Hələlik isə başlıca məqama keçid alaq.

Fransanın Ermənistana silah tədarükü Bakı və İrəvan arasındakı münasibətlərdə yeni təxribatçı elementdir. Bunu erməni mediasına açıqlamasında ATƏT-in artıq canını tapşırmış Minsk qrupunun amerikalı keçmiş həmsədri Ceyms Uorlik deyib. Bəli, cənab Uorlik heç vaxt olmadığı qədər haqlıdır. Tam aydındır ki, indiki durumda Parisin İrəvanı silahlandırması, istər-istəməz, fərqli assosiasiya doğuracaq. Üstəlik, proses mənfi nəticəsini anında göstərir. Kəlbəcər istiqamətində Azərbaycan Ordusunun mövqeləri atəşə tutulur. Deməli,



Fransa Ermənistanı illüziya bataqlığına çəkməkdə davam edir. Belə görünür, bu bataqlıqdan çıxış yoxdur. O da görünür ki, Uorlik də qeyd etdiyimiz məqamı əsas tutur. O deyir ki, Fransa Ermənistanla silah tədarükü ilə bağlı müqaviləni ikincinin Azərbaycanla sülh sazişi imzalamasından sonra bağlamalı idi: "...Təəssüf ki, sülh sazişinin bağlanmasına yaxınlaşdıqca, belə bir addım tərəfləri çaşdırır və danışıqları daha da çətinləşdirir".

Durumun çətinləşməsindən ən böyük ziyanı isə Ermənistan görəcək. Ancaq rəsmi İrəvan məsələnin fərqində deyil və Fransanın oyunlarında alətə çevrilməkdə davam edir. Parisin oyunları isə "rəngarəngliyi" ilə seçilir.

Hazırda prezident Emmanuel Makron administrasiyası tam şəkildə anti-Azərbaycan təbliğatına köklənib. Bu köklənişin müxtəlif təzahür formaları var. İlk növbədə media amilini vurğulamalıyıq. Məsələn, Fransanın "Le Monde" nəşri çox yaramaz tərzdə, heç bir fakta və sübuta əsaslanmadan bildirir ki, Azərbaycan istər Yeni Kaledoniyada, istərsə də Korsikada Parisin maraqlarına qarşı hücum çəkir. Nəşr bunun Fransanın Ermənistanı dəstəkləməsindən irəli gəldiyini vurğulayır. O zaman sual yaranır: Paris nə üçün İrəvanı dəstəkləyir? Ona görə ki, "məzlum" erməniləri Azərbaycandan qorumaq niyyətindədir? Əlbəttə, məsələ heç də bunda deyil.

*(ardı 3-cü səhifədə)*

# Sloveniya Respublikasının Prezidenti Zati-aliləri xanım Nataşa Pirts Musara

**Hörmətli xanım Prezident.**

Sloveniya Respublikasının milli bayramı – Dövlətçilik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan-Sloveniya münasibətlərinin xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq məcrasında inkişafı, qarşılıqlı faydalı əməkdaşlığımızın bundan sonra da davam etdirilməsi yolunda birgə səylər göstərəcəyik.

Bu bayram günündə Sizə ən xoş arzularımı çatdırır, dost Sloveniya xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 iyun 2024-cü il**

# Prezident İlham Əliyev Silahlı Qüvvələr Günü ilə bağlı paylaşım edib




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sosial media hesablarında 26 İyun – Silahlı Qüvvələr Günü ilə bağlı paylaşım edib.**

# Nazir Ceyhun Bayramov İqor Xovayev ilə regionda mövcud vəziyyəti müzakirə edib



**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Rusiya Federasiyasının xarici işlər nazirinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayevi qəbul edib.**

Görüşdə Azərbaycan-Rusiya ikitərəfli əlaqələri, regional platformalar çərçivəsində görülən işlər, Azərbaycanla Ermənistan arasında sülh prosesinin cari vəziyyəti və perspektivləri, regionda mövcud vəziyyət və son inkişaflar müzakirə olunub.

C.Bayramov Azərbaycanla Ermənistan arasında sülh sazişi layihəsi üzrə aparılan danışıqlar prosesi barədə məlumat verib. Bununla yanaşı, Ermənistan konstitusiyasında və digər qanunvericilik aktlarında Azərbaycanın ərazi bütövlüyünə qarşı davam edən iddiaların proses çərçivəsində əsas maneə olduğu diqqətə çatdırılıb.

***

Dünən Bakıda Azərbaycan və Rusiya Xarici İşlər Nazirlikləri arasında sayca 11-ci konsulluq məsləhətləşmələri keçirilib.

Məsləhətləşmələrdə nümayəndə heyətimizə Azərbaycan XİN-in Konsulluq İdarəsinin rəisi Emil Səfərov, Rusiya nümayəndə heyətinə isə Rusiya XİN-in Konsulluq Departamentinin direktoru Aleksey Klimov rəhbərlik edib.

Tərəflər iki ölkə vətəndaşlarının hüquq və azadlıqlarının qorunması və onlara konsulluq yardımının göstərilməsi mövzusu üzrə müzakirə aparıb, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ədliyyə, miqrasiya, təhsil və digər vacib sahələrdə əlaqələrin gücləndirilməsi istiqamətində birgə tədbirlərin vacibliyini vurğulayıblar.

# İtkin düşmüş 20 nəfərin də kimliyi məlumdur

**Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında (Dövlət Komissiyası) təmsil olunan Azərbaycan Respublikasının Baş Prokurorluğu, Dövlət Təhlükəsizliyi Xidmətinin Hərbi-Tibb Baş İdarəsi, Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi, Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi, AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun mütəxəssis heyəti tərəfindən həyata keçirilmiş tədbirlər nəticəsində Birinci Qarabağ müharibəsində itkin düşmüş daha 20 nəfərin şəxsiyyəti müəyyən olunub.**

Bu barədə Dövlət Komissiyasından məlumat verilib.

Eyniləşdirmənin nəticələri ilə bağlı iyunun 25-də Dövlət Komissiyasının İşçi qrupu tərəfindən itkin ailələri ilə görüş təşkil olunub, talelərinə aydınlıq gətirilmiş şəxslər barədə onlara ətraflı məlumat verilərək sualları cavablandırılıb.

Hazırda həmin şəxslərin dəfn mərasimlərinin təşkili ilə bağlı aidiyyəti dövlət qurumları ilə birlikdə zəruri işlər həyata keçirilir.

Dəfn mərasimləri barədə ictimaiyyətə əlavə məlumat veriləcək.

***XQ***

# Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçularına ali hərbi rütbələr verilsin:

### “general-leytenant” hərbi rütbəsi

general-mayor Namiq Sərəfruz oğlu İslamzadəyə

### “general-mayor” hərbi rütbəsi

polkovnik Həsən Əli oğlu Əlövsədova
polkovnik Vilayət Bərxuda oğlu Quluyevə.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 iyun 2024-cü il**

# N.S.Qasımova “Azərbaycanın Milli Qəhrəmanı” adının verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə və döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi şəxsi igidliyə görə Natiq Səlim oğlu Qasımova “Azərbaycanın Milli Qəhrəmanı” adı verilsin (ölümündən sonra).

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 iyun 2024-cü il**

# Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının müstəqilliyinin, ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçuları təltif edilsinlər:

### 3-cü dərəcəli “Rəşadət” ordeni ilə

Baxşəliyev Azər Yavər oğlu – polkovnik
Mikayılov Elman Müzakir oğlu – polkovnik
Rüstəmov Fariz Məhərrəm oğlu – polkovnik
Baxşəliyev Nizami Fizuli oğlu – mayor
Abdulov İsmayıl Rövşən oğlu – baş leytenant

### 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə

Əzizov Ramin Ruslan oğlu – polkovnik
Rüstəmov Elnur Zeynalabdul oğlu – polkovnik
Rzayev Mübariz Mehman oğlu – polkovnik
Əmiraslanov Kamal Həsən oğlu – polkovnik-leytenant
Həsənov Faiq Fazil oğlu – mayor
Bağırov Ülvi Hənifə oğlu – leytenant (ölümündən sonra)
Bayramov Rəsul Hakverdi oğlu – gizir
Abbasov Vüqar Şahban oğlu – kiçik çavuş

### “Vətən uğrunda” medalı ilə

Hüseynov Müqabil Əziz oğlu – polkovnik
Məmmədov Rüstəm Əziz oğlu – polkovnik
Mirzəyev Təbriz Rəhim oğlu – polkovnik
Rəhimov Qasım Şahid oğlu – polkovnik
Yunusov İbrahim Mirxan oğlu – polkovnik
Abdullayev Fuad Ziyəddin oğlu – polkovnik-leytenant
Ağayev Mübariz Mail oğlu – polkovnik-leytenant
Aliyev Yalçın Zahid oğlu – istefada olan polkovnik-leytenant
Cahangirov Səxavət Əlikram oğlu – polkovnik-leytenant
Əliyev Namiq Elfail oğlu – tibb xidməti polkovnik-leytenantı
Hacıyev Turac Zakir oğlu – polkovnik-leytenant
Hüseynov Rəşad Əli oğlu – polkovnik-leytenant
İsmayılov Fərhad Xudaverdi oğlu – 2-ci dərəcəli kapitan
Qarayev Səbuhi Rauf oğlu – polkovnik-leytenant
Quliyev Elsevər Firdovsi oğlu – polkovnik-leytenant
Verdixanov Amil Sərkar oğlu – polkovnik-leytenant
Yadigarov Rahib Feyri oğlu – polkovnik-leytenant
Babayev Rza Dadaş oğlu – mayor
Hüseynov Elşən Əli oğlu – mayor
Qaffarov Eyvaz İlyaz oğlu – mayor
Nəzərov Firudin Mahir oğlu – mayor
Hudulov Ramazan İzzət oğlu – kapitan
Qasımov Babək Baba oğlu – kapitan
Bağırov Ülvi Hənifə oğlu – leytenant (ölümündən sonra)
Əhmədov Müşviq Gülbala oğlu – istefada olan kiçik gizir
İsmayılov Ayaz Musa oğlu – kiçik çavuş
Qasımov Hacıəli Tahir oğlu – əsgər (ölümündən sonra)

### “İgidliyə görə” medalı ilə

Məmmədov Emil Rasim oğlu – polkovnik-leytenant
Salayev Natiq Akif oğlu – polkovnik-leytenant
Aydəmirov Mərdan Nadir oğlu – mayor
Hacıyev Eltac Nemət oğlu – mayor
Aslanzadə Ruslan Elman oğlu – kapitan
Ələkbərov Kənan Telman oğlu – kapitan
Bəxtiyarzadə Ramin Mehman oğlu – leytenant
Mustafayev Babək Əkbər oğlu – leytenant
Bədəlov Koroğlu Vaqif oğlu – kiçik çavuş
Quliyev Etibar Yadigar oğlu – əsgər

### “Cəsur döyüşçü” medalı ilə

Şirinov Kənan Dilqam oğlu – mayor
Zeynalov Mirsadiq Zeynal oğlu – mayor
Babayev Gündüz Ulduz oğlu – baş leytenant
Əmirov Kamal Mənsur oğlu – baş leytenant
Quliyev Yəhya Saleh oğlu – baş leytenant
Rüstəmov Azad Mahir oğlu – baş leytenant
Bəyişov Emil Rövşən oğlu – leytenant
Dadaşov Orxan Fazil oğlu – leytenant
Nəcəfov Emin Məhərrəm oğlu – leytenant
Səfərov Xalid Rafət oğlu – leytenant
Şahverənov Xəyal Səbuhi oğlu – leytenant
Abdullayev Hidayət Marks oğlu – gizir
Həsənov Emin İman oğlu – gizir
Həsənov Səyyad Aydın oğlu – gizir
Səfərov Xəyal Heydər oğlu – gizir
Bayramov Məhəmməd Ədalət oğlu – kiçik gizir
Abdullayev Samir Ələddin oğlu – ehtiyatda olan əsgər
Babalı Xanlar Elburus oğlu – əsgər
Məmmədov Nizami Hasil oğlu – əsgər

### “Döyüşdə fərqlənməyə görə” medalı ilə

Dəmirov Namik Raufoviç – mayor
Əzimov Əfqan Xanlar oğlu – kapitan
Hüseyinli Kamal Kamran oğlu – kapitan
Məmmədov Taleh Daşdəmir oğlu – kapitan
Ağayev Səməndər Sübhan oğlu – baş leytenant
Əhmədov Elgün Ədalət oğlu – baş leytenant
Lətifov Toğrul Telman oğlu – baş leytenant
Məmmədzadə Şaməddin Fərhad oğlu – baş leytenant
Yusifov Yusif Əliağa oğlu – baş leytenant
Cəfərov Amid Yalçın oğlu – leytenant
Əsgərov Xəyal Nəsrəddin oğlu – leytenant
İbrahimov İlyas Balamirzə oğlu – leytenant
Qurbanov Amid Malik oğlu – baş gizir
Sadıqov Balaəmi Ağami oğlu – gizir
Qaragözov Vüqar Müşfiq oğlu – kiçik çavuş

### “Hərbi xidmətlərə görə” medalı ilə

Abdullayev Vüqar Vaqif oğlu – polkovnik
Ağayev Elşən Sultanağa oğlu – polkovnik
Baxışov Şahin Xamməd oğlu – 1-ci dərəcəli kapitan
Cabbarov Baba Yusif oğlu – polkovnik
Ələsgərli Elnur Əli oğlu – polkovnik
Hacıyev Elman Asif oğlu – polkovnik
Həsənov Arzu Şamil oğlu – ədliyyə polkovniki
İsgəndərov İlqar Bahadur oğlu – polkovnik
İsmayılov Şamil Arif oğlu – polkovnik
İsrafilov Aydın Abdurəşid oğlu – polkovnik
Quliyev Elnar Adil oğlu – polkovnik
Quliyev Əlmahir Hüseyn oğlu – 1-ci dərəcəli kapitan
Mürsəlov Vüqar Rzaxan oğlu – tibb xidməti polkovniki
Seyidov Niyaməddin Mirəziz oğlu – tibb xidməti polkovniki
Vəliyev Hüseyin Ələsgər oğlu – polkovnik
Yusifov Cəsarət Həkim oğlu – polkovnik
Abbasov Mürşüd Cümşüd oğlu – polkovnik-leytenant
Aslanov Eldəniz İldırım oğlu – polkovnik-leytenant
Əliyev Fəqan Bayram oğlu – polkovnik-leytenant
Hümmətov Azər Adil oğlu – ehtiyatda olan polkovnik-leytenant
Kərimov Natiq Hidayət oğlu – polkovnik-leytenant
Qurbanov Elnur Ədalət oğlu – polkovnik-leytenant
Mehdiyev Elman Nəriman oğlu – polkovnik-leytenant
Mikayılov Elnur Fəhrad oğlu – polkovnik-leytenant
Nağıyev Hüseyn Balacan oğlu – polkovnik-leytenant
Orucov İlqar Rəhman oğlu – polkovnik-leytenant
Rəcəbov Elşən Nuru oğlu – polkovnik-leytenant
Şahbazov Mayıl Şahbaz oğlu – polkovnik-leytenant
Tağıyev Müseyyib Mütəllim oğlu – polkovnik-leytenant
Əzimli Dinar Arif oğlu – mayor
Xəlilov Babək Saleh oğlu – mayor
Qurbanov Elvin Namiq oğlu – mayor
Məmmədov Anar Rəşid oğlu – mayor
Muradov Aqil Sracəddin oğlu – mayor
Lətifov Lətif Nazim oğlu – kapitan
Umudov Yusif Rafiq oğlu – baş leytenant
Mirzəzadə Rza Məhərrəməli oğlu – leytenant
Kosayev Siruz Abdulməcid oğlu – kiçik leytenant
Məmmədov Şahin Əliqulu oğlu – baş gizir
Mehrəliyev Alim Eldar oğlu – kiçik gizir
Allahverdiyev Rahib Məmməd oğlu – kiçik çavuş
Hüseynov Elvin Hüseynağa oğlu – kiçik çavuş.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 iyun 2024-cü il**

# Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 897 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Elektron kənd təsərrüfatı” informasiya sistemi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 897 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 1940 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 6 iyun tarixli 88 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Elektron kənd təsərrüfatı” informasiya sistemi haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.2.2-ci yarımbəndə “cavablandırılması” sözündən sonra “, habelə dincə qoyulması da daxil olmaqla əkin və çoxillik əkmələrin altında olan kənd təsərrüfatı torpaqlarının fiziki şəxslər tərəfindən təyinatı üzrə istifadəsinin müəyyən edilməsi üçün məlumatların toplanılması, onlara dair arayışın formalaşdırılması və aidiyyəti üzrə ötürülməsi” sözləri əlavə edilsin;

1.2. 3.2.3-3-cü yarımbəndə “cavablandırılması” sözündən sonra “, habelə kənd təsərrüfatı torpaqlarının fiziki şəxslər tərəfindən təyinatı üzrə istifadəsinin müəyyən edilməsi üçün məlumatların (əkin və çoxillik əkmələrin altında olan kənd təsərrüfatı torpaqlarına münasibətdə “subsidiyalar” altsistemində müvafiq məlumatlar olmadıqda) toplanılması, onlara dair arayışın formalaşdırılması və aidiyyəti üzrə ötürülməsi” sözləri əlavə edilsin;

1.3. 5.1.30-cu yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 5.1.31-ci yarımbənd əlavə edilsin:

“5.1.31. təyinatı üzrə istifadə edilən və təyinatı üzrə istifadə edilməsi mümkün olmayan kənd təsərrüfatı təyinatlı torpaqlar barədə məlumatlar (arayışlar).”.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 iyun 2024-cü il**

# Prinsipial mövqeyimiz dəyişməzdir

## Ekspert sülh prosesində, zərurət yaranarsa, Bakının qətiyyətli addım atmaqdan çəkinməyəcəyinə inandığını söyləyir

**Cənubi Qafqazda cərəyan edən son hadisələr, Ermənistan–Azərbaycan münasibətlərinin nizamlanması prosesinə "böyük güclərin" dəyişən reaksiyası fonunda sülhə təhdidlər də müşahidə olunmaqdadır. Sülhə aparan yolda son vaxtlar şahidi olduğmuz Qərbin təqdirləri, həm də məlum maneələrin səbəbləri ilə bağlı "XQ"-nin suallarını Qərbi Kaspi Universitetinin professoru, tanınmış politoloq Fikrət Sadıxov cavablandırır.**



**– Fikrət müəllim, son vaxtlar ənənəvi ermənipərəst düşərgənin keçmiş münaqişənin nizamlanmasına münasibətdə mövqe dəyişikliyi hiss olunmaqdadır. Sülh danışıqlarının vasitəçisiz formatda aparılması, sərhədin bir hissəsinin delimitasiyası, Ermənistanın dörd kəndimizi geri qaytarması Vaşinqton, Paris və Avropa İttifaqı tərəfindən təqdir olundu. ABŞ Prezidentinin məktubu, Dövlət katibinin telefon zəngi kənar müşahidəçidə maraqlı assosiasiyalar doğurur. Nə baş verir?**



– Həmin ermənipərəst düşərgənin münaqişə tərəflərinə əvvəlki ikili standartdan fərqli, obyektiv yanaşmasının səbəbi Azərbaycanın nümayiş etdirdiyi prinsipial və qətiyyətli siyasi mövqeyidir. Artıq bu reallığı ABŞ da gözəl bilir, Fransa və Avropa İttifaqı da. Bakı İrəvanla sülh danışıqlarında kənar vasitəçilərə ehtiyac duymadığını dəfələrlə bəyan etmişdi. Onlar tərəflərə yalnız danışıqlar üçün meydança təklif edə bilərlər. Yəni, üçüncü dövlətin, vasitəçinin iştirakı olmadan birbaşa danışıqlardan söhbət gedir. Bu mövqeyi sülh təşəbbüskarı roluna iddialı həmin ölkələr, eləcə də rəsmi İrəvan qəbul etməli oldu. Adlarını çəkdiyimiz kənar aktorların iki ölkə arasında sərhədin delimitasiyası, işğaldakı dörd kəndimizin geri qaytarılmasına düzgün reaksiyaları məhz dediyimiz əsas səbəblə bağlıdır. Amma, eyni zamanda, Azərbaycan ədalətin sona qədər bərpa olunmasını görmək istəyir. Bu isə hələ də erməni işğalında qalmış daha dörd kəndimizin də geri qaytarılması deməkdir. Göründüyü kimi, Nikol Paşinyan bu məsələnin həllində hələ də çapalayır. İş o yerə çatıb ki, Ermənistan baş naziri referendum keçirmək qərarını açıqlayıb. Bəli, onların konstitusiyasında Azərbaycan torpaqlarına iddianın yer aldığı müddəa aradan qaldırılmayıb, Zəngəzur dəhlizi də açılmayıb. Sülh sazişinin belə şərtlər daxilində imzalanması, əlbəttə ki, Azərbaycanın maraqlarına cavab vermir. Hesab edirəm ki, biz prinsipial mövqeyimizdə qalmalı və zərurət yaranarsa, qətiyyətli addımları atmalıyıq.

**– Bəs kollektiv Qərbin, okeanın o tayındakı supergücün mövqelərindəki yumşalma prosesi ilə paralel olaraq Ermənistanın silahlandırılmasını necə izah edərdiniz?**

– Hazırda Ermənistanı hərbi texnika və silah-sursatla təmin edən əsas iki dövlət var. Bunlar Fransa və Hindistandır. Bu məsələdə Fransa özəl mövqeyə sahibdir. Həmin mövqeyin mahiyyəti ondan ibarətdir ki, bütün vasitələrdən istifadə etməklə Rusiyanı bölgədən uzaqlaşdırsın. Bu zaman Paris həm Cənubi Qafqazda mövqeyini möhkəmləndirmək, həm də Ermənistanı öz tərəfinə cəlb etmək barədə düşünür. Yelisey sarayının Türkiyəyə qarşı məkrli planları həyata keçirməyə çalışdığını da bilirik. Paris Türkiyənin regionda artan nüfuzundan çox narahatdır. Azərbaycanla Türkiyə arasında yeni hərbi alyansın yaranması isə Fransanı təşvişə salır. Məsələnin başqa tərəfi isə Hindistanın planlarının nədən ibarət olmasıdır. Dehli, sadəcə olaraq, Azərbaycanda Pakistanın mövqeyinin möhkəmləndiyini görür və məhz buna görə Ermənistanı dəstəkləmək yolunu tutub və onu silahlandırır. Bunlar adi gözlə görünən amillərdir və bölgədə marağı olan hər bir ölkə özünün siyasi-iqtisadi prioritetini həyata keçirməyə çalışır. Aydın məsələdir ki, bu durum Ermənistanı qane edir. Çünki rəsmi İrəvan mövcud durumda Rusiyadan mümkün qədər tez uzaqlaşmaq istəyir. Hər halda bu istəyini açıq şəkildə, həm də dəfələrlə bəyan edib. Neçə müddətdir ki, Ermənistan KTMT-nin toplantılarına qatılmır, birgə hərbi təlimlərdə iştirak etmir, quruma üzvlük haqqını ödəmir. Görünür, İrəvan belə hesab edir ki, məhz bu yolla Moskvadan tam uzaqlaşa biləcək.

**– Rəsmi İrəvan ölkə konstitusiyasında qonşularına ərazi iddialarını aradan qaldırmaq əvəzinə, Azərbaycanın Əsas qanunu ilə paralellər aparmağa çalışır. Sülh sazişinə ayrıca maddə əlavə etməklə bu beynəlxalq hüquq pozuntusuna əncam çəkiləcəyini bildirir. Dünya praktikasında belə bir presedent varmı?**

– Xeyr, dünya praktikasında belə bir hüquqi presedent yoxdur. Hər halda biz belə bir halla üzləşməmişik. İndi işğalçı tərəfin öz konstitusiyası ilə Azərbaycanın Əsas qanunu arasında paralellər aparmaq, müqayisə etmək, bərabərlik işarəsi qoymağa çalışması tamamilə absurd iddiadır. Azərbaycanın heç bir qanunvericilik aktında Ermənistana qarşı ərazi iddiasının yer aldığı maddə, müddəa yoxdur. Amma hayların konstitusiyasında Qarabağla, onun statusu ilə bağlı konkret maddə var. Ermənistan parlamenti otuz iki il əvvəl bu qərarı qəbul edib. İndi istəyirlər referendum keçirmək yolu ilə, yaxud parlamentin xüsusi qərarı ilə bu qanunsuz iddiaları aradan qaldırsınlar. Həmin təcavüz maddəsi konstitusiyadan və müstəqillik Bəyannaməsinin preambulasından çıxarılmalıdır. Əks-təqdirdə Azərbaycanla Ermənistan arasında imzalanacaq sülh sazişinin nə hüquqi, nə də siyasi cəhətdən faydası olacaq.

**– Bölgədə cərəyan edən son hadisələrə İranın susqunluğu maraq doğurur...**

– Rəsmi Tehranın Ermənistan – Azərbaycan münaqişəsinə, eləcə də İrəvanın yürütdüyü daxili və xarici siyasətinə yanaşmasında yeni bir şey görmürük. İran Ermənistanla münasibətləri daim yaxınlaşdırmağa çalışıb. İİR rəhbərliyi düşünür ki, eyni regionda yerləşən iki dövlətin maraqlarının üst-üstə düşdüyü məqamlar çoxdur. Fəqət ortadakı reallıq tamamilə fərqli mənzərəni nümayiş etdirir. Əgər İrəvan Rusiyadan uzaqlaşmağa, Qərbə söykənməyə meyillənirsə, Fransa və Yunanıstanla yaxınlıq edirsə və bütün bunlara Tehran göz yumursa, deməli ortada qeyri-səmimi yanaşma mövcuddur. Doğrudur, Azərbaycanın İranla, deyilənlərə aidiyyatı olmayan özəl münasibətəri var.

İranın mərhum Prezidenti İbrahim Rəisinin Araz çayının üstündə Azərbaycan Prezidenti İlham Əliyevlə sonuncu görüşündən sonra ikitərəfli münasibətlərin normal məcraya düşməsindən danışa bilərik. Azərbaycanın Tehrandakı səfirliyinin fəaliyyətinin bərpa edilməsi ilə bağlı əldə olunan razılıq, eləcə də strateji obyektlərin inşası barədə imzalanan müqavilələr ölkələrarası münasibətlərin qaydasına düşdüyünü deməyə əsas verir. Təkcə İranla deyil, yuxarıda adlarını çəkdiyimiz ölkələrlə Azərbaycan dost və müttəfiq olmağa çalışır. Əlbəttə ki, bu zaman Bakı həm nəzəri, həm də praktiki cəhətdən özünün prinsipial mövqeyini qarşı tərəfin nəzərinə daim çatdıracaq. Bəli, İran bizim cənub qonşumuzdur və orada milyonlarla soydaşımız yaşayır. Eyni zamanda onu da unutmamalıyıq ki, İranın Ermənistanla münasibətləri səciyyəvi xarakter daşıyır. Məhz bu səbəbdən Tehranla təmaslarımızda həssas və ehtiyatlı davranmalıyıq.

**– Paşinyan COP29-a qədər sülh sazişinin imzalanacağına əmin olduğunu bildirib. Bunu yaxın perspektivin reallığı saymaq olarmı?**

– Əgər Nikol Paşinyan özlərinin konstitusiyasına zəruri düzəlişləri etməyi bacararsa, işğal altındakı dörd anklav kəndimizi qeyd-şərtsiz qaytararsa, üstəgəl Zəngəzur dəhlizinin açılması istiqamətində əməli addımlar atarsa sülh sazişi nəinki COP29-a qədər, hətta bu günlərdə də imzalana bilər. Yəni, sülhə aparan bütün şərtlər İrəvanın yürüdəcəyi xətt və Paşinyanın siyasi iradəsi ilə bağlıdır. Ermənistan hakimiyyəti bunu dərk etməli və düzgün nəticə çıxarmalıdır. Hesab edirəm ki, indiki şəraitdə İrəvan sülh müqaviləsinin şərtlərinə əməl etməsə, Bakı təzyiqi davam etdirməlidir. Və bu təzyiq bütün istiqamətlərdə və real nəticə əldə olunana qədər gündəmdə qalmalıdır.

*Təqdim etdi:*
***İmran BƏDİRXANLI***
***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 307** **Bakı şəhəri, 20 iyun 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 18 dekabr tarixli 501 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsi Şərtləri və Qaydası"nda dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 18 dekabr tarixli 501 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (V kitab), maddə 1602 (Cild I); 2024, № 1, maddə 109) ilə təsdiq edilmiş "Əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsi Şərtləri və Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1.4-cü bənddə "Protez-Ortopedik Bərpa Mərkəzi" sözləri "Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzi" sözləri ilə əvəz edilsin.

**2.** 2.5-ci bəndə "hazırlanması" sözündən sonra ", dəyişdirilməsi" sözü əlavə edilsin.

**3.** 2.6-cı bəndə "müəyyən olunmuş" sözlərindən sonra "istifadə və" sözləri əlavə olunsun və həmin bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Şəxsə bu Qaydanın əlavəsinin 1.1.5-ci yarımbəndində göstərilən kosmetik yuxarı ətraf protezi verildiyi halda, bu Qaydanın əlavəsinin 1.1.1-ci, 1.1.2-ci və 1.1.3-cü yarımbəndlərində göstərilən əsas yuxarı ətraf protezlərinin istifadə müddəti 1 il artırılır.".

**4.** 2.7-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.7. Bu Qaydanın əlavəsi ilə müəyyən olunmuş istifadə müddəti bitdikdən sonra reabilitasiya vasitələri Mərkəz tərəfindən yenisi ilə əvəz edilir.".

**5.** Aşağıdakı məzmunda 2.7-1-ci, 2.7-2-ci və 2.11-ci bəndlər əlavə edilsin:

"2.7-1. Reabilitasiya vasitələri bu Qaydanın 3-cü hissəsinin müddəaları nəzərə alınmaqla, müəyyən edilmiş təminat müddətində istehsalat qüsuru aşkarlandığı halda, Mərkəzin tibbi-texniki komissiyasının qərarı əsasında Mərkəzin vəsaiti hesabına təmir edilir və ya bu Qaydanın əlavəsi ilə müəyyən edilmiş təmir müddətlərində təmir etmək mümkün olmadıqda yenisi ilə əvəz edilir.

2.7-2. Bu Qaydanın 3-cü hissəsinin müddəaları nəzərə alınmaqla, reabilitasiya vasitələri istifadə müddəti başa çatmazdan əvvəl yararsız vəziyyətə düşdükdə, yaxud Şəxsdə hər hansı bir xəstəlik və ya anatomik-funksional dəyişiklik baş verdikdə, habelə 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsin inkişafı ilə əlaqədar istifadəyə uyğun olmadığı təqdirdə həmin reabilitasiya vasitələri Mərkəzin tibbi-texniki komissiyasının qərarı əsasında dövlət vəsaiti hesabına təmir edilir və ya bu Qaydanın əlavəsi ilə müəyyən edilmiş təmir müddətlərində təmir etmək mümkün olmadıqda isə yenisi ilə əvəz edilir.

2.11. Bu Qaydanın 3.14-cü bəndində nəzərdə tutulmuş hal istisna olmaqla, Şəxsə verilmiş reabilitasiya vasitələrinin satılması və ya bağışlanması qadağandır.".

**6.** 3.6-cı və 3.7-ci bəndlər ləğv edilsin.

**7.** 3.8-ci bənd aşağıdakı redaksiyada verilsin:

"3.8. Təkrarli oturacaqlar təyin edilərkən, Şəxsin yaşı, çəkisi və boyu nəzərə alınır. Tibbi göstəriş olduğu halda, Şəxs bir ədəd açıq məkanda istifadə üçün mexaniki və ya mühərrikli, bir ədəd qapalı məkanda (otaqda) istifadə üçün, eləcə də bir ədəd sanitar təchizatlı mexaniki təkrarli oturacaqla təmin edilir.".

**8.** 3.9-cu bəndin birinci cümləsi ləğv edilsin.

**9.** 3.12-ci bənddə "Agentlik" sözü "Mərkəz" sözü ilə əvəz edilsin.

**10.** 3.13-cü bənd ləğv edilsin.

**11.** 3.14-3.16-cı bəndlər aşağıdakı redaksiyada verilsin:

"3.14. Minik avtomobili verilmiş Şəxs vəfat etdikdən sonra avtomobil onun ailə üzvündən birinin adına keçirilməklə qeydiyyatdan çıxarılır və vəfat etmiş Şəxsin ailəsinin mülkiyyətinə verilir.

3.15. Minik avtomobili almış ailəsi (ər-arvad, valideynlər və uşaqlar) olmayan Şəxs vəfat etdikdə, minik avtomobili Sosial Xidmətlər Agentliyi tərəfindən götürülür və növbəlilik siyahısındakı ardıcıllığa uyğun olaraq digər Şəxsə verilir.

3.16. Şəxsə verilmiş təkrarli oturacaqlar istifadə müddəti başa çatmamışdan əvvəl yararsız vəziyyətə düşdükdə, Şəxsin və ya onun qanuni nümayəndəsinin müraciəti əsasında Mərkəzin tibbi-texniki komissiyası tərəfindən həmin reabilitasiya vasitələrinə 3 (üç) iş günü müddətində texniki baxış keçirilir, təmiri mümkün olduqda Mərkəzin tibbi-texniki komissiyasının qərarı əsasında təmir olunur və ya bu Qaydanın əlavəsi ilə müəyyən edilmiş təmir müddətlərində təmiri mümkün olmadıqda Mərkəzin tibbi-texniki komissiyasının aktı və Agentliyin qərarı əsasında Mərkəz tərəfindən yenisi ilə əvəz olunur.".

**12.** Aşağıdakı məzmunda 3.16-1-ci bənd əlavə edilsin:

"3.16-1. 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsə verilmiş təkrarli oturacaqlar, istifadə müddəti başa çatmamışdan əvvəl şəxsin inkişafı ilə əlaqədar istifadəyə uyğun olmadığı təqdirdə, onun qanuni nümayəndəsinin müraciəti əsasında həmin reabilitasiya vasitəsi Mərkəzin tibbi-texniki komissiyasının qərarı əsasında Mərkəz tərəfindən yenisi ilə əvəz olunur.".

**13.** "Əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsi Şərtləri və Qaydası"na əlavə - "Əlilliyi olan şəxslərə reabilitasiya vasitələrinin verilməsinə dair tibbi göstərişlər, əks- göstərişlər, reabilitasiya vasitələrinin istifadə, təminat, hazırlanma, təmir və ya dəyişdirilmə müddətləri" yeni redaksiyada verilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 313** **Bakı şəhəri, 24 iyun 2024-cü il**

**Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması haqqında**

"Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları"na əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2024-cü il 1 oktyabr saat 06:00-dək uzadılsın.

**2.** "Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 9, maddə 1209 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 11 mart tarixli 131 nömrəli Qərarı) 1.1-ci bəndində "iyul" sözü "oktyabr" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Kollektiv Qərb Fransadan narazıdır

**(əvvəli 1-ci səhifədə)**

Qeyd edək ki, Fransanın Ermənistana dəstək ritorikasının ziyanlı tərəfləri ilə bağlı erməni cəmiyyətində də oturuşmuş fikir formalaşıb. Bu fikrin meydana çıxması yalnız indinin söhbəti deyil. Bir neçə ildir ki, ayrı-ayrı erməni siyasi ekspertləri və icmalçıları bu barədə, az qala, bar-bar bağırırlar. Onlar əvvəllər deyirdilər ki, Parisin İrəvanı Bakı ilə konfliktə təhrik etmək yönümlü dəstək bəyanatları boş söz yığınından başqa bir şey deyil. O zaman həmin eskpert və politoloqlar ən doğru dəstəyin silah-sursat yardımı olduğunu vurğulayırdılar. Rəsmi Parisin təmsilçiləri isə bildirirdilər ki, NATO üzvü olan Fransanın Kollektiv Təhlükəsizlik Müqaviləsinin üzvü Ermənistanı silahlandırması düzgün deyil. Ancaq ardınca bu deyimdən uzaq dayanıldı. Paris İrəvanı sınıq-salxaq, mənasız döyüş texnikası və silahlarla təmin etdi. Lakin bu da heç bir nəticə vermədi. Azərbaycanın qətiyyətli davranışları Ermənistanı sülhə doğru irəliləmək məcburiyyətində qoydu.

Amma görünür, nə Fransa, nə də Ermənistan keçmişin dərslərindən nəticə çıxarmaq niyyətindədirlər. Hazırda Paris həm İrəvanı silahlandırır, həm də ümumən Avropanın ictimai rəyində ölkəmizlə əlaqədar mənfi rəy formalaşdırır və haqqında söz açdığımız "Le Monde"-də yayımlanmış yazı da bunun növbəti göstəricisidir. Məqsəd eynidir – Cənubi Qafqazda sülh prosesini pozmaq. Yəni, Uorlik tam haqlıdır. Ermənistana silah tədarükü həmin məqsədin bir, media vasitəsilə Azərbaycanın mənfi obrazının formalaşdırılması isə digər elementidir.



Diqqət yetirək, "Le Monde" Qafqaz ölkəsi Azərbaycanın Fransaya münasibətdə düşmənçilik xətti seçdiyini önə çəkir. Nəşr vurğulayır ki, Fransa hakimiyyətinin Azərbaycanın Yeni Kaledoniyaya müdaxiləsi ilə bağlı son aylarda qəzəblənməsi sürpriz ola bilər. Çünki əvvəl Qafqaz ölkəsindən gələn təhlükənin reallığı şübhə doğururdu: "Bununla belə, regional və ya ərazi separatizminin şiddətlənməsinə və Fransanın maraqlarına qarşı yönəlmiş hücumlar çoxlarını inandırıb ki, Bakının məqsədi başqa xalqların öz müqəddəratını təyinetmə hüququnu qorumaqdan kənara çıxır".

Ardınca isə fransız nəşri yazır ki, Bakının strategiyası keçmiş Sovet İttifaqının İkinci Dünya müharibəsindən sonra demokratiyaları sarsıtmaq tarixinin bir hissəsidir. Hər halda, bundan cəfəng məntiq ola bilməz. Belə bir sərsəm ritorikaya üstünlük verilməsi, eyni zamanda, mövcud xüsusda Azərbaycan tərəfindən, guya, sabiq SSRİ-nin Dövlət Təhlükəsizliyi Komitəsinin ("KQB") üsullarından istifadə edildiyinin bildirilməsi onu göstərir ki, Fransanın ictimai fikrində, belə demək mümkünsə, təfəkkür qıcqırması gedir.

Əlbəttə, hər şey aydındır. "Le Monde" dünyanın anti-sovet baxışlarını Azərbaycan fonunda körükləmək niyyəti güdür. Fransanın Ermənistana yardımı sanki məzluma dəstək kimi göstərilir. Əlbəttə, Parisin Cənubi Qafqaz maraqlarının üzərindən keçilməklə. Göründüyü kimi, ortada Fransa adına son dərəcə rəzil və miskin mənzərə var. Dünyanın mütərəqqi ölkəsi olduğunu bəyan edəsən, bəşəri dəyərlərdən danışasan, yekunda belə bir primitiv siyasi texnologiyaya baş vurasan. Makronun ölkəsini endirdiyi səviyyə budur.

Bəli, bu mənzərə nə üçün formalaşıb, səbəb bəllidir. Bütün qlobal oyunçular tərəfindən qeyri-ciddi qarşılanan Fransa çalışır ki, Ermənistana öz mənafelərinin təminatı naminə göstərdiyi dəstəyi həm müqəddəsləşdirsin, həm də diqqəti əsas məsələdən, yəni lokal Qafqaz maraqlarını gerçəkləşdirmək niyyətindən yayındırsın. Nəzərə alaq ki, Parisin məqamı kollektiv Qərbin digər oyunçuları tərəfindən dəstəklənmir. Çox güman, ATƏT-in Minsk qrupunun keçmiş həmsədri C.Uorlik məhz bu səbəbdən meydandadır. O, durumun fərqindədir. Sadəcə, diplomat etika xatirinə təfərrüatlara varmır. Yalnız konkret, üzdə olan məsələdən söz açır. Yəni, Fransanın Ermənistana silah tədarükünün yolverilməzliyindən və bunun sülh prosesinə mənfi təsirlərindən.

"Le Monde" isə yazır ki, Azərbaycan 2023-cü ilin iyulunda Fransanın dənizaşırı ərazilərində müstəqillik hərəkatının tərəfdarlarını fransız "neokolonializminə" qarşı qüvvələri birləşdirməyə çağıran Bakı Təşəbbüs Qrupunun yaradılmasını dəstəklədi. Görünür, ölkəmizin prinsipial xətti Parisi narahat etməkdədir. 2024-cü ilin əvvəlində Azərbaycan Milli Məclisinin Korsikanın, eləcə də Yeni Kaledoniya və Fransız Polineziyasının müstəqilliyinin tanınmasına dair çağırışı da həmçinin. Nəşr Fransa rəsmilərinin Azərbaycanın Yeni Kaledoniyanın işlərinə qarışmaqda ittihamına da yer ayıraraq dramatizmi bir qədər gücləndirib.

***Ə.RÜSTƏMOV***
***XQ***

Milli Məclisdə

# Dövlət büdcəsinə dəyişiklik təsdiqləndi



**İyunun 25-də Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin növbədənkənar sessiyasının plenar iclası keçirildi. Sədr dedi etdi ki, iyunun 26-da ölkəmizdə Silahlı Qüvvələr Günü qeyd ediləcək. 106 il öncə yaradılmış Azərbaycan Ordusu şərəfli inkişaf yolu keçərək bu gün dünyanın ən güclü orduları sırasında yer alır.**

S.Qafarova Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin 44 günlük Vətən müharibəsində və bir günlük antiterror tədbirlərində milli hərb tariximizə yazdıqları şanlı səhifələrin xalqımızın qürur mənbəyi olduğunu bildirdi.

Spiker dedi ki, Silahlı Qüvvələr Gününü bayram edərkən, Azərbaycan xalqı hərbi nailiyyətlərindən qürur duymaqla yanaşı, ölkənin müdafiə potensialını daha da möhkəmləndirməyə, regionda daimi sülh və sabitlik yaradılmasına kömək göstərməyə sadiq olduğunu da təsdiq edir.

O, Azərbaycan Silahlı Qüvvələrinin qarşıdakı illərdə daha da inkişaf edəcəyinə və dünyanın qüdrətli orduları sırasında öz yerini möhkəmləndirəcəyinə əminliyini bildirdi.

S.Qafarova Milli Məclis adından Silahlı Qüvvələr Günü münasibəti ilə müzəffər Ali Baş Komandan, ordumuzun qəhrəman əsgər və zabitlərini, bütün hərbi qulluqçuları təbrik etdi, onlara yeni uğurlar arzuladı.

Sonra deputatlar cari məsələrlə münasibətlərini bildirdilər və yenilməz ordumuzun 44 günlük Vətən müharibəsində göstərdiyi qəhrəmanlıqdan söhbət açdılar.

Spiker gündəliyə 17 məsələnin daxil edildiyini və ilk 3 məsələnin büdcə zərfindəki qanun layihələrinin olduğunu dedi. Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" qanunda edilmiş dəyişikliklər barəsində məlumat verdi. Onun sözlərinə görə, dəyişikliklərdə 3 milyard 796 milyon manat məbləğində yeni xərclərin həyata keçirilməsi nəzərdə tutulub. Həmin xərclərin bir sıra prioritet istiqamətlərə yönəldiləcəyini deyən komitə sədri bura işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən tikinti, bərpa və yenidənqurma işləri, ölkənin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin daha da artırılması, infrastruktur və digər layihələrin maliyyə təminatı, beynəlxalq fəaliyyət üzrə tədbirlərin maliyyələşdirilməsi və digər zəruri xərclər, təmir və s.-in daxil olduğunu bildirdi.

Komitə sədri qeyd etdi ki, yenidən baxılma ilə 2024-cü ilin dövlət büdcəsinin xərcləri 39 milyard 707 milyon manat məbləğində, dövlət büdcəsinin gəlirləri isə 36 milyard 353 milyon manat həcmində proqnozlaşdırılır. 2024-cü ilin dövlət büdcəsinin kəsiri 764 milyon manat artaraq, 3 milyard 354 milyon manata çatdırılır.

Sonra Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında" və "İşsizlikdən Sığorta Fondunun 2024-cü il büdcəsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə məlumat verdi.

Müzakirələrdən sonra dəyişikliklər səsverməyə çıxarılaraq qəbul edildi.

Gündəlikdəki digər qanun layihələri də müzakirələrdən sonra səsə qoyularaq təsdiqləndi.

***Əliqismət BƏDƏLOV***
***XQ***

# Müdafiə nazirinin bayram təbriki

**Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov 26 İyun Silahlı Qüvvələr Günü münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətini təbrik edib.**

Zabitləri, gizirləri, miçmanları, kursantları, çavuşları, əsgərləri, matrosları və mülki işçiləri ordu günü münasibətilə səmimi təbrik edən nazir ölkəmizin müdafiə qüdrətinin artırılması naminə müqəddəs və şərəfli xidmətlərində onlara uğurlar arzulayıb.

Daha sonra bildirilib ki, tariximizin şanlı səhifəsi sayılan bu gün, 106-cı ildönümünü böyük qürur hissi ilə qeyd etdiyimiz Azərbaycan Ordusunda vahid komandanlığın təmin edilməsi, nizami ordu quruculuğu prosesinin prioritet məsələ elan olunması xalqımızın ümummilli lideri Heydər Əliyevin bu istiqamətdə atdığı cəsarətli addımların nəticəsidir: "Dövlətimizin başçısı İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın diqqət və qayğısı sayəsində hərbi qulluqçuların xidməti-məişət şəraitinin, maddi rifah halının, mənzil məsələlərinin yaxşılaşdırılması və sosial qayğılarının həlli istiqamətində görülən işlərin davam etdirilməsi hərbi xidmətə marağın artmasına səbəb olmuşdur".

Sonda qeyd edilib ki, işğaldan azad olunmuş ərazilərimizdə Vətənin müdafiəsində ayıq-sayıq dayanan Azərbaycan Ordusu bərpa-quruculuq işlərinin ən yüksək səviyyədə həyata keçirilməsinə və Böyük Qayıdışa layiqli töhfələr verir: "Əminəm ki, Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi anda və nizamnamələrə həmişə sadiq qalacaq, döyüş və mənəvi-psixoloji hazırlığınızı yüksəldəcək, xidmətinizdə yeni uğurlar əldə etmək məqsədilə səy və bacarıqlarınızı daima artıracaqsınız".

***XQ***

# Şuşada Beynəlxalq Gənclər Forumu

**Şuşa şəhərində Beynəlxalq Gənclər Forumu başa çatıb. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Heydər Əliyev Fondu və İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının birgə təşkilatçılığı ilə keçirilən tədbirdə müxtəlif dövlətlərin yüksəkvəzifəli nümayəndələri, qonaqlar və ICESCO-ya daxil olan ölkələrdən 200-ə yaxın şəxs iştirak edib.**



Forumun açılış mərasimində gənclər və idman naziri Fərid Qayıbov Şuşanın son zamanlar bir çox tədbirə ev sahibliyi etdiyini, gənclərin belə böyük layihələrdə iştirakının önəmli olduğunu vurğulayıb. Fənclər və idman nazirinin müavini İndira Hacıyeva bildirib ki, burada əsas məsələ İslam Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrdə gənclərin sülh şəbəkəsini genişləndirməkdir.

Beynəlxalq Forumunun yüksək səviyyədə təşkil olunduğunu deyən Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Aydın Kərimov bölgədəki quruculuq işlərində gənclərin də fəal iştirak etdiyini söyləyib.

Forumun keçirilməsinə göstərdiyi dəstəyə görə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkür edən ICESCO-nun baş katibi Səlim Əl-Malik Şuşaya səfərini böyük xoşbəxtlik adlandırıb. Heydər Əliyev Fondunun nümayəndəsi Elvin Aslanov isə bir ay öncə ICESCO ilə imzalanmış əməkdaşlıq müqaviləsinin önəmindən bəhs edib.

Sonra panel müzakirələr keçirilib. Forum öz işini iyunun 26-27-də Bakı şəhərində davam etdirəcək.

***XQ***

# Əliyalın cəngavərlərin Şuşa şücaəti




**"...Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar. Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir". Bu fikirlərin müəllifi ulu öndər Heydər Əliyevdir. 26 İyun Silahlı Qüvvələr Günündə dahi şəxsiyyətin Şuşa ilə bağlı düşüncələrini müasir hərb tariximizin ən şanlı səhifəsi sayılan Şuşa əməliyyatı fonunda yada salmaq isə bir ayrı qürur və fəxrdir.**

Ümummillli lider Heydər Əliyev Şuşanın Azərbaycan xalqının milli mənlik şüurundakı yeri və rolunu son dərəcə incəliklə vurğulamışdı. Bunun nəticəsi idi ki, 44 günlük Vətən müharibəsində ordumuzun başlıca hədəfi məhz Şuşa idi. Nəzərə alaq ki, şəhərin işğaldan azad olunması savaşın taleyini həll etdi, Ermənistanı diz çökdürdü. Prezident İlham Əliyevin bildirdiyi kimi, "Ermənistan rəhbərliyi yaxşı fikirləşməlidir. Artıq qarşımızda diz çöküb, onları diz çökdürmüşük".

Şuşanın qurtuluşu milli ruhumuzun təntənəsi idi. Heydər Əliyev şəxsiyyətinin böyük dəyər verdiyi ruhun təntənəsi. Ona görə də Prezident İlham Əliyev noyabrın 8-də Şuşa müjdəsini verməzdən əvvəl Fəxri xiyabana yollanmış, ulu öndərin məzarını ziyarət etmişdi. Dövlətimizin başçısı xalqa müraciətində isə bu fikirləri dilə gətirmişdi: "Mən bu gün ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu öndərin ruhu şaddır! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!"

Prezident İlham Əliyevin aşağıdakı fikirləri də 26 İyun Silahlı Qüvvələr Gününün ab-havası ilə səsləşir: "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür!"

Bəli, tam qətiyyətlə demək olar ki, Şuşanın düşməndən azad edilməsi yalnız hərb deyil, eyni zamanda, müstəsna ruh işi idi. Heydər Əliyev şəxsiyyətinin siyasi fəhmindəki Vətənin hər qarışına sahiblənməyin, güzəştə getməməyin, barışmazlığın ruhu. Təsadüfi deyil ki, Prezident İlham Əliyev 2021-ci il yanvarın 14-də Şuşada olarkən, son dəfə 39 il bundan əvvəl



Ümummilli liderin şəhərə tarixi və unudulmaz səfəri zamanı gəldiyini vurğulamış və bildirmişdi ki, qəhrəman Azərbaycan Ordusu mükəmməl hərbi əməliyyat keçirərək, cəsarət, rəşadət, qəhrəmanlıq, güc nümayiş etdirərək, Şuşanı işğalçılardan azad edib, şəhərdə Azərbaycan Bayrağını dalğalandırıb.

Ümumən, Milli Ordumuzun Şuşa əməliyyatına dəyər verən fikirlər həddən artıq çoxdur. Özü də yalnız ölkəmizdə deyil, onun hüdudlarından kənarda da hərb işinin biliciləri bu əməliyyatın heyrətamizliyindən ağızdolusu danışırlar. Onların səsləndirdikləri fikirlər Şuşa döyüşlərinə tarixdə əbədilik ünvanı qazandırır. Nəzərə alaq ki, şəhər təbii istehkam olduğundan, ora tanklarla, hansısa digər ağır silahlarla daxil olmaq mümkünsüzə çevrilmişdi.

Doğrudur, Şuşa əməliyyatı reallaşdırılarkən, iki məqbul variant var idi. Bunlardan biri şəhərə hücumu hava zərbələri endirməklə, ərazini ağır artileriyadan atəşə tutmaqla gerçəkləşdirmək idi. Amma belə olduqda dağıntılar qaçılmaza çevrilər, memarlıq abidələri zərər görərdi. Buna görə də alternativ variant seçildi. Son dərəcə çətin variant. Yəni, əlbəyaxa döyüşlə şəhəri azad etmək. Nəinki Azərbaycanın, eləcə də bütün dünyanın hərb tarixinə qızıl hərflərlə yazılan da elə həmin bu variant oldu.

Bəli, Silahlı Qüvvələr Gününü qeyd etdiyimiz bu gün tam qətiyyətlə onu da deyə bilərik ki, Şuşanın yenidən Azərbaycana çevrilməsində böyük hesabla ən böyük rolu, belə demək mümkünsə, silahsız qüvvələrimiz oynadı. O qüvvələrimiz ki, böyük missiyanı topu, tankı xəncərlərə, bıçaqlara, süngülərə dəyişərək gerçəkləşdirdilər. Qayaları, dağları, dərələri, sındırımları keçərək, düşmənlə üzbəüz döyüşdə şücaət göstərdilər. Erməni komandanlığı bunu qətiyyən gözləmir, ordumuza Qırmızı Bazar ətrafında, habelə Laçın istiqamətində müqavimət göstərməyi planlaşdırırdı. Necə deyərlər, sən saydığını say, görək, fələk nə sayır. Noyabrın 8-də Fələk bizim, yəni haqqın tərəfində idi. 8 noyabr tarixində Haqq həm də gücünü göstərirdi. Elə bir güc ki, doğma yurd həsrətinə son qoymaq arzusundan və sevdasından qidalanırdı.

Təsadüfi deyil ki, Prezident İlham Əliyev bu barədə söz açarkən, əsgərlərimizin Şuşaya çatmaq üçün yarğanları, meşələri və qayaları keçdiklərini dəfələrlə, özü də böyük fəxrlə vurğulayıb. Ali Baş Komandan öz əsgərləri ilə nə qədər öyünsə, yenə azdır. Qeyd edək ki, onlar noyabrın 4-də strateji Şuşa-Laçın yolunun bir hissəsini nəzarətə götürmüş, noyabrın 6-da yüngül silah-sursat ilə təchiz edilmiş, hərəsi 100 nəfərdən ibarət dörd qrupla müqəddəs şəhərimizə doğru yön almışdılar.

Ümumi sayı 400 nəfər olan Xüsusi Təyinatlı Qüvvələrimiz Şuşanın sıldırımlarına iplərlə dırmaşaraq, səhər saatlarında şəhərə dörd tərəfdən daxil olmuşdular. Yüzlərlə itki verən erməni silahlıları günortadan sonra şəhərdən tam çıxarılmışdı. Onların Şuşaya nəzarəti bərpa etmək cəhdləri boşa çıxmış, hətta noyabrın 7-də şəhərə atdıqları qadağan olunmuş İsgəndər-M ballistik raketləri də heç bir fayda verməmişdi.

Sonda onu da bildirək ki, uzun illər Milli Ordu – Silahlı Qüvvələr Gününü indiki qədər böyük qürur və mətanətlə qeyd etməmişdik. Ancaq əsgər, gizir və zabitlərimizin qəhrəmanlığı bizə nəinki torpaq həsrətini unutdurdu, eyni zamanda, 26 iyun tarixini layiqli şəkildə yada salmaq xoşbəxtliyini verdi. Haqqında söz açdığımız Şuşa Qələbəsi bu xoşbəxtliyin böyük, nəsillərə miras qalacaq salnaməsidir. Bu salnamədə xalqımızın birliyinin, Haqq işinin, iradəsinin misilsiz təntənəsi kimi müqəddəslik var. Uca Tanrı müqəddəs bildiyimiz dəyərləri əbədi qılsın! Xalqımız, dövlətimiz və güclü Ordumuz var olsun!

***Ə.CAHANGİROĞLU***
***XQ***

# QHT-lər Ermənistanın ekoloji terrorunu kəskin ittiham edib

**Zəngilan rayonundakı Konqres Mərkəzində keçirilən Azərbaycan QHT-lərinin Əməkdaşlıq Forumu dünən başa çatıb.**

İctimai birliklərdən 200-dək təmsilçinin iştirak etdiyi forumun ikinci günündə "Ermənistanın dağ-mədən sənayesinin ekoloji fəsadları" və "COP29 və Yaşıl Dünya Naminə Həmrəylik Hərəkatı" mövzularında panel müzakirələr keçirilib.

"Azərbaycan Jurnalistlər Şəbəkəsi" İctimai Birliyinin sədri Ayaz Mirzəyevin moderatorluğu ilə keçən "Ermənistanın dağ-mədən sənayesinin ekoloji fəsadları"panelində Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında İctimai Şuranın sədri, "Environmental Protection First" (EPF) Koalisiyasının həmtəsisçisi Amin Məmmədov, Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondunun prezidenti Sabit Bağırov, "Azərbaycan Kartoqrafları" İctimai Birliyinin sədri Müqabil Bayramov, Naxçıvan Dövlət Universiteti Tələbə Gənclər Təşkilatının sədri Əziz Qasımov Ermənistanın dağ-mədən sənayesinin ekoloji fəsadları haqqında ətraflı məlumatlar veriblər.

Forum iştirakçılarına Ermənistan respublikasının mineral xammal resurslarının – dağ-mədən sənayesinin xəritəsi təqdim olunub. Bildirilib ki, 3 dildə hazırlanan xəritədə Ermənistandan Azərbaycana axan çayların çirkləndirilməsi faktları öz əksini tapıb. Göstərilən faktlar ekologiya ilə yanaşı, Sədərək rayonunun ərazisində yaşayan 23 min nəfər əhali üçün də ciddi təhlükə sayılır.

Azərbaycan Milli QHT Forumunun İdarə Heyətinin üzvü Azər Allahverənovun moderatorluğu ilə keçən "COP29 və Yaşıl Dünya Naminə Həmrəylik Hərəkatı" adlı panel müzakirədə isə COP29-un Təşkilat Komitəsinin üzvü, "Smart Nation" platformasının təsisçisi Şəbnəm Məmmədova, COP29-un Təşkilat Komitəsinin üzvü, "Qadın, İnkişaf, Gələcək" İctimai Birliyinin sədri Gülşən Axundova, COP29-un Təşkilat Komitəsinin üzvü, "EkoSfera Sosial Ekoloji Mərkəzinin sədri Firuzə Sultanzadə, COP-lar üzrə ekspert İsa Əliyevin çıxışları dinlənilib. Çıxışlarda iqlim dəyişməsinə təsir edən amillərdən, ekoloji fəsadların aradan qaldırılması üçün görülən tədbirlərdən söhbət açılıb. Bildirilib ki, Azərbaycanın COP29 kimi möhtəşəm bir tədbirə ev sahibliyi etməsi təqdirəlayiq haldır.

Panel müzakirələrdən sonra Azərbaycan QHT-lərinin Əməkdaşlıq Forumunun iştirakçıları adından Azərbaycan Respublikası Prezidentinə ünvanlanan müraciətdə deyilir: "Sizin Yaşıl Dünya Naminə ardıcıl və məqsədyönlü fəaliyyətinizi yüksək qiymətləndirir və təqdir edirik. Beynəlxalq ictimaiyyətin yekdilliklə COP29-a ev sahibliyini bu dəfə məhz Azərbaycana həvalə etməsi Sizin dünyanı həmrəyliyə dəvət edən yaşıl enerji siyasətinizə olan böyük hörmət və rəğbəti aydın ifadə edir".

Tədbirin sonunda bədii hissə təqdim olunub.

***XQ***

# Gədəbəydə oftalmoloji aksiya

**Milli Oftalmologiya Mərkəzinin avtomobil səyyar klinikası iyunun 24-də və dünən Gədəbəydə tibbi aksiya keçirib.**

Akademik Zərifə Əliyevanın 101 illiyinə həsr edilmiş tibbi xidmətin təşkilində əsas məqsəd rayon sakinlərini operativ şəkildə müayinə etmək, görmə patologiyalarının erkən aşkarlanmasına nail olmaq və göz xəstəliklərindən yarana biləcək potensial problemlərin qarşısını almaqdır. Qeyd edək ki, belə tibbi aksiyalar çərçivəsində bölgə sakinlərinə heç yerə getmədən birbaşa səhiyyə xidmətləri təqdim edilir. Aksiyada şəhid ailələri, qazilər, aztəminatlı ailələr tibbi müayinədən keçiblər.

Tibbi aksiyanın əsas məqsədi Gədəbəy rayonundan olan şəhid, qazi və aztəminatlı ailələr üçün tibbi xidmət göstərməkdir. 2 günlük səyyar oftalmoloji müayinələrin keçirilməsi vaxt itirmədən, yerindəcə operativ şəkildə vətəndaşların müayinə edilməsi, görmə qabiliyyətinin zəifləməsinin qarşısının alınması, görmə patologiyasının erkən diaqnostikasının aşkarlanması və müalicələrin təyin olunmasına kmək edib.

***Z.HÜSEYNOVA***
***XQ***

# Postmüharibə dövründə liderlik

V MƏQALƏ



## Zəkalı xarici siyasət anlayışı

Məqsədimiz zəkaya, mənəviyyata, ağıla, fəzilətə əsaslanan və "Intelligent Foreign Policy" adlandırdığımız xarici siyasət fenomeninin Azərbaycan təcrübəsinin siyasi-nəzəri təhlilini aparmaqdan ibarətdir. Bir neçə səbəbdən bu məsələni aktual hesab edirik. Birincisi, bizə görə, zəkavi xarici siyasətin Azərbaycan nümunəsinin, ümumiyyətlə, müasir liderlik nümunələri sırasında özəl və təkrarolunmaz yeri vardır. Bu liderlik istiqaməti XXI əsrin şərtləri daxilində Avrasiya məkanında analoqu olmayan modeldir. Bunu konseptual, siyasi və nəzəri cəhətdən sübut edəcəyik.

İkincisi, axtarışlar dünyanın hər hansı ölkəsi üçün əsl zəkavi xarici siyasətin sistemli və konseptual nümunəsinin mövcudluğunu üzə çıxarmadı (məxfi yanaşmaları bilmirik). Politoloji kontekstdə Jozef Nayın (kiçik) dərin və maraqlı araşdırması vardır. Lakin, o, fikrimcə, bizim qoyduğumuz kontekstdə problemi tam əhatə etmir və həm də yalnız ABŞ təcrübəsi ilə bağlıdır. Üçüncüsü, "Intelligent Foreign Policy" termini məhz Azərbaycan Prezidenti İlham Əliyevlə bağlı işlədilir və onun araşdırılması ilk növbədə Azərbaycan filosof, politoloq və alimlərinin işidir.

Bizim gəldiyimiz qənaət ondan ibarətdir ki, hələlik "Intelligent Foreign Policy" termininin ifadə etdiyi liderlik məzmunu tam mənasında yalnız İlham Əliyevin fəaliyyətinə məxsusdur. Bu qənaət mühüm hesab etdiyimiz bir neçə siyasi-diplomatik xarakterli faktorun qarşılıqlı münasibətləri fonunda yaranmışdır. Onları konkret müəyyən etməyə çalışaq.

Hər şeydən öncə, zəkavi, müdrik siyasi liderliyin çoxkomponentli olduğunu vurğulamaq lazımdır. Bu o deməkdir ki, anlayış kimi "zəkavilik" yalnız şüur, təfəkkür, intellekt koqnitiv mahiyyətli (yəni sırf nəzəri, məntiqi idraki) parametrləri ehtiva etmir. Bunlarla yanaşı, ümumiyyətlə, Şərq siyasi süuru, o cümlədən, Azərbaycan dövlətçilik ənənəsi üçün çox əhəmiyyətli olan fəzilətliliyi də özündə ehtiva edir. Bu barədə qərbli Jozef Nay (kiçik) 2020-ci ildə dərc olunan "Mənəviyyatlı xarici siyasət nədir?" adlı məşhur məqaləsində açıq yazır ("Project Syndicate" nəşri). Onu deyək ki, J.Nay burada "mənəviyyat" anlayışını mədəniyyət, əxlaq və mənəvi dəyərlərin sintezində nəzərdə tutur.

O, arqumentlərini H.Kissincerin belə bir fikri ilə əsaslandırmağa çalışır. H.Kissincer demişdi: "Mənəvi ölçüləri olmayan güc hesablamaları hər bir fikir ayrılığını sınağa çevirəcək...". Fikirlərinə davam edən məşhur diplomat vurğulamışdı: "Digər tərəfdən, tarazlığa əhəmiyyət verməyən əxlaqi göstərişlər ya "səlib yürüşləri"nə, ya da əbəs siyasi çağırışlara meyillidir; ya da beynəlxalq nizamın özünün ahəngdarlığını təhlükə altına atmaq kimi həddindən artıq risk altındadır." (J.Nay, 2020).

Deməli, XXI əsrdə dünyanın ən güclü dövləti olan ABŞ-ın fəlsəfi və siyasi-nəzəri fikrində belə bir özəllik möhkəm yer almaqdadır: mənəviyyatdan, əxlaqdan və fəzilətdən kənarda xarici siyasətin perspektivi yoxdur! Onun uğuru müvəqqəti ola bilər və gec-tez iflasa aparıb çıxaracaq. Bunu anlamaq Qərb üçün bir qədər gec deyilmi? Bəlkə, Qərb siyasətçiləri və politoloji fikir formalşdıranları Makiavelliyə elə də önəm verməməli idilər?

Əslində, bizim üçün əhəmiyyətli və daha maraqlı olanı bundan ibarət deyildir. Çünki Qərbin siyasi liderləri axtarışda olanda bizim üçün fakt olan bir həqiqət mövcud idi. Biz ulu öndər Heydər Əliyevin "mənəviyyatı olmayanların siyasətdə işi olmamalıdır" kəlamını nəzərdə tuturuq. Və yaxud bu tezisi "siyasətlə məşğul olmaq üçün gərək ona layiq mənəvi-əxlaqi kefiyyətlərə malik olasan" kimi demək mümkündür. Yəni onlar üçün tapıntı olan bir politoloji məqam ənənəmizdə qədimdən mövcuddur və onun daşıyıcıları müasir Azərbaycan siyasətinin aparıcılarıdır. Azərbaycanda siyasi uğur mənəviyyatla sıx bağlılıqda dərk edilir və qəbul olunur.

## Rasionallıq və mənəviyyat

Deməli, müasir Qərb politoloji fikrində zəkavi xarici siyasətin vacib komponenti kimi mənəviyyatı, əxlaqı, mədəniyyəti görməyə başlamışlar. Lakin məsələnin çox mühüm tərəfi siyasi zəkada məntiqi qüdrətə bağlıdır. Çünki liderin məntiqi potensialı geniş, əhatəli və inandırıcı olmasa, heç bir mənəviyyat onu uğura apara bilməz. Maraqlıdır ki, Azərbaycanda müstəqil dövlət quruculuğu təcrübəsində keçən əsrin 1991-1993-cü ilin birinci yarısı müddətində də bu həqiqət mövcud olmuşdur. Yalnız yüksək mənəviyyatlılıq və hətta böyük millilik liderin uğurunu təmin etmir. Burada rasional düşünmə və davranma olduqca ciddi əhəmiyyət kəsb edir. Lider mənəviyyatla yüksək məntiqi zəkanın sintezini tapa bilməlidir! Bəs burada istiqamətverici və müəyyənedici kriteriyalar nələr ola bilər?

Dünya təcrübəsi göstərir ki, yüksək məntiqi zəka ilə səmimi və böyük mənəviyyatın sintezi realpolitika müstəvisində reallaşanda liderin uğur şansı xeyli artır. Realpolitika kontekstində düzgün qərar qəbul etmək isə bu silsilə məqalələrdə dəfələrlə vurğuladığımız düzgün siyasi diaqnostika və siyasi proqnozlaşdırma əsasında hədəfləri, strateji məqsədləri müəyyən etmək sayəsində mümkün olur.

Digər mühüm kriteriya milli ideyanın mövcud tarixi mərhələnin şərtlərinə uyğun müəyyən edilməsindən ibarətdir. Heydər Əliyev keçən əsrin 90-cı illərində milli ideyanı "ərazi bütövlüyünün bərpa edilməsi" kimi müəyyən etməklə dahiyanə addım atmışdır. Onun reallaşması mexanizmi kimi isə güclü dövlət və güclü cəmiyyətin qurulmasını götürmüşdür.

Göründüyü kimi, Heydər Əliyev mərkəzində yüksək zəkavi məntiq və mənəviyyatın dayandığı çoxpilləli və çoxistiqamətli bir konseptual sistem yaratmış və onu eksklüziv olaraq reallaşdırmışdır. Buna görə də, şübhəsiz ki, Heydər Əliyev XX əsrin son onilliyində özünəməxsus zəkavi xarici siyasətin yaradıcısıdır və bu, siyasi varislik xətti ilə sonrakı mərhələdə Prezident İlham Əliyevin zəkavi xarici siyasət kursu üçün ciddi təməl rolunu oynamaqdadır.

## Siyasətdə intellektual fəzilət

Ümumiyyətlə, müasir fəlsəfədə "intellektual fəzilət" anlayışı çox aktualdır. Onu filosoflar çox müxtəlif aspektlərdə təhlil etməyə çalışırlar. Biz həmin anlayışı Heydər Əliyev – İlham Əliyev xətti daxilində Azərbaycan təcrübəsinə siyasi-nəzəri səviyyədə tətbiq edirik. Bunun üçün tam əsasımız vardır. Çünki İlham Əliyevin lider kimi fəaliyyətində intellektual fəzilətlilik ciddi bir yer tutur. Burada başlanğıcda "intellektual fəzilətliliyin" siyasi kontekstdə anlamı müəyyən olunmalıdır.

Ümumi fəlsəfi aspektdə "fəzilətlilik" anlayışı qədimdən fəlsəfi təfəkkürdə əsas yerlərdən birini tutmuşdur. Platon və Aristotel daxil yunan filosofları fəzilətliliyi əsasən mənəvi-əxlaqi dəyərlər kontekstində tərif etmişlər. Onun sırasında "müdriklik" fəzilətliliyin vacib komponentlərindən biri kimi təsəvvür edilmişdir. Bundan başqa, Platona görə, fəzilətli olmaq cəsarətli, ədalətli, fəal, comərd, daim yeni biliklər əldə etməyə çalışan şəxsiyyətin keyfiyyətləri kimi təqdim edilir. Aristotel və başqa qədim filosoflar da eyni mövqedən, lakin bir qədər fərqli keyfiyyətləri önə çəkməklə fəzilətliliyi tərif etmişlər.

Şərq fəlsəfi ənənəsində isə fəzilətlilik insan yaşam qaydasının (ontolojisinin) mərkəzi anlayışı kimi qəbul olunmuşdur. İnsan mütləq surətdə fəzilətli olmalıdır. Bunun üşün isə onun düşüncələri ilə əməlləri uyğun gəlməlidir (müasir fəlsəfi terminlərlə bu, mənəvi-əxlaqi fəzilətliliklə intellektual fəzilətliliyin vəhdəti deməkdir). Deməli, Şərq fəlsəfi təfəkküründə orijinal şəkildə qədim dövrlərdən mənəvi-əxlaqi fəzilətlə şüuri (intellekt) fəzilətlilik qarşılıqlı əlaqədə nəzərə alınmışdır. O cümlədən, bu, siyasətdə əsas keyfiyyətlərdən biri kimi qəbul edilmişdir.

Bəs müasir filosoflar intellektual fəzilətliliyi necə təsəvvür edirlər? Bu mövzuda yazılan əsərləri təhlil edib ümumiləşdirsək, belə bir mənzərə alınar: intellektual fəzilətlilik qeyri-xətti düşüncəni, açıqlığı, intellektual cəsarətliliyi, xeyirxahlığı, humanitarlığı, xilaskarlığı və milli ilə bəşərinin vəhdətini ifadə edir. Bu faktorlar arta və ya azala bilər – hələlik yekdil mövqe yoxdur. Ancaq biz siyasi liderlik aspektində siyasətçinin intellektual fəzilətliliyini bir neçə faktorla müəyyən etməyə üstünlük veririk. Həmin faktorlar İlham Əliyevin lider kimi "Intelligent Foreign Policy" həyata keçirən siyasətçi olaraq yüksək özəl keyfiyyətlərini müəyyən etməyə işıq salır.

## Siyasi təfəkkürün xoşniyyətliyi

İlham Əliyevin siyasi təfəkkürünün mahiyyətcə xoşniyyətli olması lider kimi fəaliyyətinin təməl prinsiplərindən biridir. Əslində, burada "xoşniyyyətli" anlayışının siyasi mənasını izah etmək zəruridir, çünki hələ siyasi ritorika buna alışmamışdır. Apardığımız fəlsəfi və siyasi-nəzəri araşdırma göstərir ki, İlham Əliyevin lider kimi siyasi təfəkkürünün mahiyyətcə xoşniyyətli olması təsadüfi deyildir – Azərbaycan Prezidentinin böyüdüyü ailədə bu ənənə mövcud olmuşdur. Heydər Əliyev fəaliyyəti dövründə intellektual fəzilətliliyin nümunəsi olmuşdur. Bu da Ulu öndərin siyasi təfəkkürünün təbiətən xoşniyyətli olmasından qaynaqlanır. Bu tezisin təsdiqini Heydər Əliyevin ifadə etdiyi fikirlərdə görmək mümkündür.

Ulu öndər demişdir: "Kiməsə qarşı ədalətsizlik edilibsə, bu ədalətsizliyin qarşısını ədalətlə almaq lazımdır. Amma ədalətsizliyə qarşı daha böyük bir cinayət törətmək, ədalətsizlikdən də betərdir". İntellektual fəzilətlilik nümunəsi budur! Ümumiyyətlə, türk dövlətçilik şüuruna xas olan gözəl bir xüsusiyyədən söhbət gedir. Yəni türk liderə qarşı ən böyük ədalətsizlik olsa belə, o yenə də ədalətli davranmalıdır. Böyük fəlsəfədir! Qədimdən türk həyat fəlsəfəsi və siyasətə aid əsərlərdə bu məqam yer almışdır. Məsələn, "Kutadğu-Bilik"də və "Nizamülmülk"də türk bəyin bütün hallarda ədalətli olması və ədaləti bütün cəmiyyətdə təmin etməsi mərkəzi tələb kimi qoyulur. Bu, türk cəmiyyətlərində lider olmağın əsas şərtidir.

Onun fəlsəfəsini də Heydər Əliyevin kəlamlarında görmək olur. Məsələn, Ulu öndər öyrədirdi: "Xalqı həmişə mənəviyyat birləşdirmişdir. Çünki başqa əsaslara nisbətən mənəvi əsaslar daha üstündür". Heydər Əliyev bununla, ümumiyyətlə, Azərbaycan cəmiyyətinin formalaşmasında və mövcudluğunda mənəvi faktorun aparıcı rol oynadığını vurğulayır. Yəni bir cəmiyyətin kökü mənəviyyatla bağlıdırsa, onun uğurlu olması üçün mütləq mənəvi dəyərlər aparıcı olmalıdır! Avtomatik olaraq bu tezis siyasi liderliyə də aiddir!

Hətta Heydər Əliyevin bu tezisindən alınır ki, Azərbaycan üçün real və faydalı, uğurlu liderlik "vətənpərvər liderlik"dir! Çox maraqlı formuldur. Bu qənaət Ulu öndərin aşağıdakı fikrindən birbaşa alınır: "Vətənpərvərlik insanın daxilindəki duyğulardır. Əgər bunlar yoxdursa, o insan mənəviyyatsızdır".

İndi siyasi məntiq və intellektual fəzillətlilik kontekstində Heydər Əliyevin fikrinin ümumi ideya mənzərəsinə baxaq. Birinci, "cəmiyyət mənəviyyat üzərində təşəkkül tapır". İkinci, "vətənpərvər olmayan insan mənəviyyatsızdır", yəni bu cəmiyyətə faydalı deyil və hətta ona aid etmək olmaz! Zəkavi xarici siyasət nümunəsi prizmasında məntiqi-rasional aspektlə intellektual fəzilətliliyin qarşılıqlı əlaqəsində dərin mənası olan tezisdir! Bu tezis İlham Əliyevin intellektual fəzilətliliyinin dərk edilməsi üçün açar rolunu oynaya bilər

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Polis şərəfini canlarından uca tutdular

**Hamının yadındadır. Ulu öndər Heydər Əliyev ölkəmizdəki ictimai-siyasi proseslərin ən qaynar dövründə – 1994-cü il aprelin 29-da DİN-in rəhbər işçilərinin iştirakı ilə keçirilən müşavirədə demişdi: "Daxili İşlər Nazirliyinin hər bir əməkdaşının sosial müdafiəsini təmin etməliyik. Bu əməkdaşlar, ilk növbədə, öz vəzifə borclarını şərəflə yerinə yetirməlidirlər, ikinci növbədə isə onların mənafeyi müdafiə olunmalıdır".**










Mən məhz həmin tezisdən çıxış edərək deyirəm ki, polisə əl qaldıranın əli qırılmalıdır. Polisin gərgin vəziyyətdə cinayətkara, caniyə, quldura, terrorçuya atəş açmaq hüququ olmalıdır. Əgər belə hüquq olmasa, onda Şüvəlanda baş verən dəhşətli hadisə təkrar oluna bilər. Polis bizi – xalqımızı, dövlətimizi, əmlakımızı, həyatımızı, əmin-əmanlığımızı qoruyursa, biz də onu qorumalıyıq.

... Şüvəlanda bir cinayətkarın – ona insan deməyə də adamın dili gəlmir – güllləsinə tuş gələn polis əməkdaşları haqqında nə isə yazmaq istəyəndə yadıma düşən ilk məqam Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş, hərbi əməliyyatla əlaqədar itkin düşmüş və qanunvericiliklə müəyyən edilmiş qaydada ölmüş hesab edilən daxili işlər orqanları əməkdaşlarının siyahısı ilə maraqlanmaq oldu. Doğrusu, vaxt az olduğuna görə, dəqiq sayı tapa bilmədim. Ancaq Daxili İşlər Nazirliyinin elektron resurslarından birində oxudum ki, ölkəmiz öz dövlət müstəqilliyini bərpa edəndən 1994-cü ilədək canını Vətən naminə fəda edən daxili işlər orqanları əməkdaşlarının sayı 398 nəfərdir.

Hələ qarşıda neçə qanlı hadisələr, Aprel döyüşləri, 44 günlük İkinci Qarabağ müharibəsi, 2023-cü ildəki antiterror əməliyyatı, mina faciələri, narkomafiyalarla mübarizə tədbirləri – polisin itki verdiyi çox hadisələr, proseslər dayanırdı. Bir tərəfdən də kimlərinsə əlində alətə çevrilmiş insanların törətdikləri vəhşiliklər polis əməkdaşlarının həyatını təhlükə altına alır.

Bundan başqa, Azərbaycan polisi yuxarıda sadaladığım faktlar və hadisələr zamanı dövlətçiliyi, milli maraqlarımızı qoruyurdusa, Şüvəlandakı hadisə zamanı sadə, kasıb bir ailənin qadın və uşaqlarının həyatını qorumaq üçün qaniçən quldura atəş açmayıb. Yəni cani öz həyatını qorumaq üçün qadın və uşaqların arxasında gizlənib. Cinayətkarlığı yüz faiz məlum olan canininn uşaqlarını və ailəsini qorumaq üçün canını fəda edən mərd kişiyə heykəl qoyulmalıdır. Onun adı Azərbaycan polisidir.

Adı Rövşən (işıqlı) olan qaranlıq bayquşu yenidən həbsxanaya qayıtmaq üçün polis kapitanı Eldəniz Məmmədovun, polis serjantları Mahir Ağayev və Mirəli Heydərovun həyatına qıydı. Rəsmi məlumatlarda deyilir ki, həmin vəhşi əvvəllər də dəfələrlə məhbəs həyatı yaşayıbmış. İndi sual yaranır. Yaşı o qədər də çox olmayan bu cani dəfələrlə həbs edilibsə və islah olunmayıbsa, nə üçün nəzarətdən kənarda qalıb? Üstəlik, hələ tam sübut edilmədiyinə görə adını çəkmədiyim adamlarla onun əlbir olaraq, külli miqdarda vəsait ələ keçirilməsində iştirakı da söylənilir.

Azərbaycan polisləri öz ölümləri bahasına da olsa, bir kimsəyə xətər yetirmədilər. Vəzifə borclarını sədaqətlə yerinə yetirərək dünyaya gözlərini yumdular. Ancaq cinayətkar aləm unutmasın ki, kiminsə qadın arxasında gizlənməsinə həmişə imkan olmayacaq. Bəli, olmayacaq. Azərbaycan polisinin gözü açıq, fəhmi aydındır. Ölkəmizdəki ictimai sabitliyə heç kəs xələl gətirə bilməyəcək.

Mən bu məqamda deputat Ceyhun Məmmədovun Milli Məclisdəki çıxışında məlum məsələyə münasibət bildirərkən səsləndirdiyi fikirləri dəstəkləyirəm: "İllər öncə Azərbaycanda ölüm hökmü ləğv olundu. Hərçənd proseslər göstərir ki, bəzi cinayətlərin qarşısının alınması üçün bəzi hallarda ölüm cəzası daha effektivdir. Diqqət çəkmək istədiyim əsas məqam ondan ibarətdir ki, dəfələrlə cinayət törətmiş insanların həbsdən azad olunmasına daha həssas yanaşmalıyıq. Təcrübə göstərir ki, bu insanlar həbsdən azad olunduqdan sonra eyni cinayətləri törətməyə davam edirlər. Belə olduğu halda onların qəza törətmək ehtimalı daha çoxdur".

***İ.QAÇAYEV***

# Biz sülh ordusuyuq

(əvvəli 1-ci səhifədə)

... Hələ 2016-cı ilin aprelində – Aprel döyüşlərindən sonra yazmışdım ki, Azərbaycan Ordusu xalqın və dövlətin etibarlı dayağıdır. İndi həmin arqumentimin miqyasını dəyişirəm. Çünki zaman sübut etdi ki, Azərbaycan Ordusu təkcə ölkəmizdə deyil, regionda sülhün və sabitliyin dayağıdır. Bunu artıq bütün beynəlxalq təşkilatlardakı dostlarımız və strateji müttəfiqlik etdiyimiz ölkələrin hərbçi ekspertləri də söyləyirlər.

Biz fəxr edirik ki, müstəqil Azərbaycanın son 31 ildə əldə etdiyi çoxsaylı möhtəşəm nailiyyətlərdən biri də qüdrətli ordunun formalaşdırılmasıdır. Bu gün hərbi-strateji cəhətdən əməkdaşlıq etdiyimiz ölkələrin hamısının ekspertləri ən mötəbər beynəlxalq tribunalardan etiraf edirlər ki, Azərbaycan dövləti Qafqazda lider ölkə olduğu kimi, Azərbaycan Ordusu da ən yüksək səviyyədə təchiz müasir olunmuş ordudur.

Hamı etiraf edir ki, Azərbaycan Silahlı Qüvvələrinin maddi-texniki bazasının müasirləşdirilməsi, Müdafiə Sənayesi Nazirliyinin yaradılması, ordudakı nizam-intizamın gündən-günə möhkəmləndirilməsi, Milli Orduda qabaqcıl Avropa ölkələrinin hərbi quruculuq təcrübəsinin və NATO standartlarının tətbiqi, eləcə də ordu ilə bağlı digər çoxsaylı faktlar bugünkü Azərbaycan həqiqətləri sırasında özünəməxsus yer tutur. Vaxtilə fərariliyin baş alıb getdiyi (indi Ermənistan ordusu məhz həmin gündədir), ayrı-ayrı siyasi qüvvələrin tabeliyində olan Azərbaycan Ordusu bu gün, sözün həqiqi mənasında, sivil dünya orduları sırasında dayanmağa layiq, vahid mərkəzdən idarə edilən, peşəkar Silahlı Qüvvələr nümunəsinə çevrilmişdir. Təsadüfi deyil ki, erməni ekspertlər bugünkü Ermənistan ordusunu xarakterizə edərkən ironiya ilə yada salırlar ki, müasir Ermənistan ordusu 1992-ci ilin Azərbaycan Silahlı Qüvvələri



ilə müqayisə olunmaq səviyyəsindədir. Bunu ermənilər deyirlər.

Biz isə başqa məqamlardan söz açırıq. Daha doğrusu, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı İlham Əliyev 2022-ci il iyunun 26-da – Silahlı Qüvvələr Günündə Kəlbəcər rayonuna səfəri çərçivəsində komando hərbi hissəsinə döyüş bayrağının verilməsinə həsr olunmuş təntənəli mərasimdəki çıxışında demişdir: “Bu gün Silahlı Qüvvələrimizlə fəxr edə bilərik. Bu gün biz müzəffər xalq kimi, qalib ölkə kimi Ordu Gününü qeyd edirik. İşğal illəri dövründə hərbçilərlə çoxsaylı görüşlərdə – hərbi hissələrdə, səngərlərdə, Lələtəpə zirvəsində, hərbi paradlarda hər zaman deyirdim ki, gün gələcək biz öz doğma torpaqlarımızı qaytaracağıq. Hər zaman deyirdim ki, Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan çıxmasa, biz hərbi yolla Qarabağ məsələsini həll edəcəyik. Belə də oldu. Müzəffər Azərbaycan Ordusu tarixi missiyanı şərəflə yerinə yetirdi”.

Dövlət başçımız İkinci Qarabağ müharibəsindən sonra dəfələrlə deyib ki, Vətən müharibəsində Ermənistanı məğlub etməyimiz onlar üçün dərs olmalıdır. Onlar hesab edirdilər ki, orduları məğlubedilməzdir və öz orduları haqqında olmayan şayiələri yayırdılar: “Biz göstərdik ki, onlar Azərbaycan Ordusu qarşısında duruş gətirə bilməzlər. Onlar bəyan edirdilər ki, Azərbaycan öz torpaqlarını heç vaxt silahlı yollarla ala bilməz. Çünki həm qurulmuş istehkamlar, həm 30 il ərzində mühəndislik işlərinin aparılması, həm də ki, bu bölgənin coğrafiyası onlar üçün çox əlverişli idi. Biz bu mifi də dağıtdıq və göstərdik ki, güclü iradə olan yerdə, xalq-iqtidar birliyi olan yerdə, hərbçilərin vətənpərvərliyi olan yerdə heç kim bizim qabağımızda dura bilməz. Əgər yenə də Ermənistanda revanşist qüvvələr baş qaldırsa, bilməlidirlər ki, onları nələr gözləyir”.

Amma bu məqamda başqa bir faktı da xatırlatmağa ehtiyac var. Belə ki, Prezident İlham Əliyev Qarabağ Zəferimizdən, mükəmməl ordu quruculuğundan, silahlı qüvvələrimizin madd-texniki bazasının müasirləşdirilməsindən, Azərbaycan Ordusunun 44 günlük müharibə zamanı nümayiş etdirdiyi peşəkarlığın dünyanın bir çox hərbi mərkəzlərində öyrənilməsindən danışmaqla yanaşı, ordumuzun çətin günlərini də tez-tez yada salır və Ulu öndər Heydər Əliyevin atdığı addımları məmnunluqla xatırlayır.

Bu sətirləri cənab Ali Baş Komandanın ötən il noyabrın 8-də Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi paraddakı çıxışından seçdiyimiz iqtibasla tamamlayırıq:

“Bizə yeni müharibə lazım deyil. Biz istədiyimizə nail olduq, beynəlxalq hüququ bərpa etdik, tarixi ədaləti bərpa etdik, milli ləyaqətimizi bərpa etdik, düşmənə onun yerini göstərdik. Düşmən bizim qabağımızda diz çökdü və bu gün mən burada müzəffər Silahlı Qüvvələrin qarşısında çıxış edirəm. Yəni biz bütün vəzifələri icra etmişik, ancaq bununla bərabər, bundan sonra da ordu quruculuğu məsələləri bizim üçün prioritet məsələlərdən biri olacaq. Bunu hamı bilsin və heç kim bunu unutmasın”.

Silahlı Qüvvələr Gününüz mübarək!

***İttifaq MİRZƏBƏYLİ***

---

# Rəşadət və mərhəmət

## *Bunlar Azərbaycan Ordusunun şərəfli simasıdır*

**Humanizm dəyərlərinə sədaqət, ondan aman diləyəni bağışlamaq və mərhəmətlə yanaşmaq Azərbaycan xalqına xas ülvi keyfiyyətlərdəndir. Bu prinsiplər xalqımızın, necə deyərlər, canında, qanında, genindədir.**



Humanizm ideallarına sadiqlik Azərbaycan xalqını üzləşdiyi olmazın çətinlikləri qarşısında fərqli davranışa sövq edə bilməyib. Xalqımız tarixin bütün imtahanlarından alnıaçıq, üzüağ çıxıb.

Azərbaycan dövləti Qarabağın dağlıq hissəsində yaşayan ermənilərlə bağlı məsələlərin sülh yolu ilə nizamlanması üçün 1994-cü ildən 2020-ci ilədək çox böyük səylər göstərdi. Ancaq bizim bütün xoşməramlı addımlarımız cavabsız, onlara doğru uzatdığımız barış əlimiz havada qaldı. Bu, az imiş kimi, düşmənin təxribatları səngimədi, əksinə daha da azğınlaşdı. Qarşı tərəfdən atılan təxribatçı addımlara cavab olaraq Azərbaycan Ordusu 2020-ci ilin payızında döyüşə başlamağa məcbur oldu. Cəmi 44 gün davam edən döyüşlər beynəlxalq hüquqa və beynəlxalq humanitar hüququn tələblərinə riayət edilməsi baxımından dünyada örnək sayıla bilər.

Qeyd edək ki, beynəlxalq humanitar hüquq silahlı münaqişələr zamanı tətbiq olunan, döyüş aparılmasının müəyyən üsul və metodlarının tətbiqini qadağan edən və ya məhdudlaşdıran, həmçinin silahlı münaqişələr dövründə fərdin hüquqlarının qorunmasına yönəlmiş beynəlxalq-hüquqi normaların və prinsiplərin sistemidir. “Beynəlxalq humanitar hüquq” termini beynəlxalq-hüquqi leksikona Jan Pikte tərəfindən daxil edilib, nisbətən yeni termindir. Beynəlxalq hüququn bu mühüm sahəsi müxtəlif cür adlandırılır: silahlı münaqişələr dövründə tətbiq edilən hüquq; müharibə hüququ (jus in bello); silahlı münaqişələr hüququ; müharibə qanun və adətləri və sair. Beynəlxalq humanitar hüquq müharibəni qadağan etmir. O, artıq başlamış müharibəni – onun xarakterindən və başlama səbəblərindən asılı olmayaraq – müəyyən normativ çərçivəyə salmağa çalışır. Bundan çıxış edərək, beynəlxalq humanitar hüququn iki başlıca məqsədini göstərmək olar:

1) Mülki şəxsləri və sıradan çıxmış hərbi qulluqçuları müdafiə etmək və onlarla humanist rəftarı təmin etmək. Bu məqsədi beynəlxalq humanitar hüququn bir hissəsi olan “Cenevrə hüququ” həyata keçirir. “Cenevrə hüququ” termini, əsas etibarilə, Müharibə qurbanlarının müdafiəsinə dair 1949-cu il Cenevrə konvensiyalarına istinad edilərək götürülmüşdür.

2) Zorakılığın, artıq əzab-əziyyətin qarşısını almaq üçün, döyüş aparılmasının müəyyən metod və vasitələrini məhdudlaşdırmaq və ya qadağan etmək. Beynəlxalq humanitar hüququn bu məqsədin həyata keçirilməsinə yönəlmiş hissəsi “Haaqa hüququ” adlandırılır (1899 və 1907-ci illərdə Haaqa sülh konfranslarında qəbul olunmuş müvafiq sənədlərə istinadən).

Beynəlxalq humanitar hüquq onun məqsəd və vəzifələrini əks etdirən bir sıra prinsiplərə söykənir. Bu prinsiplər aşağıdakılardır:

–Silahlı münaqişələrin humanistləşdirilməsi (bu, əslində, beynəlxalq humanitar hüququn başlıca prinsipidir);

–döyüş aparılmasının metod və vasitələrinin seçilməsində vuruşan tərəflərin üzərinə məhdudiyyətlər qoyulması;

–müharibə qurbanlarının beynəlxalq-hüquqi müdafiəsi;

–mülki obyektlərin və mədəni mülkiyyətin mühafizəsi;

–hərbi zərurətin və ictimai qaydanın qorunmasının insana hörmətlə uzlaşdırılması;

–düşmən tərəfə, müharibənin məqsədinə (məsələn, düşmənin hərbi gücünün məhv edilməsi və ya zəiflədilməsi və s.) uyğun gəlməyən ziyan vurulmasının yolverilməzliyi;

–neytral dövlətlərin mənafelərinin qorunması.

Müharibə dövründə Azərbaycan Ordusunun davranışı bizim hamımızın gözlərimizin önündə olub. Biz, ordumuzun həmin günlərdə bu prinsiplərə necə əməl etdiyinin canlı şahidləriyik. Əslində, buna bütün dünya şahiddir. Bu, bir faktdır ki, Azərbaycan Ordusu İkinci Qarabağ müharibəsi zamanı Ermənistanın bir yaşayış məntəqəsini də hədəfə almadı. Yalnız yüksək dəqiqlikli silahlarla legitim hərbi hədəflərə zərbələr endirildi. Düşmən isə əsl terrorçulara xas davranış nümayiş etdirərək, təxribatlarından qalmayaraq raket-artilleriya sistemlərini, digər hərbi qurğuları yaşayış məntəqələrinin düz yaxınlığında yerləşdirirdi. Burada da məqsəd qəlpələrin yaşayış evlərinə, mülki obyektlərə dəyməsindən şou düzəldərək bütün dünyaya car çəkmək idi.

Ümumiyyətlə, Azərbaycan Ordusu 44 günlük müharibədə hər cür zorakılıqdan, insanlıqdan kənar hər cür davranışlardan çox uzaq idi. Ordumuz 44 gün ərzində həm qəhrəmanlıq dastanı yazdı, həm də “Əsl müharibə necə aparıla bilər” düsturunu bütün dünyaya nümayiş etdirdi. Hazırda Rusiya və Ukrayna, İsrail və HƏMAS arasında müharibə gedir. Bu müharibələr nəticəsində on minlərlə dinc insan həlak olur. Bundan da çox insan yaralanır, əlil olur, itkin düşür. Milyonlarla insan doğma ev-eşiyini tərk edərək qaçqın və məcburi köçkünə çevrilir. Bütöv şəhərlər xarabazara çevrilir, iri yaşayış məntəqələri Yer üzündən tamamilə silinir. Mülki obyektlər, neft-qaz zavodları, körpülər, xəstəxanalar, energetika infrastrukturu legitim hərbi hədəf hesab olunur. Nəhəng su bəndinə endirilən raket zərbələri onun uçmasına, milyonlarla hektar ərazini su basmasına, nəticədə yüzlərlə insanın həlak olmasına gətirib çıxarır. Eyni zamanda qadağan olunmuş kimyəvi silahlardan istifadə edilir.

Azərbaycan Ordusunun əməliyyat planlarında bu metodların heç birindən istifadə olunmayıb. Ordumuzun komandanlığı düşmənin dinc şəhərlərimizi bombalamasına baxmayaraq, Ermənistanın şəhərlərini bombardman etmək, yaxud yuxarıda sadalanan üsulların hansısa birini yaxına da buraxmayıb.

Yeri gəlmişkən, erməni millətçiləri XX əsrin əvvəlində və sonlarında xalqımıza qarşı müxtəlif şəhərlərdə, kəndlərdə qətliamlar törətdikləri kimi, mənfur əməllərini 44 günlük Vətən müharibəsi zamanı da davam etdirdilər. Terror və soyqırımını dövlət siyasətinə çevirmiş Ermənistanın hərbi-siyasi rəhbərliyi Gəncə və Bərdə şəhərlərini raket atəşinə tutdu. Gəncə şəhərinə 5 dəfə endirilən zərbələr nəticəsində 27 insan həlak oldu, 125 nəfər yaralandı. Bərdə şəhərinə və rayonun Qarayusifli kəndinə endirilən raket zərbələri nəticəsində isə 27 nəfər həlak oldu, 80 sakin yaralandı. Onu da bildirək ki, həm Gəncəyə, həm də Bərdəyə edilən hücumlar zamanı şəhər infrastrukturuna, yaşayış binaları da daxil olmaqla, digər tikililərə, avtomobillərə ziyan dəydi. Ermənistanın cəbhə xəttindən xeyli uzaqda yerləşən şəhərlərə raket hücumları nəticəsində həyatını itirənlər və yaralananlar arasında azyaşlılar da oldu. Ancaq biz Prezident, Ali Baş Komandan İlham Əliyevin çıxışlarında bildirdiyi kimi, qisasımızı döyüş meydanlarında aldıq.

Vətən müharibəsinin gedişi zamanı – oktyabrın 4-də Müdafiə Nazirliyinin mətbuat xidmətinin yaydığı məlumatda bildirilirdi ki, Azərbaycan Ordusunun hərbi qulluqçuları döyüş əməliyyatları aparılan ərazilərdə “Beynəlxalq silahlı münaqişə tərəflərinin hörmət etməli olduqları beynəlxalq humanitar hüquq normalarına dair Memorandum”un tələblərinə uyğun fəaliyyət göstərirlər. Hərbçilərimiz döyüş əməliyyatlarında iştirak etməyən şəxslərin mühafizəsini təşkil etmək, onlara tibbi və digər yardım göstərmək, eləcə də itkin düşmüş və vəfat etmiş şəxslərlə davranış qaydalarına riayət etmək bacarığına malikdirlər.

Bundan başqa, hərbi əməliyyatlar zamanı Azərbaycan Ordusu tərəfindən mülki əhali və infrastrukturun hərbi qulluqçu və obyektlərdən fərqləndirilməsi həyata keçirilir, mülki əhali və infrastrukturun hərbi zərbələrdən qorunması təmin edilirdi.

Eyni zamanda qeyd edilirdi ki, Azərbaycan Ordusu tərəfindən şəraitin imkan verdiyi hallarda mülki əhalinin qabaqcadan məlumatlandırılması, həmçinin öz nəzarətində olan əhalinin düşmən zərbələrindən qorunması tədbirləri həyata keçirilir.

Azərbaycan Ordusunun hərbi qulluqçularının əsir götürülmüş erməni hərbçilərə münasibəti də örnək davranış qaydası hesab oluna bilər. Silahını könüllü yerə qoyan, ağ bayraq qaldıran erməni hərbçilərinə humanizm çərçivəsində davranılırdı. Hətta döyüşdə yaralanmış erməni əsgərlərinin yaralarını azərbaycanlı hərbçilər sarıyırdılar. İnternetdə bununla bağlı videolar var.

Vətən müharibəsindən sonra Azərbaycan öz vətəndaşı hesab etdiyi ermənilərin reinteqrasiya prosesinə başladı. Bu məqsədlə, hətta Prezidentin xüsusi nümayəndəsi ilə onların təmsilçiləri arasında bir neçə görüş də keçirildi. Ancaq sonra onlar ənənəvi yol tutmaqda davam etdilər. Ərazilərimizi minalarla çirkləndirdilər, yeni təmas xətti qurmağa çalışdılar. Dəfələrlə silahlı təxribatlar törətdilər. Nəhayət, aydın oldu ki, separatçı rejim könüllü şəkildə təslim olmaq, “ordusu”nu buraxmaq niyyətində deyil. Orada mülki əhalini girov götürmüş şəxslər camaatın reinteqrasiyasına imkan vermədilər. Bütün bunlar 2023-cü ilin sentyabrındakı lokal xarakterli antiterror tədbirlərinə gətirib çıxardı. Həmin tədbirlər zamanı da mülki əhaliyə ziyan vurulmadı, insanların qorunması üçün zəruri addımlar atıldı.

Zənnimizcə, bu məqamda Prezident İlham Əliyevin 2023-cü il noyabrın 20-də İraq Prezidenti ilə görüşdən sonra mətbuat üçün verdiyi bəyanatdan iqtibas gətirmək yerinə düşər. Dövlətimizin başçısı bildirdi ki, bizim səbrimiz bu ilin sentyabrında tükəndi və biz beynəlxalq hüquqa tam riayət edərək, öz suveren ərazimizdə antiterror əməliyyatını apardıq: “Bu əməliyyat 24 saatdan az davam etdi və mülki əhali arasında itkilər olmadı. Düşünürəm ki, indi Yaxın Şərqdə müşahidə etdiklərimizə münasibətdə bu antiterror əməliyyatı mülki əhali arasında hərbi əməliyyatları itkisiz necə aparmaq lazımdır nöqteyi-nəzərindən bir örnək hesab olunmalıdır”.

Bəli, yaranmasının 106-cı ildönümünü qeyd edən Azərbaycan Ordusu bu cür şanlı, təmiz, iftixar duyulası keçmişə malikdir. Ordumuzun belə davranışı isə girişdə qeyd etdiyimiz kimi, onun, necə deyərlər, mayasının halallıqla yoğrulmasından irəli gəlir. Mayası nur, qayəsi nur olan xalqın ordusunun başqa cür davranması mümkün də deyildi.

***Səxavət HƏMİD***
***XQ***

# Valyuta ehtiyatlarımız 70 milyard dollara çatıb

**Bu ilin ilk 5 ayında Azərbaycanın strateji valyuta ehtiyatları 69,7 milyard ABŞ dollarına çatıb. Mərkəzi Bankın bu barədə məlumatına görə, həmin göstərici ilin əvvəli ilə müqayisədə 1,8 faiz və ya 1,3 milyard ABŞ dolları çoxdur.**



Məlumatda qeyd edilib ki, cari ilin ilk 5 ayında profisitli tədiyə balansı valyuta bazarında tarazlığın qorunmasında həlledici rol oynayıb. 2024-cü ilin I rübündə tədiyə balansının cari əməliyyatlar hesabındakı profisitin ümumi daxili məhsula (ÜDM) nisbəti isə 10,1 faiz təşkil edib.

Ekspertlərin fikrincə, ölkənin strateji valyuta ehtiyatlarının davamlı olaraq artması bir sıra amillərlə şərtlənir. Bu, ilk növbədə, Azərbaycanın bu gün qeyri-neft sektorunun inkişafı istiqamətində gerçəkləşdirdiyi islahatların ardıcıl xarakter daşıması, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, investisiya və biznes mühitinin daha da yaxşılaşdırılması, qanunvericilik bazasının təkmilləşdirilməsi, institusional layihələrin həyata keçirilməsi sayəsində dünyanın ən sürətlə və dayanıqlı inkişaf edən ölkəsinə çevrilməsi ilə bağlıdır.

Dövlətimizin başçısının çıxışlarının birində bununla bağlı qeyd etdiyi kimi, uzun illər Azərbaycan iqtisadiyyatına qoyulan vəsait, şaxələndirmə siyasəti, qeyri-neft sektorunun inkişafı iqtisadiyyatın dayanıqlı surətdə inkişaf etməsinə, bir sektordan – neft-qaz sektorundan asılı olmamağa imkan verib. Hətta dünyada neftin qiymətinin kəskin şəkildə düşməsi Azərbaycanın ümumi iqtisadi inkişafına təsir etməyib. Bu, Azərbaycanın iqtisadi modelinin unikallığı və ölkəmizin seçdiyi yolun nə qədər düzgün olmasını bir daha göstərirb.

Yeri gəlmişkən, Azərbaycanın iqtisadi və siyasi müstəqilliyinin təminatı olan valyuta ehtiyatlarının getdikcə artması iqtisadi islahatların daim diqqət mərkəzində saxlanılmasının məntiqi nəticəsidir. Xatırladaq ki, 2004-cü ildə birinci regional Dövlət Proqramı hazırlanıb qəbul edilən zaman respublikamızın valyuta ehtiyatları cəmi 1,8 milyard dollar olub. Azərbaycan, hətta ən çətin illərdə, dünyada maliyyə böhranı hökm sürdüyü dövrdə – 2015-ci, 2016-cı, 2017-ci illərdə belə valyuta ehtiyatlarını qoruya və artıra bilib. Təkcə 2019-cu ildə ölkəmizin valyuta ehtiyatları 6,4 milyard dollar, hazırda isə yuxarıda xatırlatdığımız kimi, cari ilin ilk 5 ayında 69,7 milyard ABŞ dollar olub.

Azərbaycanın valyuta ehtiyatlarının artmasında son illərdə yaradılan sənaye zonalarının da mühüm təsiri olub. İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyinin məlumatına görə, respublikada 2024-cü ilin I rübündə sənaye zonalarında 640 milyon manat dəyərində məhsul satışı həyata keçirilib, bunun da 224 milyon manatı ixracın payına düşüb. Bu dövrdə sənaye zonalarının qeyri-neft sənayesi məhsulları istehsalında xüsusi çəkisi 14,6 faiz, ixracında isə 28,2 faiz təşkil edib.

2015-ci ildən 2024-cü ilin I rübünün sonunadək sənaye zonalarında 12,74 milyard manat dəyərində məhsul satılıb ki, bunun da 4,1 milyard manatlıq hissəsi ixraca yönəldilib. Bununla yanaşı, sənaye zonalarında istehsal olunan məhsullar dünyanın 70-dən artıq ölkəsinə ixrac edilib. Sənaye zonalarına sahibkarların cəlb olunması, investisiyaların yatırılması və yeni iş yerlərinin yaradılması istiqamətlərində müsbət addımlar atılıb.

Qeyd edək ki, 2013-cü ildən indiyədək sənaye zonaları üzrə ümumi investisiya həcmi 7,79 milyard manat olan 142 sahibkarlıq subyektinə rezident statusu verilib. Sahibkarlar tərəfindən sənaye zonalarına 6,7 milyard manatdan çox investisiya yatırılıb və 10 min 500-dən çox daimi iş yeri yaradılıb. Mövcud layihələr üzrə növbəti mərhələdə sənaye zonalarına əlavə 1 milyard manat investisiyanın yatırılması və 6 min 500-dən çox yeni iş yerinin yaradılması nəzərdə tutulub.

İqtisadi şərhçi Emin Bağırovun sözlərinə görə, bu gün ölkədə iqtisadiyyat üçün yeni istiqamətlər formalaşıb. Bu istiqamətlər idxaldan asılılığın azaldılması, qeyri-neft əmtəə və xidmət ixracının genişləndirilməsi, qeyri-neft emal sənayesinin inkişafının sürətləndirilməsi, biznesin bank kreditlərinə çıxışının asanlaşdırılması, dövlət investisiyalarının iqtisadi səmərəsinin artırılması, özəl investisiyaların dominant rolunun təmin edilməsi, kiçik və orta sahibkarlığın iqtisadi artımın başlıca qüvvəsinə çevrilməsi, şəffaflığın yüksəldilməsi və kölgə iqtisadiyyatının səviyyəsinin minimuma endirilməsindən ibarətdir. Yeni məqsədlərə doğru yolda əldə edilən ilkin nəticələr müsbətdir. Yuxarıda xatırladılan göstəricilər də bunun bariz ifadəsidir.

Son illərdə iqtisadi inkişafın dinamik xarakter almasında kapital qoyuluşu da mühüm rol oynayıb. Reallaşdırılan investisiya yeni istehsal və xidmət sahələrinin, iş yerlərinin açılmasını şərtləndirib. Nəticədə məhsul istehsalı artıb, göstərilən xidmətlərin keyfiyyəti yaxşılaşıb.

Respublikamızda xarici və daxili investisiyaların iqtisadiyyata cəlb edilməsi istiqamətində də müxtəlif proqramlar həyata keçirilib. Məhz elə buna görə də Azərbaycan kapital qoyuluşunda nəinki MDB məkanında, hətta bir çox Şərqi Avropa ölkələrindən öndə olub.

Bu ilin ötən ayları ərzində ölkəyə investisiya qoyuluşunda da müsbət dinamika nəzərə çarpıb. Belə ki, ölkə iqtisadiyyatında yüksək iqtisadi artım templəri, habelə dövlət büdcəsinin investisiya xərclərinin icrasının sürətlənməsi, o cümlədən işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı tikinti-bərpa işlərinin həyata keçirilməsi fonunda cari ilin ilk 5 ayında əvvəlki dövrlərlə müqayisədə əsas kapitala investisiyaların real artım tempi müsbət göstəricilərlə diqqət çəkib.

Dövlət Statistika Komitəsinin bununla bağlı məlumatında bildirilir ki, cari ilin yanvar-may aylarında Azərbaycanda əsas kapitala 6 milyard 641 milyon manat və yaxud ötən ilin eyni dövrü ilə müqayisədə 11 faiz çox investisiya yönəldilib. Son 1 ildə neft-qaz sektoruna investisiyalar 9,2 faiz, qeyri neft-qaz sektoruna investisiyalar isə 12,1 faiz artıb. 5 aylıq investisiyanın 3 milyard 623 milyon manatı və yaxud 54,6 faizi məhsul istehsalı sahələrinə, 2 milyard 379 milyon manatı və yaxud 35,8 faizi xidmət sahələrinə, 638 milyon manatı və yaxud 9,6 faizi isə yaşayış evlərinin tikintisinə sərf olunub.

Hesabat dövründə əsas kapitala yönəldilmiş investisiyaların 5 milyard 387 milyon manatını və yaxud 81,1 faizini daxili investisiyalar təşkil edib, 4 milyard 644 milyon manatı və yaxud 69,9 faizi tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunub.

# Yerli şirkətlərin tanıtım sərgisi

**Bakı Ekspo Mərkəzində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və "Marsol Group"un birgə təşkilatçılığı ilə 5-ci Yerli şirkətlərin tanıtım sərgisi öz işinə başlayıb. Sərginin açılışına həsr olunmuş tədbirdə aidiyyəti dövlət qurumlarının rəhbər şəxsləri, sahibkarların ictimai birliklərinin nümayəndələri, eləcə də müxtəlif sahələrdə fəaliyyət göstərən iş adamları iştirak ediblər.**

Açılış mərasimində çıxış edən iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov bildirib ki, bu il Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) kimi nüfuzlu beynəlxalq tədbirə ev sahibliyi etməsi, həmçinin 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi "yaşıl" iqtisadiyyata transformasiya sahəsində təşəbbüslərin daha da artırılması üçün fürsətlər yaradır. Onun sözlərinə görə, bu həm ölkəmizin imicinin artırılması, həm də sahibkarlıq fəaliyyətinin təkmilləşdirilməsi və biznes proseslərinin müasir dövrün tələblərinə uyğunlaşdırılması baxımından əhəmiyyətlidir. Yaşıl və resurs-səmərəli texnologiyaların və davranışların tətbiqinin bizneslərin xərclərinin azalmasına, rəqabət qabiliyyətinin artırılmasına və məhsuldarlığının yüksəldilməsinə imkan yaratdığını diqqətə çatdıran nazir müavini bildirib ki, ölkəmizdə 5-ci dəfə keçirilən Yerli şirkətlərin tanıtım sərgisi də müvafiq sahədə mütərəqqi təcrübələri nümayiş etdirmək və bizneslərin şəbəkələşməsi ilə onlar arasında təcrübə mübadiləsini təşviqi üçün mühüm platforma təmin edir.



S. Məmmədov ölkə iqtisadiyyatına əlavə investisiyaların yatırılması, həmçinin öz məhsullarını nümayiş etdirən şirkətlərin alıcılarla yanaşı, potensial investorların da cəlb edə bilməsi imkanlarını sərginin müsbət məqamı kimi dəyərləndirib. Qeyd olunub ki, Azərbaycan kifayət qədər əlverişli investisiya mühitinə malikdir və bu nüfuzlu beynəlxalq hesabatlarda və reytinqlərdə də özünü göstərir. "Beynəlxalq Valyuta Fondu hesabatında Azərbaycanı 2024-cü il üçün dünyanın 7 ən cəlbedici investisiya ölkəsindən biri elan edib. Mövcud rəqəmlər də ölkə iqtisadiyyatına investisiya qoyuluşunda artım dinamikasının davam etdiyini göstərir. Ümidvaram ki, milli şirkətlərimizin qazandığı uğurların nümayiş olunduğu Yerli şirkətlərin tanıtım sərgisi yeni işgüzar əlaqələrin qurulmasına və inkişafına öz müsbət töhfəsini verəcək", – deyə o əlavə edib.

KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədov isə qeyd edib ki, dövlət sahibkarlığın inkişaf etdirilməsi istiqamətində böyük addımlar atır, nəticədə sahibkarlıq subyektlərinin sayı artır ki, bu da əhalinin sosial vəziyyətinin yaxşılaşmasında və iş yerlərinin açılmasında əhəmiyyətli rol oynayır. Biznes subyektlərinin artmasını iqtisadi inkişafın əsasını təşkil etdiyini vurğulayan KOBİA rəhbərinin dediyinə görə, 2 il əvvəl ölkədə 4 minə yaxın sahibkarlıq subyekti qeydiyyata alınmışdısa, hazırda onların sayı 5 min 300-ə çatıb. O da bildirilib ki, ötənilki sərgidə 100 şirkət iştirak etdiyi halda, bu il onların sayı 200-ü keçib. Bu da həm tədbirin əhəmiyyətinin, həm də ölkəmizdə kiçik və orta sahibkarlığın inkişafına göstərilən dövlət dəstəyinin göstərisidir.

İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondunun İdarə Heyətinin sədri Osman Xəliyev isə çıxışı zamanı deyib ki, rəhbərlik etdiyi qurum sahibkarlar üçün maliyyə mexanizmlərini daha əlçatan etmək niyyətindədir. Onun sözlərinə görə, 2023-cü ildə Azərbaycan Sahibkarlığın İnkişafı Fondu tərəfindən 3276 investisiya layihəsinin maliyyələşdirilməsinə 193,8 milyon manat güzəştli kredit verilib. Qeyd olunub ki, fond növbəti illərdə daha çox sahibkarı maliyyələşdirməyi nəzərdə tutur ki, bu zaman banklardan götürülmüş kreditlər üzrə 90 faizədək dövlət zəmanəti veriləcək. Fond rəhbəri, həmçinin sahibkarlar üçün nəzərdə tutulmuş kreditlərə tətbiq ediləcək digər güzəştləri də diqqətə çatdırıb.

Tədbirdə, həmçinin Milli Məclisin deputatı Tahir Mirkişili, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev, "Kapital Bank" ASC-nin İdarə Heyətinin üzvü Fərid Hidayətzadə, "İş adamları Cəmiyyətinin Milli Assosiasiyası" İctimai Birliyinin və "Marsol Group"un İdarə Heyətinin sədri Tural Mustafayev çıxışlarında ölkəmizdə sahibkarlığın inkişafı, özəl sektora göstərilən dəstək tədbirləri, yerli məhsulların ixrac imkanları, sərgilərin məhsul və xidmətlərin tanıdılmasında və biznes subyektlərinin bazarlara çıxışında önəmi barədə fikirlərini bölüşüblər.

Sahibkarlığın İnkişafı Fondu, Dövlət Məşğulluq Agentliyi, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, İş adamları Cəmiyyətinin Milli Assosiasiyası, "Kapital Bank" ASC, eləcə də dövlət və özəl təşkilatlar sərginin tərəfdaşları sırasındadır. KOBİA bu dəfə də sərgidə kiçik və orta biznes subyektlərinin ödənişsiz olaraq iştirakına dəstək məqsədilə ayrıca stendlə təmsil olunur. Stenddə kənd təsərrüfatı, İKT, təhsil, xidmət, tekstil, suvenir, keramika istehsalı, sənaye və s. sahələrdə fəaliyyət göstərən 10 KOB subyektinin məhsul və xidmətlərini təqdim etməsi üçün şərait yaradılıb. Bütövlükdə isə, sərgidə qida, İKT, təhsil, inşaat, sənaye, logistika, tekstil və digər sahələrdə fəaliyyət göstərən 150-dən çox yerli şirkət öz məhsul və xidmətlərini nümayiş etdirir.

Sərginin əsas məqsədi isə Azərbaycan şirkətlərinin fəaliyyətini geniş kütləyə tanıtmaq, onlar üçün yeni bazarlar açmaq və şirkətlər arasında qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirməkdir. Ziyarətçilər sərgidə müxtəlif sektorlarda fəaliyyət göstərən şirkətlərin yeni məhsul və xidmətləri ilə də yaxından tanış olurlar.

Xatırladaq ki, Yerli şirkətlərin tanıtım sərgisi 2019-cu ildən etibarən keçirilir. Sərginin əsas məqsədi Azərbaycan şirkətlərinin fəaliyyətini geniş kütləyə tanıtmaq, onlar üçün yeni bazarlar açmaq, satış imkanlarını genişləndirmək və şirkətlər arasında qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirməkdir. İyunun 26-dək davam edəcək sərgi həmçinin iş adamları, sahibkarlar və təchizatçı şirkətlər arasında yeni əməkdaşlıqların qurulmasına imkan verəcək.

# Ölkəmiz xarici investisiyaya açıqdır

**İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov "5-ci yerli şirkətlərin tanıtım sərgisi"ndə Beynəlxalq Valyuta Fondunun Azərbaycanı dünyanın 7 ən cəlbedici investisiya ölkəsindən biri elan etdiyini bildirib.**



S.Məmmədovun sözlərinə görə, Azərbaycan kifayət qədər əlverişli investisiya mühitinə malikdir və bu, nüfuzlu beynəlxalq hesabatlarda, reytinqlərdə də özünü göstərir: "Beynəlxalq Valyuta Fondunun hesabatında Azərbaycan cari il üçün dünyanın 7 ən cəlbedici investisiya ölkəsindən biri elan edilib. Mövcud rəqəmlər də ölkə iqtisadiyyatına investisiya qoyuluşunda artım dinamikasının davam etdiyini göstərir".

Qeyd edək ki, son illərdə ölkəmizdə investisiya mühitinin daha da yaxşılaşdırılması üçün vergi və gömrük islahatları davam etdirilib, onlayn vahid ixrac ərizəsi, "Yaşıl dəhliz", elektron məhkəmə, elektron satınalma, tikintidə "bir pəncərə", biznesə başlama, elektrik enerjisinə çıxış, kreditlərə əlçatanlıq, müqavilələrin icrası və əmlakın qeydiyyatı sahələrində mühüm tədbirlər həyata keçirilib. Bütün bu sistemli yeniliklər isə ölkəmizin Dünya Bankının Doing Business reytinqində ilk iyirmiliyə daxil olmasını gerçəkləşdirib.



# Qaz kəmərlərinin gəlirləri artıb

**2024-cü ilin birinci rübündə Azərbaycanın magistral qaz kəmərləri ilə yükdaşımalardan əldə etdiyi gəlirləri 669 milyon 264,9 min manat təşkil edib. Bu da əvvəlki ilin eyni dövrünə nisbətən müqayisədə 29 milyon 13 min manat və ya 4,5 faiz artım deməkdir.**

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, cari ilin yanvar–mart aylarında Azərbaycanda magistral qaz kəmərləri ilə 11 milyard 133,6 milyon kubmetr qaz nəql edilib. Bu sahədə əvvəlki ilin göstəricisinə nisbətən 1,2 faiz artım müşahidə olunub. Qaz nəqlinin 5 milyard 582,1 milyon kubmetri və ya 50,1 faizi Bakı–Tbilisi–Ərzurum (Cənubi Qafqaz qaz boru kəməri) kəməri vasitəsilə həyata keçirilib.

# "Yaşıl enerji" 14 faizə yüksəlib

**Cari ilin ilk 5 ayı ərzində ölkədə elektrik enerjisi istehsalında "yaşıl enerji"nin payı 14 faizə yüksəlib.**



Energetika Nazirliyindən verilən məlumatda daha sonra bildirilir ki, hazırda respublikada bərpaolunan enerji mənbələri üzrə qoyuluş gücü 1749 meqavatdır. Bu da ümumi elektrik enerjisi üzrə qoyuluş gücünün 20,86 faizini təşkil edir.

Qeyd edək ki, ölkədə enerji keçidi üzrə reallaşdırılan layihələr çərçivəsində, ümumilikdə, 1,5 milyard ABŞ dolları məbləğində investisiya yatırılıb və bu sərmayə qoyuluşunun gələcəkdə də davam etdiriləcəyi nəzərdə tutulub.

Azərbaycanda 20-25 il müddətinə hesablanan "yaşıl enerji" layihələri ekspertlər tərəfindən Azərbaycanın gələcəyinə, dövlət siyasətinə olan inamın göstəricisi kimi dəyərləndirilib.

Hazırda ölkəmizin qarşısında duran əsas məsələlərdən biri respublikamızda istehsal edilən "yaşıl enerji"nin Avropa ölkələrinə ixracı üçün zəruri infrastrukturun qurulmasıdır.

# Zəmilərin 40 faizi biçilib

**Kənd Təsərrüfatı Nazirliyindən aldığımız məlumata əsasən, artıq Azərbaycanda payızlıq əkin sahələrinin 40 faizində (403 min 503 hektarda) biçin başa çatıb.**



Bildirilir ki, sahələrdən 878 min 173 ton arpa, 366 min 723 ton buğda yığılıb. Arpa sahələrinin 69,5 faizində, buğda sahələrinin isə 18,4 faizində biçin prosesi başa çatıb. Hazırda orta məhsuldarlıq arpa üzrə 29,7 sentner, buğda üzrə isə 34 sentner təşkil edir.

Qeyd edək ki, ölkənin 40-a yaxın rayonunda intensiv biçin prosesi gedir. Bu rayonlardan Ağsu, Biləsuvar, Neftçala, Sabirabad, Samux, Salyan, Ucar, Kürdəmir rayonlarında biçin səviyyəsi 70 faizi keçib, Naftalanda isə biçin başa çatıb.

# Yeni ekoloji standartlar

***İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyində olan Azərbaycan Standartlaşdırma İnstitutu (AZSTAND) AZS ISO 7887 "Suyun keyfiyyəti — Rəngin tədqiqi və müəyyən edilməsi" və AZS ISO 8288 "Suyun keyfiyyəti — Kobalt, nikel, mis, sink, kadmium və qurğuşunun təyini – Alovlu atom absorbsiya spektrometrik üsullar" yeni dövlət standartlarını qəbul edib.***



Adıçəkilən Dövlət Xidmətindən bildirilib ki, standartlar Ekologiya və Təbii Sərvətlər Nazirliyində beynəlxalq standartlar əsasında hazırlandıqdan sonra "Ekologiya" standartlaşdırma üzrə Texniki Komitədə (AZSTAND/TK-09) müzakirəyə çıxarılıb. Standartlar müvafiq qurumlarla razılaşdırılaraq AZSTAND tərəfindən təsdiqlənib.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Qarabağda cəhənnəm cənnətə çevrilir

**Hazırda işğaldan azad olunan ərazilərə Böyük Qayıdışın reallaşdırılması üçün müasir şəhərsalma qaydaları nəzərə alınmaqla Qarabağ və Şərqi Zəngəzurda yaşayış və qeyri-yaşayış kompleksləri inşa edilir, müasir infrastruktura malik "ağıllı şəhər və ağıllı kənd" konsepsiyaları həyata keçirilir.**

Bu əsasda bütün bölgədə müasir standartlara uyğun sosial-iqtisadi və mədəni infrastruktur qurulur, kommunal xidmətlər şəbəkəsi, xüsusilə tullantıların səmərəli idarə edilməsi sistemi yaradılır. Sosial xidmət infrastrukturu bərpa olunur.

Bir sözlə, Qarabağ və Şərqi Zəngəzurun yaşayış məntəqələrində zəruri sosial-iqtisadi infrastruktur təminatı, iqtisadi canlanmanın sürətləndirilməsi, habelə nəqliyyat potensialının artırılması və yaşayış məntəqələrinin yenidən qurulması yüksək templə davam etdirilir.

Vətən müharibəsi başa çatandan dərhal sonra düşməndən təmizlənən ərazilərdə hava limanlarının, avtomobil və dəmir yollarının tikintisi işlərinə də başlanılıb, qısa zaman ərzində bu bölgədəki müxtəlif yaşayış məntəqələri arasında, eləcə də bu məntəqələri ölkənin digər şəhər və rayonları ilə birləşdirən nəqliyyat infrastrukturunun formalaşdırılması diqqət mərkəzində saxlanılıb.

Bütün bunlarla bərabər, işğaldan azad edilən ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyası məqsədilə mühüm tədbirlər həyata keçirilir. Erməni faşizmi tərəfindən tamamilə dağıdılan iqtisadiyyatın qurulması üçün iqtisadi fəaliyyətin canlanması sürətləndirilir və əlverişli biznes mühitinin formalaşdırılması təmin edilir.

Düşməndən azad edilən torpaqlarımızın canlanmasında dost ölkələr də yaxından iştirak edirlər. Prezident İlham Əliyev iyunun 6-da TÜRKPA-nın ölkəmizdə səfərdə olan nümayəndə heyəti ilə görüşündə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən bərpa-quruculuq işlərindən ətraflı bəhs edərək bu prosesdə qardaş türk ölkələrinin köməyinin hiss edildiyini, onların təşəbbüs və maliyyə dəstəyi ilə artıq bir məktəb və bir incəsənət mərkəzinin tikilərək istifadəyə verildiyini bildirib.

Xatırladaq ki, həmin müəssisələr Özbəkistan və Qazaxıstan tərəfindən inşa edilib. Bir məktəbin təməli bu yaxınlarda ölkə rəhbəri və Qırğızıstan Prezidentinin iştirakı ilə Ağdam rayonunda qoyulub. Cəbrayıl rayonunda bir təhsil ocağının isə Macarıstanın maliyyə dəstəyi ilə inşa ediləcəyi nəzərdə tutulub.

Prezident İlham Əliyev sözügedən görüşdəki çıxışında daha sonra azad edilmiş ərazilərdə bu gün geniş yol-nəqliyyat infrastrukturunun yaradıldığını və bu nəhəng layihələrin icrasında Türkiyədən olan şirkətlərin fəal iştirak etdiklərini vurğulayıb: "İndi Şuşaya gedən hər bir insan yeni çəkilən avtomagistraldan keçərək öz gözü ilə görür ki, orada 7 tunel, 9 viaduk, bir çox körpülər inşa edilir və podratçıların əksəriyyəti Türkiyədən olan şirkətlərdir. Eyni zamanda, dəmir yolunun bərpası prosesi də sürətlə gedir. Horadiz–Ağbənd dəmir yolunun podratçısı da Türkiyə şirkətləridir. Yəni biz azad edilmiş torpaqlarda Türk dünyasının birliyini əyani şəkildə görürük. Təbii ki, bu, həm bizi sevindirir, həm də bütün Türk dünyası ölkələrinin bir-birinə nə qədər bağlı olmasından xəbər verir".

Burada söhbət yol tikintisindən düşmüşkən, onu da xatırladaq ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərindəki avtomobil yolu layihələrinin icrası 2026-cı ilə qədər başa çatdırılacaq. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin məlumatına görə, "İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrasına dair Tədbirlər Planında 2022-2026-cı illərdə 20 avtomobil yolu layihəsinin tikintisi ilə əlaqədar torpaq işlərinin yerinə yetirilməsi nəzərdə tutulub. Bu layihələrdən 7-nin tikintisi artıq başa çatıb, digərlərinin icrasının isə 2026-cı ilə qədər yekunlaşdırılması planlaşdırılıb.

Onu da qeyd edək ki, azad edilmiş torpaqlarda həyat sürətlə canlandırılır. Artıq 4 şəhər və 4 kənd bərpa edilib və 7 mindən çox keçmiş köçkün öz dədə-baba torpaqlarında məskunlaşıb və ilin sonuna qədər bu rəqəmin 20 minə çatdırılacağı nəzərdə tutulub.

İstər düşmən tərəfindən dağıdılan yaşayış sahələrinin yenidən qurulmasını, istərsə də bu torpaqlarda sosial infrastrukturun sürətli bərpasını güclü investisiya qoyuluşu şərtləndirir. Bunu belə bir göstərici – cari ilin birinci rübündə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üzrə əsas kapitala, ümumilikdə, 1 milyard 167 milyon 617 min manat məbləğində investisiya yönəldilməsi də təsdiq edir. Dövlət Statistika Komitəsinin məlumatına görə, həmin vəsaitin 1 milyard 159 milyon 155 min manatı tikinti-quraşdırma işlərinə aiddir.

Hesabat dövründə Qarabağ iqtisadi rayonunda investisiya qoyuluşu 535 milyon 895 min manat təşkil edib ki, bunun da 533 milyon 580 min manatı tikinti-quraşdırma işlərinə yönəldilib. İqtisadi rayona daxil olan Xankəndi şəhəri üzrə investisiya qoyuluşu 5 milyon 400 min manat, Ağdam rayonu üzrə 132 milyon 687 min manat, Ağdərə rayonu üzrə 6 milyon 967 min manat, Füzuli rayonu üzrə 137 milyon 845 min manat, Xocalı rayonu üzrə 12 milyon 624 min manat, Xocavənd rayonu üzrə 19 milyon 728 min manat, Şuşa rayonu üzrə 175 milyon 272 min manat, Tərtər rayonu üzrə 29 milyon 246 min manat olub.

İlin ilk üç ayında Şərqi Zəngəzur iqtisadi rayonuna, ümumilikdə, 631 milyon 721 min manat investisiya yatırılıb. Bunun 625 milyon 575 min manatı tikinti-quraşdırma işlərinə aid olub. İqtisadi rayona daxil olan Cəbrayıl rayonunda investisiya qoyuluşu 76 milyon 936 min manata, Kəlbəcər rayonunda 250 milyon 431 min manata, Qubadlı rayonunda 96 milyon 485 min manata, Laçın rayonunda 105 milyon 759 min manata və Zəngilan rayonunda 102 milyon 108 min manata çatdırılıb.

Bu gün ölkəmizdə COP29-a ciddi hazırlaşılır. Yerli və beynəlxalq ekspertlər tərəfindən respublikamızın COP29-a evsahibliyi bu ilin ən mühüm tarixi hadisəsi və Azərbaycanın "yaşıl iqtisadiyyat"a keçid strategiyasının məntiqi davamı kimi qiymətləndirilir.



Azərbaycan COP29-a evsahibliyi missiyasını üzərinə götürməklə müsbət ekoloji dəyişikliklə bağlı beynəlxalq aləmə böyük töhfə verməyi, habelə bu istiqamətdə çıxış edən ölkələr üçün model nümunəsi göstərməyi qarşıya mühüm vəzifə kimi qoyub. Başqa sözlə, respublikamız artıq "yaşıl enerji" iqtisadiyyatını əməli fəaliyyəti ilə yeni müstəvidə formalaşdırmaq qərarını qətiləşdirib.

Ölkəmiz Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpasına başladığı ilk günlərdən etibarən bu ərazilərin yenidən qurulmasında "0" tullantı və bərpaolunan enerji, eləcə də davamlılıq, inklüzivlik və təhlükəsizliyə üstünlük verən müasir şəhərsalma prinsiplərinə əsaslanılıb. Məsələn, işğaldan azad olunandan sonra salınan ilk yaşayış məntəqəsi –Zəngilan rayonunun hazırda 171 ailə - 870 nəfər yaşayan Ağalı kəndi dayanıqlı inkişaf məqsədləri əsasında tikilib və inşaat prosesində həmin məqsədlər əsas götürülüb. Burada tikinti zamanı izolyasiya edilmiş materiallardan geniş istifadə edilib. Evlərin damları günəş panelləri ilə təchiz olunub. Bütün inzibati binalarda təmiz enerji əldə etmək üçün günəş panelləri quraşdırılıb. Kəndi enerji ilə təmin etmək üçün Həkəri çayında turbinlər tikilib. Bir sözlə, Ağalı təbii və su ehtiyatlarının, eləcə də biomüxtəlifliyin qorunması üzrə təşəbbüsləri reallaşdırmaqla dünyanın ən gözəl kənlərindən birinə çevrilib.

Bu məqamda diqqətçəkən bir göstəricini də xatırlatmaq istərdik. Şərqi Zəngəzurda son üç ildə 100 mindən çox ağac əkilib və bu il təkcə Zəngilan rayonunda əlavə 50 min ağacın əkilməsi nəzərdə tutulub. Nadir təbii su hövzəsi olan kəhrizlər də uğurla bərpa edilib, əhalinin təbii içməli su ilə təminatı üçün digər kəhrizlərdə də bərpa işləri davam etdirilib. Bundan əlavə, Böyük Qayıdış proqramı çərçivəsində Ağalı kəndində və digər yaşayış məntəqələrinə köçürülən ailələri üçün iş və biznes imkanları ilə dayanıqlı dolanışıq vasitələrinin yaradılması diqqət mərkəzində saxlanılıb. Bir sözlə, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarında həyata keçirilən bütün layihələr BMT-nin qarşıya qoyduğu dayanıqlı inkişaf hədəflərinə yönəldilib.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində yeni iş yerlərinin yaradılması prosesi də sürətlə davam etdirilir. Bu məsələ ilə bağlı bəzi faktlara nəzər salaq. Məsələn, Ağdam rayonunda yerləşən Şahbulaq daş karxanasının istifadəyə verilməsi ilə burada 227 nəfər işlə təmin edilib. Kəlbəcər və Laçında 25 təsərrüfat subyektinin işə salınması ilə 252 iş yeri açılıb.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaşayış sahələrində bu il ərzində 70 obyektin istifadəyə verilməsi nəticəsində 1009 nəfərin işlə təmin ediləcəyi nəzərdə tutulur. Bu ərazilərdə məskunlaşma prosesi ilə paralel olaraq bütün sahələrin iqtisadi aktivliyinin artırılması nəzərdə tutulur.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında özəl sektorun inkişafının diqqətdə saxlanılması da yeni iş yerlərinin açılmasını şərtləndirir. Azərbaycanın işğaldan azad olunmuş ərazilərində fəaliyyət göstərmək üçün müraciət edən sahibkarların sayının artıq 2 mini keçməsi də bunun bariz ifadəsidir. Müraciətlərin yarıdan çoxu investisiya yönümlüdür. Bu müraciətlər üzrə ümumi dəyəri 575 milyon manat olan layihələrin 299-u icra edilir. Hazırda fəaliyyət göstərən 219 layihənin 89-u Qarabağda, 130-u isə Şərqi Zəngəzur iqtisadi rayonunda reallaşdırılır. Bütün layihələr gerçəkləşdirildikdən sonra 1879 şəxsin işlə təmin ediləcəyi nəzərdə tutulur.

Bugünədək Şərqi Zəngəzur iqtisadi rayonunda 11 müəssisə qeydiyyata alınıb ki, bunun da 10-u rezident, 1-i isə qeyri-rezidentdir. Layihələrin ümumi investisiya dəyəri isə 68 milyon manat təşkil edir.

Qeyd edək ki, işğaldan azad edilmiş ərazilərdə sahibkarların daha səmərəli fəaliyyətləri üçün müəyyən güzəştlər yaradılıb. Məsələn, bir sıra iş adamlarının (rezidentlərin) maliyyəyə çıxışı artıq həll edilib. Onlara hökumət tərəfindən 500 milyon manat həcmində kredit portfeli təqdim edilib. Həmin kreditlərin 450 milyon manatına dövlət zəmanəti verilib.

Düşməndən təmizlənən ərazilərdə fəaliyyət göstərən bir sahibkar üçün 1 kreditin məbləği 5 milyon manatı keçməmək şərtilə dövlət zəmanəti ilə verilir. Bu kreditlər 7 il müddətinə ayrılır. Burada kredit faizlərinin subsidiyalaşdırılmasına əsas məsələ kimi yanaşılır. Kreditlərin 10 faizə qədəri dövlət tərəfindən subsidiyalaşdırılır.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bu il fevral ayının əvvəlindən elektron kredit və zəmanət informasiya sistemi fəaliyyət göstərir. Bu portal üzərindən müraciətlər qəbul edilir. Artıq ilk sahibkar 800 min manat kreditə 720 min manat dövlət zəmanəti ilə vəsait götürüb.

Sonda Qarabağ və Şərqi Zəngəzurun turizm məkanına çevrilməsi istiqamətində həyata keçirilən layihələrə də toxunmaq istərdik. Belə ki, bu ərazilər düşməndən azad ediləndən sonra dövlətimiz barbarlığa məruz qalan dini, tarixi, mədəni abidələrin bərpasını da diqqətdə saxlayıb. Qarabağın mədəniyyət beşiyi hesab edilən Şuşada qısa bir müddət ərzində Vaqifin məqbərəsi və büstü yenidən açılıb, Üzeyir Hacıbəylinin abidəsi yenidən qoyulub, dağıdılmış evi bərpa olunub, Bülbülün ev muzeyi istifadəyə verilib. Vaqif Poeziya günləri və "Xarıbülbül" festivalı yenidən canlandırılıb. Şuşada "Qarabağ" və "Xarıbülbül" otelləri istifadəyə verilib.

Qarabağ və Şərqi Zəngəzurun turizm məkanına çevrilməsi üçün bu bölgənin digər yaşayış sahələrində də məyyən layihələr gerçəkləşdirilib. Qarabağda 2 hava limanının istifadəyə verilməsi, Laçında 3-cü aeroportun tikintisinin aparılması da Qarabağın mədəniyyət paytaxtı Şuşa şəhərinə, füsunkar təbiətə malik Kəlbəcərə və digər ekoturizm imkanları olan yaşayış sahələrinə üz tutan istər yerli, istərsə də xarici turistlərin axınının sürətlənməsinə hesablanıb.

Son vaxtlar Şuşa və Laçın şəhərlərinə fərdi avtomobil ilə turist səfərlərinin sayında artımın daha çox diqqət çəkməsi də artıq Qarabağın turizm məkanına çevrilməsi istiqamətində reallaşdırılan layihələrin məntiqi nəticəsidir. Qeyd edilən ərazilər üzrə xüsusi nümayəndəliklərin məlumatına əsasən, Qurban bayramı ilə əlaqədar qeyri-iş günlərində (15 iyun-19 iyun 2024-cü il) Şuşa şəhərinə 2650 fərdi avtomobil ilə 12528 nəfər, Laçın şəhərinə isə 2296 fərdi avtomobil ilə 8330 nəfər səfər edib. Şuşaya və Laçına səfər edənlərin müvafiq olaraq 1779 və 709 nəfəri hotellərində gecələyib.

Məlumatda 2023-cü il dekabrın 27-dən cari il iyunun 19-dək Şuşa şəhərinə, ümumilikdə, 72298 nəfər səfər edib. Bu il aprelin 27-dən iyunun 19-dək Laçın şəhərinə səfər edənlərin sayı isə 42670 nəfərə çatıb. Bildirilir ki, hazırda Laçın şəhərinə giriş 2 yoxlanış-nəzarət məntəqəsi (Şuşa və Güləbird postları) vasitəsilə həyata keçirilir.

Xatırladaq ki, bu il aprelin 28-dən etibarən vətəndaşların fərdi minik avtomobilləri ilə Şuşa və Laçın şəhərlərinə, eləcə də Suqovuşan qəsəbəsinə səfərlərinə icazə verilib.

Rəsmiləşdirilən icazələrin etibarlılıq müddəti 2 gün nəzərdə tutulub. Laçın şəhərinə səfər Füzuli rayonunun Alxanlı keçid məntəqəsindən daxil olmaqla Zəfər yolu və Horadiz qəsəbəsindən keçməklə Cəbrayıl – Zəngilan – Qubadlı – Laçın marşrutu ilə reallaşır.

Ekspert Rəhman Quliyevin sözlərinə görə, vətəndaşların fərdi minik avtomobilləri ilə Şuşa və Laçın şəhərlərinə, eləcə də Suqovuşan qəsəbəsinə səfərləri respublikada turizmin inkişafına müsbət təsir edəcək. Belə səfər marşrutları yaxın gələcəkdə işğaldan azad edilmiş digər ərazilərə də tətbiq ediləcək.

***Vaqif BAYRAMOV***
***XQ***

## Günün müsahibəsi

# Ailə kimsəsiz uşağın ən yaxşı himayəçisidir

**Prezident İlham Əliyevin 12 iyul 2023-cü il tarixdə imzaladığı qanunvericilik aktları ilə Azərbaycanda himayədar ailə institutunun tətbiqinə başlanıb.**

Uşaqlara qayğının dünyada geniş yayılmış nümunələrindən biri olan "Himayədar ailə" qayğı modeli valideynlərini itirmiş, himayədən məhrum olmuş, ata-analarının atdığı uşaqların qısa və ya uzun müddət dövlət nəzarəti altında ödənişli əsaslarla ailə mühitində böyüməsi və inkişafını nəzərdə tutur. Eyni zamanda, bu qayğı modelinin tətbiqində məqsəd valideyn himayəsindən məhrum olmuş uşaqların kimsəsizliyinin qarşısının alınmasıdır.

Himayədar ailə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə himayədar valideyn olmaq istəyənlər arasında uşağın himayədar ailəyə verilməsinə dair müqavilə əsasında yaranır.

Sosial Xidmətlər Agentliyinin İdarə heyəti sədrinin müavini Zaur İbrahimov XQ-yə müsahibəsində bu qayğı modelindən, himayədar ailəyə verilən uşaqlara dövlətin göstərdiyi diqqətdən söz açdı.

***– Zaur müəllim, kimlər himayəyə uşaq götürə bilər?***

– Müvafiq qanunverciliyə əsasən yetkinlik yaşına çatmış, hər iki cinsdən olan, evli və ya subay, ən azı ümumi orta təhsilli, sağlamlıq vəziyyəti normal olan kəs himayədar valideyn ola bilər. Amma, gərək o şəxsin qanunvericiliklə müəyyən edilmiş ağır və ya xüsusilə ağır cinayətlərə görə məhkumluğu olmasın, və Azərbaycan Respublikasının ərazisində daimi yaşayan ölkə vətəndaşı olsun. Himayədar ailə olmaq istəyən şəxs(lər) və onlarla birlikdə eyni ünvanda yaşayan şəxs(lər) ölkə üzrə müəyyən edilmiş tibb müəssisəsində müayinələrdən keçib sağlam olduqlarını rəsmi qaydada təsdiqlədirlər. Bundan sonra bəlli şərtlər daxilində himayədar valideyn hüququ qazanırlar.



Şərtlərdən biri budur ki, himayədar valideyn olmaq istəyən nikahda olan şəxslərdən biri (ər-arvad) üçün aşağı yaş həddi 25, nikahda olmayanlar üçün 30 olmalıdır. Himayədar valideyn olmaq istəyən, amma, nikahda olmayan şəxslə (şəxslərlə) himayəyə verilən uşağın yaş fərqi 18-dən az olmamalıdır. Yəni, 30 yaşında himayədar valideyn olmaq istəyən şəxs yalnız 12 yaşına qədər olan uşağı himayəyə götürə bilər. Yaxud, 16 yaşlı bir uşağı himayəsinə götürənin yaşı 34-dən yuxarı olmalıdır ki, o, nazirliklə müqavilə bağlaya bilsin.

Bir nüansı da qeyd edim ki, uşağın qəyyumları, bioloji və ya ögey valideynləri himayədar valideyn ola bilməzlər.

***– Uşağın himayədar ailəyə verilməsi proseduru necə həyata keçirilir?***

– Himayədar ailə olmaq istəyən şəxs (şəxslər) uçota alındıqdan sonra həmin ailəyə verilmənin uşağın mənafeyinə uyğunluğu müəyyənləşdirilir. Himayədar valideyn olmaq istəyən şəxslə (şəxslərlə) müsahibə aparılır və həmin şəxsin (şəxslərin) maddi-məişət şəraiti yoxlanılır.

Himayədar ailə olmaq istəyən şəxs (şəxslər) təlimlərə cəlb edilir. Bundan sonra himayədar ailə olmaq istəyənə uyğun uşağın və himayədar ailəyə veriləcək uşağa uyğun himayədar valideyn olmaq istəyən şəxsin (şəxslərin) seçilməsi mərhələsi gəlir.

Nəhayət, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə himayədar valideyn olmaq istəyən şəxs (şəxslər) arasında uşağın himayədar ailəyə verilməsinə dair müqavilə bağlanılır.

***– İndiyədək nə qədər uşaq himayədər ailəyə verilib?***

– Ötən müddət ərzində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən himayədar ailələrə verilən uşaqların sayı 20-yə çatıb. Qanunvericiliyə uyğun olaraq nazirliklə həmin uşaqları himayəyə götürən şəxslər arasında uşağın himayədar ailəyə verilməsinə dair müqavilələr imzalanıb.

Himayədar ailələrə verilən uşaqlardan 5-i oğlan, 15-i qızdır. Həmin uşaqlardan 10-u Bakı şəhərindəki, 10-u rayonlarda yaşayan (Lənkəran–2, Cəlilabad–1, Ağcabədi–1, Biləsuvar–1, Zaqatala–1, Gəncə–1, Göyçay–1, Şamaxı–1, Xaçmaz–1) himayədar ailələrə veriliblər.

***– Uşaqlardan hər hansı səbəbdən geri qaytarılan olubmu?***

– Görülmüş preventiv tədbirlər nəticəsində Ağcabədidə himayədar ailəyə yerləşdirilən 1 uşaq öz ailəsinə qaytarılıb.

***– Bu ailələrlə əlaqə necə qurulub? Uşağını müəssisəyə verən valideyn övladının hansı himayədar ailəyə verildiyini bilir, yoxsa anonimlik qorunur?***

– "Himayədar ailə" qayğı modeli hər hansı səbəbdən (valideynlərini itirən, yaxud, himayədən məhrum olan) sosial müəssisəyə qoyulmuş uşaqların ailə mühitində, amma dövlət nəzarəti altında böyüməsi, tərbiyə olunması və inkişafını nəzərdə tutur. Övladlığagötürmə sahəsində olduğu kimi, himayədar ailə institutunun tətbiqi işlərində də uşaqların maraq və mənafelərinin üstün tutulması prioritet təşkil edir. Bu sahədə idarəçilik və xidmətlərin də elektron sistem üzərində müasir, operativ və şəffaf təşkili diqqətə saxlanılır.

Onu da vurğulamaq lazımdır ki, himayədar ailə olmaq istəyən şəxslərin və onlara verilən uşaqların məlumatlarının məxfiliyi təmin edilir. Himayədar ailə kimin uşağını himayə etdiyini bilmədiyi kimi, övladını müəssisəyə verən valideyn də uşağının taleyindən xəbərsiz olur.

***– Uşağın yaşadığı ailədən nəsə tələb etmək haqqı varmı? Onlar həmin ailələrdə neçə yaşa qədər qala bilərlər?***

– Onların himayədar valideyndən nəyisə tələb etmək kimi bir hüququ yoxdur. Övlad kimi arzu-istəklərini bildirə bilərlər. Uşaqlar himayədar ailələrdə 18 yaşınadək qala bilərlər. Sonra sərbəstdirlər.

***–18 yaşından sonra belə uşaqların, yəni gənclərin taleyi necə olur?***

–Himayədar ailəyə verilmiş uşağın maraqları əsasında onların əqli, fiziki, emosional, psixoloji inkişafını təmin etmək, onun bioloji valideynlərinə (bioloji valideynləri olmadıqda isə qohumlarına) qaytarılması imkanlarını qiymətləndirmək məqsədilə himayədar valideynlərin, mümkün olduqda, uşağın bioloji valideynlərinin iştirakı ilə uşağın fərdi inkişaf planı hazırlanır.

Həmçinin himayədar ailəyə verilmiş uşaqlar yetkinlik yaşına çatdıqdan sonra müstəqil həyata hazırlanmaları üçün onların fərdi inkişaf planları əsasında bilik və bacarıqlarının artırılması istiqamətində qanunvericiliklə müəyyən olunmuş tədbirlər görülür. Onların valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün nəzərdə tutulmuş imtiyaz və güzəştlərdən istifadə etmələri həyata keçirilir.

***– Uşağın himayədar ailədə qaldığı müddətdə ona dövlət tərəfindən necə yardım edilir?***

– Dövlət tərəfindən uşaqların həmin ailələrdə qaldığı müddətdə davamlı dəstək göstərilir. Himayədar ailələrlə bağlı sosial dəstək mexanizmi çərçivəsində həmin ailələrə himayəyə götürdükləri 6 yaşa qədər olan uşağa görə 355 manat (əlilliyi müəyyən edilmiş uşaq olduqda 395 manat) nəzərdə tutulub. Bir qədər böyük, məktəb yaşlı 7–13 yaş arasında olan uşağa görə ailəyə 375 manat (əlilliyi müəyyən edilmiş uşaq olduqda 415 manat) verilir. 14–18 yaş arası uşağa görə isə dövlət tərəfindən 395 manat (əlilliyi müəyyən edilmiş uşaq olduqda 435 manat) aylıq müavinət verilməsi nəzərdə tutulub.

Onu da qeyd edək ki, eyni zamanda, himayədar ailəyə verilmiş uşaqlara mövsümi geyim alınması da diqqətdə saxlanır. Həmin ailələr hər mövsümə uyğun, rübdə bir dəfə bir uşağa görə 200 manat birdəfəlik müavinətlə də təmin edilirlər.

***Söhbəti apardı:***
***Zərifə BƏŞİRQIZI***
***XQ***

# Azərbaycanın "dəmir yumruğu" yerindədir

**Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günündə onları ehiramla yad edirik. Vətən uğrunda döyüşlərdə həlak olublar, lakin tarixdə və xalqımızın qəlbində qalib qəhrəmanlar kimi əbədi yaşayacaqlar. Onların sayəsində düşməndən qisas alan xalqəmiz bütün dünyaya sübut etdi ki, Qarabağ Azərbaycandır!**

Prezident və Ali Baş Komandan İlham Əliyev Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında çıxışı zamanı deyib: "Azərbaycan 44 gün ərzində parlaq qələbə qazanaraq Ermənistanı məğlub etdi, işğala son qoydu. Bu 44 günün hər günü bizim şanlı tariximizdir. Hər gün Azərbaycan Ordusu irəli gedirdi, hər gün yeni şəhərlər, kəndlər, qəsəbələr, yüksəkliklər azad edilirdi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, bu işğala, bu haqsızlığa son qoyulsun tarixi ədalət zəfər çalsın və buna nail olduq".

Bəli, 44 günlük şanlı müharibədəki möhtəşəm qələbə Azərbaycan Silahlı Qüvvələrinin şöhrət salnaməsinin qızılı hərflərlə yazılmış səhifələrdir. Sarsılmaz dövlət–ordu–xalq birliyinin təcəssümüdür. Xatırladaq ki, 2020-ci il sentyabrın 27-dən noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd düşməndən təmizlənib, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz zirvələri, habelə daha 5 adsız yüksəklik azad olunub. Azərbaycan Ordusunun qarşısında duruş gətirə bilməyəcəyini, iflasa məhkum olduğunu anlayan düşmən məğlubiyyətini etiraf etmək məcburiyyətində qalıb. Sonra isə bir güllə atılmadan, bir şəhid verilmədən Ağdam, Kəlbəcər və Laçın azad edilib və dünyanın gözündə biz qalib xalq, məğlubedilməz dövlət kimi özümüzü təsdiqləmişik.

Əziz oxucu! Növbəti "Zəfər yolçuları" səhifəsini Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günündə təqdim etməklə bir daha qəhrəman zabit və əsgərlərimizi yad edirik.



# Şuşa zəfərinin qəhrəmanı

**...Bir vaxtlar Qafqaz sıra dağlarının ətəyində yerləşən Balakən rayonunun Qaysa kəndində çiynində məktəbli çantası, üzü Günəşə boylanan Ramazan adlı bir oğlan yol gedirdi. Ana təbiətin özü ilə gələcək arzularından danışa-danışa böyüyürdü. Rayihə saçan yağışdan sonra buludlar dağılır, göy üzü işıqlanırdı. Göy qurşağı onun ömrünü əlvan rənglərlə bəzəyirdi.**



Vətən torpağına, onun hər qarışına uşaq yaşlarından beləcə doğma hisslərlə bağlanıb Ramazan. Bir-birinin çiyninə baş qoyan dağlar sanki əsgər kimi Qaysanın keşiyini çəkir. Dağlardan güc alan Ramazan da ana Vətənin keşiyində dağ kimi dayanıb. Nə gözəl deyimdir, "dağlardan güc alanın ürəyi dağ boyda olur".

Ramazan dünya boyda arzularla yaşayan bir uşaq olub. Ürəyində Vətənə xidmət eşqi uşaqlıq illərindən aşıb daşırdı. Gələcək arzuları içərisində ən ümdə arzusu hərbçi olmaq, torpaqlarımızı düşmən tapdağından azad etmək idi. Elə İzzət ata da oğlunu hərbçi görmək istəyirdi.

... Vətən müharibəsinin Qəhrəmanı, kapitan Ramazan Hudulovla üz-üzə oturub söhbət edirəm. Xəyalı yenə ötən illərin uzaq yollarından keçib gəlir. Bu mətin görkəmli, enlikürək, xoşrəftar qəhrəmanımızın sözündən-söhbətindən doymaq olmur. Düşməni Daşaltıdan, Şuşadan qova-qova çıxaran, məhv edən Ramazanın hər sözü insanın qəlbini Vətən eşqi ilə doldurur. Onu dinlədikcə sanki əcdadlarımızın müqəddəs ruhları dolaşan ana torpaqda illərin, əsrlərin arxasından gələn səsləri eşidirəm.

O öz doğma kəndinə müharibədən qayıdanda milliyyətcə avar olan bütün el-oba görüşünə gəldi. Bu görüş, bu şadyanalıq təkcə Qaysanı deyil, sanki yeri-göyü nura qərq etdi. Ramazan hamı ilə xoş və mehriban görüşürdü. Qismətinə gözəl Şuşamızı azad etmək yazılan igid oğul həmin gün elə vüqarlı görünürdü ki... Adının qəhrəmanlar sırasına yazılması hər adama qismət olmur. Bu, Ramazanın ömür kitabının qızıl hərflərlə yazılmış səhifəsidir. Bu onun tale qismətidir.

Ramazan Hudulov Ali Baş Kamandan qarşısında çıxış edəndə, keçdiyi döyüş yolundan danışanda qəlbimi qürur hissi ilə doldurdu. Vətən eşqi ilə yaşayan qəhrəmanımızın şəfqətli səsi qəlbimə, yaddaşıma hopdu. Onun çıxışını efirdən təkrar-təkrar izlədim. O qədər səmimi, içdən gələn sözlər deyirdi ki:

"Azərbaycanda bir çox xalqların nümayəndələri – türklər, ləzgilər, avarlar, talışlar, ruslar, yəhudilər, udilər, tatlar mehriban bir ailənin üzvü kimi yaşayırlar. Mən avar xalqının nümayəndəsiyəm. Bizim bir adımız var, biz azərbaycanlıyıq! Bu birlik, bu dostluq, bu qardaşlıq böyük Qələbəyə gedən yolda daha da möhkəmləndi, daha da bərkidi". Ramazan Hudulov bu sözləri xüsusi vurğuladı. Onun çıxışında dərin hisslərlə səmimi duyğular, vətənpərvərlik vəhdət təşkil edirdi. O səs qəlbimdə geniş əks-səda doğurdu.

Ramazan Hudulov 1994-cü ildə dünyaya göz açıb. Orta məktəbi bitirdikdən sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. 2016-cı ildə ali hərbi məktəbi bitirərək Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissədə zabit kimi xidmətə başlayıb.

Xocavənd istiqamətində bölük komandiri, Füzuli cinahında tabor komandirinin müavini, Şuşa istiqamətində tabor komandiri vəzifəsində döyüşlərdə iştirak edib. "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medallari ilə təltif olunub.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zamanı igidliyin və mərdliyin nümayiş etdirilməsinə görə Ramazan İzzət oğlu Hudulov Azərbaycan Prezidenti İlham Əliyevin 9 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən Müharibəsi Qəhrəmanı" kimi yüksək ada layiq görülüb.

Onun bədənində müharibə zərbələrindən 4 qəlpə yarası qalıb. Amma Ramazan kimi igid oğullarımızın qəhrəmanlığı sayəsində bu gün Şuşa azad, bəxtəvər günlərini yaşayır. Ordumuzun əbədi qələbəsi xalqımızı daha xoşbəxt günlərə qovuşdurub.

***Həzi HƏSƏNLİ,***
***şair-publisist***

# Sonuncu döyüşün şəhidi

**Vətənin igid oğlu Elxan Məmmədli 1997-ci il oktyabrn 13-də İsmayıllı rayonunun Zoğallıq kəndində dünyaya göz açıb. Suraxanı rayonu Pərviz İsmayılov adına 278 saylı tam orta məktəbdə orta təhsilini başa vurduqdan sonra Bakı Biznes Universitetinə daxil olub, 2019-cu ildə oranı bitirib. Həmin ildə İsmayıllı rayon hərbi komissarlığı tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılaraq, Dövlət Sərhəd Xidmətinin Tovuz rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmət edib.**



Tərxis olunduqdan sonra Elxan Azərbaycan Silahlı Qüvvələrinin Təlim Tədris Mərkəzində "Ehtiyat zabit hazırlığı" kursu keçərək, leytenant hərbi rütbəsini alıb. Müdafiə Nazirliyi Quru Qoşunlarının Silahlı Qüvvələrində müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi fəaliyyətə başlayaraq Xocalı, Şuşa, Xankəndi və Qubadlı ərazilərində Vətən qulluğunda dayanıb.

Hərbi xidməti zamanı zabit kimi mühüm nailiyyətlər əldə edib, təltiflərə layiq görülüb. İkinci Qarabağ müharibəsində Elxan öndə gedənlərdən olub. Böyük Zəfər qazanılan gün ömrünün ən xoşbəxt anlarını yaşayıb. Daha sonra 2 aydan çox "Komando" Dağ Təlimi Mərkəzində keçirilmiş 17-ci qəbul "Komando başlanğıc kursu"nu müvəffəqiyyətlə başa vurub, komandanlığın sertifikatını alıb və ardınca həmin əməliyyat qrupunda kəşfiyyat komandiri vəzifəsində xidmət göstərib.

Leytenant Elxan Məmmədli 2023-cü il sentyabrın 19-da Qarabağda başlanan lokal xarakterli antiterror tədbirləri zamanı torpaqlarımızın terrorçulardan azad edilməsində şücaət göstərib. Həmin gün sinəsindən snayper yarası alaraq şəhidlik zirvəsinə ucalıb. Döyüş yoldaşlarının verdiyi məlumata görə, Elxan Məmmədli bir an belə qorxu hissi keçirmədən döyüşə-döyüşə irəli gedib. Şəhid olduqdan 1 gün sonra nəşini neytral zonadan çıxartmaq mümkün olub. 21 sentyabr 2023-cü ildə İsmayıllı rayonunda, doğma Zoğallıq kəndinin qəbiristanlığında böyük ehtiramla torpağa tapşırılıb. Dəfn mərasimdə Dövlət Sərhəd Xidmətinin, İsmayilli Rayon İcra Hakimiyyətinin nümayəndələri, Milli Məclisin deputatları, rayon ictimaiyyətinin nümayəndələri və bir çox şəhid ailələri iştirak ediblər.

Qarabağda başlanan lokal xarakterli antiterror əməliyyatları zamanı qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən Elxan Məmmədli ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilib.

# Yarımçıq şeir

**Mahir Qədir oğlu Quliyev 2015-ci ilin may ayında Azərbaycan Texniki Universitetinin elektro-telekomunikasiya və radio mühəndisliyi fakültəsini bitirib. Sonra Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olub. 2016-cı ildə məlum aprel döyüşləri zamanı şəhid olub. Ölümündən sonra 3-cü dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" medalı ilə təltif edilib.**



Əsgər Mahir Quliyev şeir də yazır, Vətəni, eləcə də istəklisi olan qızı vəsf edirdi. Sizə təqdim etdiyimiz şeir, bəlkə də, onun son könül çırpıntısıdır. Elə şəhid şairin ömrü kimi yarımçıq qalıb...

**SEVGİ**

**Sənsiz ölümdən də betərdi dünya,**
**Bu həyat da sənsiz gərəyim deyil.**
**Sən olmasan, qəmdi-kədərdi dünya,**
**Bu dünyaya sənsiz salmaram meyil.**

**Özünü ömürlük mənə öyrətdin,**
**İndi xəyalıma gəlib-gedirsən.**
**Bir vaxt gözlərimin önündə idin,**
**İndi də yuxumdan sən əl edirsən...**

# Vətən andı içən oğul

**Kapitan Samir Mehdiyev Salyanın Yuxarı Xələc kəndinin şəhididir. 2008–2012-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində oxuyub. Tank taborunun komandiri və qərargah rəisi idi. 2016-cı ilin məlum aprel döyüşlərinin də iştirakçısı olub. Həmin döyüşlərdə göstərdiyi şücaətlərə görə o, vaxtından əvvəl kapitan rütbəsi almışdı.**



Vətən müharibəsində isə öz əsgərləri ilə birgə düşmənin illərdən bəri keçilməz sədd kimi qələmə verdiyi müdafiə xəttini yarıb. Onun taboru Füzulidə düşmənin 2 səngərini və Qaraxanbəyli kəndində 3-cü düşmən postunu ələ keçirərək orada möhkəmlənib. Amma oktyabrın 23-də düşmən tərəf cəsur kapitanın dayandığı mövqeyi tank əleyhinə yandırıcı başlıqlı raketlə vurur. Kapitan Samir Mehdiyev və 7 döyüşçüsü şəhid olur. Qəhrəmancasına ölümündən sonra "Rəşadət" ordeni ilə, eləcə də "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilir.

Onun valideynləri – atası Valeh kişi və anası Səlminaz xanımla telefon söhbətimdə Xələcə gələcəyimi söyləmişdim. Nəhayət, bugünlərdə Salyanda çıxan "Qələbə" qəzetinin baş redaktoru Rüstəm Məlikov və kənd icra nümayəndəsi Səfər Qarayevlə onların qonağı oldum. Şəhid kapitanın atası, uzun illər Azərbaycan mədəniyyəti və incəsənətinə xidmət edən, məşhur "Cəngi" Milli Nəfəsli Xalq Folklor Kollektivinin üzvü, balaban ustası, həm də ünsiyyətcil bir insan olan Valeh Mehdiyevin maraqlı söhbətlərini, Samirlə bağlı xatirələrini dinlədik.

Valeh kişi bizim xahişimizlə balabanda "Apardı sellər Saranı", "Sarı gəlin" havaları üstündə kövrək, həzin notlarla könüllərimizi duyğulandırdı. Onlar əslən Dərələyəzin Cullu kəndindəndirlər. 1949-cu ildə deportasiyaya uğrayıb, bura pənah gətiriblər. Körpəlikdən babalarının həsrət nəğmələrinə köklənibləр. Qardaşı Saleh kimi o da zurna-balabanı seçib. Bu alətlərin səsi insan fəryadını sanki daha məhrəm ifadə edir. 1974-cü ildə Salyan rayon mədəniyyət şöbəsində yaradılmış "Cəngi" ansamblının yaradıcı dirəklərindən sayılır qardaşlar.

Şəhidin muzey-otağında ata onun fotoları fonunda ifalar səsləndirməsi ilə də nakam balasının ruhunu şad elədi. Çünki o da musiqiçi idi, fortepianoda gözəl mahnılar çalırdı. Bakıda uşaq müsabiqəsində qalib də gəlibmiş. "Fəryad" filminə ağlayaraq baxıb, musiqiçi yox, hərbçi olub qisas alacağam, – deyirdi. Elə də oldu: silahı ilə zəfər oratoriyası çaldı Samir!

Valeh kişinin ifasında "Naxçıvan köçərisi" dillənəndə, sanki, onun səsini eşitdik:

**"Köçəri" çal, köçən mənəm,**
**Vətən andı içən mənəm...**

Ata göz yaşını saxlaya bilməyib, çalğısına ara verdi. Handan-hana: "Barmaqlarım alətə çətin yatır, tədricən uyğunlaşır" – dedi. Sonra "Çahargah" ladında əzəmətli "Cəngi" süzüldü odlu nəfəsindən. Hiss edirdik ki, səsi bərk çıxmasın, qonum-qonşu eşitməsin deyə bir az astadan üfürür balabanı.

Sonra ata yenə xatirələrə daldı:

– Balamın şəhid xəbəri məni anındaca sarsıtdı, belim büküldü, qulaqlarım tutuldu. Əhmədbəylidə hospitalda oğlumun nəşini axtaran anda reproduktorla "Füzuli alındı!" xəbəri verildi və bir anlıq axtarış "missiya"mı unudub sevincdən hayqırdım... Sol sinəsindəki iri xalından tanıdım balamı... Ondan sonra musiqidən xeyli uzaq qaldım...

Valeh kişi sonra dedi ki, bir ara vətənpərvərlik ruhlu tədbirlərdə oğlunun orden-medalları taxılmış pencəyini atıb çiyninə. İndi hərdənbir nəfəs alətlərində çalır. Yastı balaban sızlayır, qara zurna ilan dili çıxarır. Neyləmək olar?..

Yaxşı ki, balalarımızın qanı batmadı, bu üzdən də Vətən qürurlu, şəhid fəxarətliyik.

***Əli NƏCƏFXANLI***
***XQ***

# "Xüsusi təyinatlı" roman

**Sankt-Peterburqda yaşayan soydaşımız – yazıçı Adil Quliyevin bu adda romanı ötən əsrin 90-cı illərində torpaqlarımızın işğalından tutmuş 2023-cü il sentyabrın 19-da keçirilən antiterror əməliyyatına qədər gərgin hadisələrlə dolu geniş tarixi dövrü əks etdirir.**




"Xüsusi təyinatlı" müəllifin Bakıda çap olunan sayca 3-cü kitabıdır. Bundan əvvəl "Neft, bulaq və keçə çəkmələr" və "Qırmızı ayaqqabılar" adlı hekayə topluları oxuculara təqdim olunub.

Romanda hadisələr yaşlı babasından başqa bütün yaxınlarını Xocalıda itirən Aslanın həyatı fonunda əks olunur. Aslanın uşaqlığı, təhsili, xüsusi təyinatlı zabit kimi 44 günlük zəfər müharibəsində iştirakı, eyni zamanda onun həyatının sevgi motivləri əsərin əsas mövzusunu təşkil edir.

Roman qələbə ilə nəticələnən Vətən müharibəsi haqqında yazılmış ilk irihəcmli əsərdir. Kitab ilk dəfə rus dilində Rusiyanın Sankt-Perterburq şəhərində "Карабах: долгожданное возвращение" adı ilə çap olunub. Romanın Azərbaycan dilinə tərcüməçisi Dürdanə İbrahimova-Hüseynbəyli, redaktoru Şərif Ağayardır.

***XQ***

# Fransa "Xarqo"nu unutmur



**Ölkəmizdə keçirilən Milli Ordu Günü ərəfəsində Parisdə Azərbaycan səfirliyinin Mədəniyyət Mərkəzində İkinci Dünya müharibəsi zamanı antifaşist müqavimət hərəkatının görkəmli nümayəndəsi, əfsanəvi partizan Əhmədiyyə Cəbrayılova həsr olunmuş "O, Xarqo idi" adlı sənədli filmi nümayiş etdirilib. Sənədli filmin nümayişi Azərbaycan səfirliyinin təşkilatçılığı ilə reallaşıb.**

"Salnaməfilm" studiyasının istehsal etdiyi filmin təqdimatında Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva, Fransanın Azərbaycandakı keçmiş səfirləri Jan Perrən və Şantal Puare, UNESCO yanında daimi nümayəndə Elman Abdullayev, ekran əsərinin ssenarist və rejissoru Tahir Tahiroviç və Əhmədiyyə Cəbrayılovun nəvəsi Müşfiq Cəbrayılov, eləcə də fransız siyasətçilər və incəsənət xadimləri, yerli ictimaiyyətin və Azərbaycan diasporunun nümayəndələri iştirak ediblər.

Səfiri Leyla Abdullayeva çıxış edərək, ölkəmizin İkinci Dünya müharibəsində faşizm üzərində qələbəyə verdiyi çoxsaylı mühüm hərbi, iqtisadi və strateji töhfələrdən danışıb. Faşizmlə mübarizədə sovet ordusunun yanacaq ehtiyacının 90 faizinin məhz Azərbaycanın qarşıladığını vurğulayıb. Səfir qeyd edib ki, həmin dövrdə 3 milyon əhalisi olan Azərbaycandan 600 min əsgər 1941–1945-ci illərdə nasistlərə qarşı müharibəyə yollanıb və onların bəziləri müxtəlif Avropa ölkələrinin azadlığı uğrunda partizan hərəkatlarına qoşulublar. 130-dan çox azərbaycanlı İkinci Dünya müharibəsində qəhrəman adına layiq görülüb, 170 mindən çox əsgərimiz müxtəlif orden və medallarla təltif olunub. Müharibədə kişilərlə yanaşı, azərbaycanlı qadınlar da şücaət göstəriblər.

Əhmədiyyə Cəbrayılovun Fransanın azadlığı uğrunda mübarizəsindən, Müqavimət Hərəkatında fəaliyyətindən, bu ölkənin Tarn və Qaron departamentində Kabertat partizanlarına qoşulmasından, müxtəlif əməliyyatlarda qəhrəmanlığından danışılıb. Digər Avropa ölkələrində də azərbaycanlı əsgərlərin partizan hərəkatlarında göstərdikləri qəhrəmanlıqlar xatırladılıb.

Səfir Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun torpaqlarımızı azad etməsindən, igid oğullarımızın qəhrəmanlığından danışıb, Azərbaycanın sülhün, ədalətin bərqərar olmasında maraqlı olduğunu vurğulayıb.

Sonra "O, Xarqo idi" sənədli filmi nümayiş olunub. Filmdən sonra ssenarist və rejissor Tahir Tahiroviç əfsanəvi partizan Əhmədiyyə Cəbrayılovun anadan olmasının 100 illiyinin geniş qeyd edilməsi ilə bağlı Prezident İlham Əliyevin sərəncamına əsasən keçirilən silsilə tədbirlər çərçivəsində bu filmin lentə alınmasından, onun yaranması ideyasından, ekran əsərində hər bir hadisənin arxiv materiallarına əsaslanmasından, filmin ərsəyə gəlməsindən və məqsədlərindən bəhs edib.

Əhmədiyyə Cəbrayılovun nəvəsi Müşfiq Cəbrayılov babası ilə olan xatirələrindən danışıb. Fransanın Azərbaycandakı keçmiş səfirləri Jan Perrən və Şantal Puare ölkəmizdə çalışdıqları zaman Fransa qəhrəmanı Ə.Cəbrayılovun doğma şəhəri Şəkiyə səfərlərindən, onunla söhbətlərindən, onun ölümündən sonra qəbrini ziyarət etmələrindən, Əhmədiyyə ilə birgə partizan hərəkatında olmuş Rene Şambarın Şəkidə dostunun qəbrini ziyarət etməsindən danışıblar.

Həyat yoldaşı Fransanın Azərbaycandakı səfirliyində işləmiş Aleksanr Vattən Fransanın azadlığı uğrunda mübarizə aparmış azərbaycanlı partizanlarla bağlı arxivlərdə işləməsindən, onların haqqında hazırladığı kitabdan söz açıb. Tədbirdə müharibə vaxtı azərbaycanlı əsgərlə ailə qurmuş, Azərbaycanda yaşamış və 50 ildən sonra ölkəsinə səfər etmiş fransız xanım İvon Bottonun xatirəsi də yad edilib.

***XQ***

**Elçin Bilaloğlunun "Kim üzr istəməlidir?" kitabında Azərbaycanın Rusiya imperiyasının tərkibində olduğu dövrdən xalqımıza qarşı törədilmiş erməni vəhşiliklərindən günümüzə qədər olan, təqribən, iki əsrlik xronoloji çərçivədə Vətənimizin, ilk növbədə isə bilavasitə Qarabağ regionunun tarixi, zaman-zaman özünü göstərmiş erməni fitnəkarlığı və onun kökləri çoxsaylı konkret tarixi faktlarla işıqlandırılmışdır.**

# 2 əsrlik erməni xəyanətləri

*Elçin Bilaloğlunun "Kim üzr istəməlidir?" kitabı bu barədədir*




Sözügedən kitabda Ermənistanın azərbaycanlı əhalinin XX əsrdə dəfələrlə ermənilər tərəfindən soyqırıma məruz qalması, XX əsrin sonlarında Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uğrunda apardığı mübarizə də elmi-obyektiv əksini tapmışdır.

Kitabın "Eşitdiklərim və oxuduqlarım" adlanan I hissəsi 4 dövrə bölünmüş, 1828-1917-ci illərdə, yəni vətənimiz çar Rusiyasının tərkib hissəsi olduğu dönəmdə, çarizm dağıldıqdan sonra 1918-ci il mart soyqırımı, Şərqdə ilk müstəqil demokratik dövlət kimi tarixə düşmüş Cümhuriyyətimizin 23 aylıq mövcudluğu dövründə, habelə Azərbaycan SSRİ-nin tərkibində olduğu illərdə azərbaycanlılara qarşı törədilmiş erməni vəhşilikləri, ermənilərin Rusiya imperiyası tərəfindən Şimali Azərbaycan torpaqlarında yerləşdirilməsindən sonra əzəli torpaqlarımıza qarşı irəli sürdükləri ərazi iddiaları, xalqımıza qarşı yönəltdiyi etnik təmizləmə, soyqırımı və separatizm siyasəti çoxsaylı tarixi faktlar əsasında nəzərdən keçirilmişdir.

Kitabın "Eşitdiklərim, oxuduqlarım və gördüklərim" adlı II hissəsi isə 5 dövrə bölünmüş, 1988-ci il hadisələrindən başlayaraq həm 1988-1992-ci illərdə – aktiv hərbi əməliyyatların başlanması ərəfəsindəki (Xankəndi talanları, Quqark qətliamı, Kərkicahan qırğını, Meşəli faciəsi və s.), həm Birinci Qarabağ müharibəsi illərində, həm 1994-2020-ci illərdə nisbi atəşkəs dövründə, həm də 44 günlük Vətən müharibəsi və postmüharibə dövründəki erməni vəhşilikləri çoxsaylı elmi arqument və dəlillər, fotoşəkillər və elektron mənbələrə istinadən geniş təhlil etmiş və yeri gəldikcə, haqlı olaraq oxuculara belə bir sual ünvanlamışdır: bütün bu vəhşiliklərə, cinayətlərə görə kim üzr istəməlidir? Bu sualın cavabı sağlam düşüncəli hər bir oxucuya bəllidir.

Son iki əsrdə dəfələrlə erməni aqressorlarının vandalizm, qəsbkarlıq və qətliam siyasətinə məruz qalmış Azərbaycan xalqı günümüzə qədər onun acı nəticələrini yaşasa da, bu faktlar hələ də beynəlxalq təşkilatlar tərəfindən lazımi hüquqi-siyasi qiymətini almamış, günahkarlar cəzalandırılmamışdır. Bu mənada, Elçin Bilaloğlunun "Kim üzr istəməlidir?" kitabının timsalında sözügedən problemin hərtərəfli və müfəssəl şəkildə araşdırılması, məsələnin mahiyyətinin çoxsaylı elmi faktlarla əsaslandırılaraq dünya ictimaiyyətinə çatdırılması son dərəcə böyük əhəmiyyət kəsb etməklə bu gün də aktualdır.

***İbrahim ZEYNALOV,***
***tarix elmləri doktoru, professor***

**Festival**

# "Sevilfest" qadın talelərinə işıq salacaq

**Ölkənin 4 şəhəri zəngin və çoxşaxəli proqramı olan coşğulu festival günlərinə hazırlaşır. Kinosevərləri və sənədli film peşəkarlarını bir araya gətirəcək 5-ci "Sevil" Beynəlxalq Qadın Sənədli Film Festivalı (Sevilfest) bu il "Qoy bir kəlmə də mən deyim" şüarı altında keçiriləcək.**




İyulun 5-dən 12-dək gerçəkləşəcək festivalın müsabiqə proqramına həm yerli, həm də xarici ölkələrdən sənədli filmlər göndərilib. 33 ölkədən göndərilmiş 87 film arasında seçki komissiyasının müəyyən etdiyi 18 film müsabiqə mərhələsində "Tammetraj sənədli film", "Beynəlxalq qısametraj sənədli film" və "Yerli qısametraj sənədli film" nominasiyalarında yarışacaq. Qaliblər hər nominasiya üzrə müəyyən edilmiş münsiflər heyəti tərəfindən müəyyən edilərək, festivalın bağlanış tədbirində elan ediləcək.

**Festivalın kommunikasiya meneceri Aygül Qurbanova bildirdi ki,** builki festivalda, əsasən, qadın rejissorların müəlliflik, birgə rejissorluq etdiyi və ya filmlərdə qadın və gender məsələlərinə toxunulduğu müstəqil filmlər nümayiş olunacaq: "Filmlərin ana mövzusu dünyada və ölkəmizdə var olan gender əsaslı problemlərdir. Ekran əsərlərinin məzmunu qadınlar, təmsil olunmayan qruplar və onların həyatına təsir edən çoxsaylı məsələlərdən ibarətdir. Burada qadınların uğur hekayələri, gender bərabərliyi, qadınların cəmiyyətdəki rolu, məişət zorakılığı və gender kontekstində digər mövzular yaradıcı şəkildə vurğulanır".

**Menecer qeyd etdi ki, bu festival, eyni zamanda, müxtəlifliyə dəyər verir:**

– Bu dəyərləri fəaliyyətimizdə əks etdirməyə çalışırıq. Filmlərin nümayişi eyni vaxtda Bakı, Şəki, Lənkəran və Şabran şəhərlərində təşkil olunacaq. "Festivallardan seçmələr" bölməsində Azərbaycan tamaşaçılarına zəngin kinematoqrafiya təcrübəsi təqdim edən məşhur dünya festivallarının laureatları olan filmlər təqdim olunacaq. Həmçinin bir neçə yeni və fərqli bölmələrdə nümayiş ediləcək müsabiqədə kənar yerli və beynəlxalq filmlər izləyicini çoxşaxəli və yaradıcı müzakirəyə sövq edəcək.

Müsahibimiz onu da əlavə etdi ki, festivala kinorejissorlar, tənqidçilər və kino mütəxəssisləri də daxil olmaqla, çoxlu beynəlxalq qonaq gələcək ki, bu da mədəni mübadilə və əməkdaşlıq üçün münbit atmosfer yaradacaq. Nümayişlərdən əlavə, "Sevil" dünyaşöhrətli kino ekspertlərindən ustad dərsləri, müxtəlif mövzularda panel müzakirələri və yerli kinonun inkişafına dəstək məqsədilə ünsiyyət imkanlarını təklif edəcək.

Xatırladaq ki, Azərbaycanda müstəqil sənədli film festivalı olan "Sevilfest" gender əsaslıdır və cəmiyyətdə qadınlar başda olmaqla təmsil olunmayan bütün qrupların problemlərinə həsr olunub.

2020-ci ildən fəaliyyət göstərən kinofestival yerli və beynəlxalq kinematoqrafçılara regional tədbirlərdə iştirak etmək və əhalini sənədli film sənayesi haqqında geniş məlumatlandırmaq imkanı yaradır.

***Ceyhun ALIŞLI***

# "Dünya ailədən başlayır"

**Rusiya Federasiyasında 2024-cü ilin "Ailə ili" elan olunması ilə əlaqədar "Dünya ailədən başlayır" adlı Beynəlxalq esse müsabiqəsi keçirilib.**



"XQ"-yə verilən məlumata görə, müsabiqədə Azərbaycanın tanınmış şairi Xatirə Fərəcli də eyni adlı essesi ilə iştirak edib və 1-ci yerə layiq görülüb. Esseni tanınmış tərcüməçi, şair Giya Paçxataşvili tərcümə edib. Qeyd edək ki, Xatirə Fərəcli 2023-cü ildə Rusiya Federasiyasında Xalq şairi Rəsul Həmzətovun 100 illik yubileyi münasibətilə keçirilən Beynəlxalq esse müsabiqəsində də "Dağıstan günəşi" adlı essesi ilə 1-ci yerə layiq görülmüşdü və bu münasibətlə Rusiya Federasiyasının IX Parlament Forumuna Azərbaycandan yeganə nümayəndə olaraq dəvət almışdı. Forumda Azərbaycanı yüksək səviyyədə təmsil etmiş qadın şairimizin çıxışı böyük maraqla qarşılanmışdı.

***XQ***

# Alimlərimiz qədim türk lüğəti konfransında

**Qırğızıstanın Bişkek şəhərində keçirilən "Yazılışının 950-ci ildönümündə "Divanü lüğat-it türk: Türk dünyasının ortaq dəyəri" mövzusunda beynəlxalq konfransda Azərbaycanı AMEA Dilçilik İnstitutunun direktoru, professor Nadir Məmmədli və Türk dilləri şöbəsinin müdiri, professor İsmayıl Kazımov təmsil ediblər.**



Professor Nadir Məmmədli "Divanü lüğat-it türkün tədqiqi tarixi" mövzusunda məruzə ilə çıxış edib və beynəlxalq mərasimin bölmə sədri kimi Türk dünyasının ən qiymətli kitablarından olan Mahmud Kaşğarinin məşhur "Divanü lüğat-it-türk" əsərinin I, II və III cildlərini konfransın idarə heyətinə təqdim edib.

Nadir Məmmədli çıxışında çap olunmuş kitabları bu möhtəşəm yubileyə töhfə kimi qiymətləndirib və qeyd edib ki, ötən əsrin 30-cı illərində SSRİ Elmlər Akademiyasının Azərbaycan filialında işləmiş, özbək əsilli Azərbaycan alimi Xalid Səid Xocayev Mahmud Kaşğarinin məşhur "Divanü lüğat-it-türk" əsərini türkologiya tarixində ilk dəfə ərəb dilindən Azərbaycan dilinə tərcümə edib: "Xalid Xocayev bu kitabın tərcüməsindən sonra "əks-inqilabi pantürkist təşkilatın üzvü və Türkiyənin xeyrinə kəşfiyyat işi aparmış şəxs" damğası ilə ittiham olunaraq 1937-ci ildə güllələnib. Alimin evində axtarış aparılan zaman "Divan" üzə çıxmadığından itmiş hesab olunub.

Mahmud Kaşğari "Divanü lüğat-it-türk" ensiklopediyasında türksoylu xalqların dil-ağız özəlliklərini, ləhcələrini, milli-mədəni varlığını toplamış, dövrünə uyğun qrammatika və yazı qaydalarını müəyyənləşdirmişdir. Əsər yalnız lüğət deyil, türk tayfalarının dil-ləhcə fərqlərini, yayılma areallarını, həyat tərzini, tarixini, mifologiyasını, folklorunu, mədəniyyətini öyrənməyə imkan verən, XI əsrin əvvəllərində türk tayfalarının ləhcələri haqqında geniş məlumat verən dialektoloji-etnoloji kitabdır.

Professor İsmayıl Kazımov isə "Azərbaycan dilinin tarixi qrammatikası və Mahmud Kaşğarinin "Divani luğat it-türk" əsəri" mövzusunda məruzə edib. Türkoloq alim bildirib ki, Mahmud Kaşğarinin "Divanü lüğat-it-türk" əsəri dünya tarixində yazılmış ilk türk lüğətidir: "Bu, adi sözlük deyil, eyni zamanda, yazıldığı dövrün xarakterik cizgilərini müəyyənləşdirən güzgüsüdür, min il öncəki düşüncəni bu günə gətirən, tanıdan mötəbər bir qaynaqdır. Lüğətdə istifadə edilmiş kəlmələr, söyləmlər, ifadələr, cümlələr, ədəbi örnəklər - şeirlər, atalar sözü və məsəllər, hikmətlər hələ də canlıdır. Bu əsərlə türklüyün, türk qrammatikasının təməli qoyulur. Türk dili dövrün güclü dilləri - ərəb, fars və soğdak dilləri ilə qarşılaşdırılır, müqayisə edilir".

Beynəlxalq konfransda Azərbaycan, Türkiyə, Qazaxıstan və Özbəkistandan alimlər iştirak ediblər.

***XQ***

**Yeni tamaşalar**

# Sumqayıtda "Xeyir xəbər"

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Sumqayıt Dövlət Dram Teatrına dəvət olunmuş gənc və istedadlı rejissor Fuad Cavadzadə "Xeyir xəbər" adlı tamaşa hazırlayıb. Milli mücadilə yolumuzu, mübariz ruhumuzu tərənnüm edən yeni əsərin səhnə versiyası dünən nümayiş olunub.**



Sumqayıt Teatrından aldığımız məlumatda deyilir ki, şəhidlərimiz, qazilərimiz və müharibə veteranlarımızın qəhrəmanlığına ithaf olunan səhnə əsərində Xeyirin Şər üzərindəki qələbəsi və tarixi ədalətin təntənə məqamı əksini tapıb.

Əməkdar incəsənət xadimi Əli Əmirlinin qələmə aldığı bu əsərdə bir ailənin taleyi kontekstində milli-mənəvi dəyərlər, təmkin, iradə, Vətən sevgisi təbliğ olunur. Bu prosesdə obrazların qarışıq duyğuları, psixoloji məqamları, fərdi istirablarını üstələyən Vətən sevgisi quruluşçu rejissor tərəfindən həssaslıqla işlənilib. Rejissor ideyasını mükəmməl aktyor oyunu, bədii tərtibat və situasiyanı düzgün assosasiya edən musiqi tamamlayır.

Yeni yaradıcılıq işinin bədii rəhbəri Xalq artisti Firudin Məhərrəmov, quruluşçu rəssamı Nizami Dadaşov, musiqi tərtibatçısı sənətşünaslıq üzrə fəlsəfə doktoru Telman Qəniyevdir. Qrafika və montaj işi Sahil Nəzərova məxsusdur.

Səhnə əsərində Əməkdar artist Elmira Kərimova, aktyorlar Habil Xanlarov, Məryəm Hüseynli, Şəmistan Süleymanlı, Aynur Hümbətova, Elay Xasıyev, Akif Mirzəyev və Siyavuş Mahmudov çıxış ediblər.

***XQ***




# Culian Assanj azadlıqda

## "WikiLeaks"in qurucusu ABŞ hakimiyyəti ilə sövdələşib



**"WikiLeaks"in qurucusu Culian Assanj Britaniya həbsxanasından azad edilib və Avstraliyaya uçub. O, ittihamlardan biri üzrə özünü təqsirli bilməyə razılaşıb və ABŞ hakimiyyəti bunun üçün onun ekstradisiyasını tələb etməkdən imtina edib. Bir neçə il Ekvador səfirliyində gizlənən, sonra isə London yaxınlığındakı həbsxanada saxlanılan Assanc Amerika tarixində məxfi sənədlərin ən böyük sızdırılmasında ittiham olunurdu.**

London Ali Məhkəməsi 2019-cu ildən bəri Belmarş həbsxanasında saxlanılan "WikiLeaks"in qurucusu Culian Assanjı zaminə buraxıb. "WikiLeaks"in nümayəndələri bildiriblər ki, o, həyat yoldaşı və uşaqlarının olduğu Avstraliyaya gedib. Təşkilat jurnalistin ABŞ prokurorluğu ilə sövdələşmənin bağlandığını təsdiqləyib. "Bu, mətbuat azadlığı müdafiəçiləri, qanunvericilər və BMT-yə qədər müxtəlif siyasi spektri təmsil edən liderləri əhatə edən qlobal kampaniyanın nəticəsidir. Bu, ABŞ-ın Ədliyyə Nazirliyi ilə uzunmüddətli danışıqlara şərait yaratdı və hələ rəsmi olaraq tamamlanmamış sövdələşməyə səbəb oldu. Biz ən qısa zamanda əlavə məlumat verəcəyik", – "WikiLeaks"in X sosial şəbəkəsindəki məlumatda qeyd olunub.

ABŞ prokurorluğu ilə razılaşmanın bir hissəsi olaraq, medianın yazdığı kimi, Culian Assanj milli müdafiə ilə bağlı məlumat əldə etmək və açıqlamaq üçün sövdələşməyə getməkdə günahını qismən etiraf edib. Razılaşmaya görə, Culian Assanc casusluq ittihamı üzrə öz təqsirini etiraf etməsi müqabilində azad olunacaq. Assanj Marian adalarında, Qərbi Sakit okeanda yerləşən ABŞ mülkiyyətindəki federal məhkəmədə çərşənbə günü səhər saatlarında hakim qarşısında çıxış edəcək. Ehtimal olunur ki, iyunun 26-da Şimali Mariana adalarında (Filippin yaxınlığında Sakit Okeanın şərqində yerləşən ABŞ ərazisi) məhkəmə onun artıq Londonda dəmir barmaqlıqlar arxasında keçirdiyi müddəti 5 il 2 ay müddətinə azadlıqdan məhrumetmə cəzası barədə qərar çıxaracaq.

Bununla belə, Birləşmiş Ştatlarda heç də hamı "WikiLeaks"in qurucusu ilə Amerika prokurorluğu arasındakı sövdələşmədən məmnun deyil. Məsələn, ABŞ-ın sabiq vitse-prezidenti Mayk Pens bunu "silahlı qüvvələrimizin kişi və qadınlarının xidmətini və fədakarlığını rüsvay edən" "ədalət səhvi" kimi tənqid edib. Sabiq federal prokuror Nim Rahmani də narazılığını ifadə edərək deyib ki, Culian Assancın gizli sənədlərin belə ciddi bir sızmasından sonra sərbəst buraxılması, çox güman ki, bir çox amerikalıya təsir göstərəcək. O mənada ki, bu hadisə kiməsə yeni ifşalar yaymağa ilham verə bilər.

"Beş ildən artıq bir müddət ərzində gündə 23 saat təcrid olunmuş iki-üç metrlik kamerada qaldıqdan sonra o, tezliklə həyat yoldaşı Stella Assanj və atalarını ancaq dəmir barmaqlıqlar arxasından tanıyan uşaqları ilə qovuşacaq", – "WikiLeaks" bildirib. Onun həyat yoldaşı Stella Assanj isə ərinin azad edilməsi xəbərindən sonra əməyi keçən hər kəsə təşəkkür edib: "Culian azaddır!!!! Sözlər sizə ən dərin minnətdarlığımızı ifadə edə bilməz – bəli, siz, bunu həyata keçirmək üçün illərdir fəaliyyət göstərdiniz. Çox sağ ol. Çox sağ ol. Təşəkkür edirəm", – o, X səhifəsində yazıb. Stella deyib ki, uşaqlar atalarını hər zaman həbsxanada görüb və görüş çox vaxt bir saatla məhdudlaşıb. "Culianın ayağa qalxaraq həbsxanadakı mağazadan uşaqlarına şokolad almağa icazəsi belə yox idi", – deyə o bildirib.

Jurnalistin gələcək planları ilə bağlı sualını cavablandıran Stella qeyd edib ki, bu barədə Culianla uzun danışmağa vaxtları olmayıb. Stella bildirib ki, onların əsas prioritetləri Culianın əvvəlki səhhətinə qayıtmasıdır. "O, beş ildir ki, çox dəhşətli vəziyyətdədir. Bizim üçün artıq yeni səhifə açmağın zamanıdır", – deyə o vurğulayıb. Stella Assan qeyd edib ki, onlar Culian azad olunandan sonra Avstraliyada yaşamağı düşünürlər.

"WikiLeaks" 2006-cı ildə Culian Assanc tərəfindən təsis edilmiş və məxfi məlumatların dərci üzrə ixtisaslaşmış vebsaytdır. İlk sənəd 2006-cı ilin dekabrında dərc edilib. Ancaq Assanj 2010-cu ildə Amerikanın iki Apaçi vertolyotu tərəfindən Bağdadda bir qrup mülki şəxsin atəşə tutulmasını əks etdirən videonun 2010-cu ildə "WikiLeaks" saytında yerləşdirilməsindən sonra beynəlxalq şöhrət qazanıb. Ölənlər arasında "Reuters" agentliyinin iki müxbiri də olub. Sayt daha sonra Amerikanın Əfqanıstan və İraqdakı hərbi kampaniyaları və amerikalı diplomatlar arasında yazışmalarla bağlı məxfi məlumatları ehtiva edən minlərlə fayl dərc edib. Sənədlər dünyanın aparıcı KİV-ləri tərəfindən yayılıb. Bundan sonar Birləşmiş Ştatlar jurnalisti məxfi məlumatı açıqlamaqda və onu əldə etmək üçün sövdələşməyə getməkdə ittiham edib. Bu ittihamlarla onu 175 il həbs cəzası gözləyirdi.

***S.ELAY***
***XQ***

## "NEMAN İKF" MMC-nin 2023-cü il üzrə konsolidə olunmuş (birləşdirilmiş) məcmu gəlirlər və zərər haqqında hesabatı

*(manatla)*

| Bölmələrin, maddələrin adları | Əvvəlki dövr (2022-ci il) | Hesabat dövrü (2023-cü il) |
|---|---|---|
| Əsas əməliyyat gəliri | 21 553 134.39 | 29 632 820.91 |
| Sair əməliyyat gəlirləri | 1 158 128.70 | 35 150.15 |
| Sair gəlirlər | 52 366.45 | 1 325 194.72 |
| Əməliyyat xərcləri (cəmi xərclər) | (20 523 762.03) | (26 645 456.52) |
| **Əməliyyat mənfəəti (zərəri)** | **2 239 867.51** | **4 347 709.26** |
| Fövqəladə gəlirlər | 53 667.70 | - |
| Fövqəladə xərclər | (46 183.36) | (20 888.63) |
| **Vergiqoymadan əvvəl mənfəət (zərər)** | **2 247 351.85** | **4 326 820.63** |
| Mənfəət vergisi | (366 147.41) | (732 456.91) |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | **1 881 204.44** | **3 594 363.72** |

| Bölmələrin və maddələrin adları | Əvvəlki dövr üzrə (2022-ci il) | | Hesabat dövrü üzrə (2023-cü il) | |
|---|---|---|---|---|
| **AKTİVLƏR** | | | | |
| Qeyri-maddi aktivlər | 435 138.08 | | 435 138.08 | |
| Əsas vəsaitlərin dəyəri | 8 738 448.14 | | 8 962 678.64 | |
| **Cəmi uzunmüddətli aktivlər** | | **9 173 586.22** | | **9 397 816.72** |
| Ehtiyatlar | 11 401 719.23 | | 11 344 923.00 | |
| Qısamüddətli debitor borcları | 3 054 402.29 | | 4 089 085.79 | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 906 486.41 | | 3 015 216.23 | |
| Sair qısamüddətli maliyyə aktivləri | 5 824 183.02 | | 6 145 613.67 | |
| Sair qısamüddətli aktivlər | 2 853 356.65 | | 3 734 203.67 | |
| **Cəmi qısamüddətli aktivlər** | | **24 040 147.6** | | **28 329 042.56** |
| **Cəmi aktivlər** | | **33 213 733.82** | | **37 726 859.28** |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 11 629 269.00 | | 12 277 887.00 | |
| **Cəmi kapital** | | **11 629 269.00** | | **12 277 887.00** |
| Uzunmüddətli kreditor borcları | 49 343.89 | | - | |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | - | | 584 360.62 | |
| Qısamüddətli kreditor borcları (Avans) | 4 512 815.06 | | 3 268 224.37 | |
| Sair qısamüddətli öhdəliklər | 17 022 305.87 | | 21 596 387.29 | |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **21 535 120.93** | | **25 448 972.28** |
| **Qısamüddətli öhdəliklər** | | **21 584 464.82** | | |
| **Cəmi kapital və öhdəliklər** | | **33 213 733.82** | | **37 726 859.28** |

**Kapitalda dəyişikliklər haqqında hesabat**

| | Nizamnamə kapitalı | Kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|---|
| 2021-ci il dekabrın 31-nə qalıq | 10 894 269.00 | - | - | 10 894 269.00 |
| 2022-ci il üzrə xalis mənfəət/zərər | 735 000.00 | - | - | 735 000.00 |
| 2022-ci il dekabrın 31-nə qalıq | 11 629 269.00 | - | - | 11 629 269.00 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | 648 618.00 | - | - | 648 618.00 |
| 2023-cü il dekabrın 31-nə qalıq | 12 277 887.00 | - | - | 12 277 887.00 |

**Maliyyə hesabatlarının mötəbərliyi AR Auditorlar Palatası tərəfindən verilmiş lisenziyaya əsasən fəaliyyət göstərən auditor "Finstab Audit" tərəfindən təsdiqlənmişdir.**

# Heyrətamiz həşəratlar

**Britaniya Kral Cəmiyyəti hər il olduğu kimi bu il də foto-müsabiqə élan edib. "Həşəratların həftəsi" adlanan builki müsabiqənin qalibi isə "Yatmış ququ arıları" foto şəklinin müəllifi Luke Chambers olub. Onun çəkdiyi bu heyrətamiz foto rəsmində iki ququ arısı otun üzərində dincələrək, sanki, söhbət edirlər...**

Digər bir müsabiqə iştirakçısı Tim Jonasın "Əhliləşdirilmiş böcək sürfələri" fotosu ikinci olub. 17 yaşlı isveçli fotoqraf Qustav Parenmark isə 18 yaşdan aşağı kateqoriyada "Lentli qadın milçəyi" fotosu ilə qalib olub.

Bu heyrətamiz həşəratların foto kolleksiyası onların, həqiqətən, də təbiətin gözəl və möcüzəvi varlıqları olduğunu göstərir.

Qeyd edək ki, bütün fotoşəkillərdən Britaniya Kral Cəmiyyətinin icazəsi ilə istifadə edilmişdir.

***S.FİDAN***
***XQ***



Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 131 (30535) 26 iyun 2024-cü il, çərşənbə

İDMAN

## Güləşçimiz Serbiya finalında




**Azərbaycanın yunan-Roma güləşçiləri Serbiyanın Novi Sad şəhərində keçirilən 17 yaşlıların Avropa çempionatında mübarizəyə başlayıblar.**

Əmrah Əmrahov (48 kq) yunanıstanlı Pavlos Tsentidisə və ermənistanlı Andranik Xaçatryana eyni hesabla (9:0) qalib gələrək yarımfinala yüksəlib. Əmrah yarımfinalda isveçli Santoş Sarmalinqama da aman verməyib – 6:0. O, finalda rusiyalı Nikolay Kristovla qarşılaşacaq.

Əli Nəzərov (55 kq), Orxan Hacıyev (80 kq), Mikayıl İsmayılov (110 kq) isə bürünc medal uğrunda mübarizə aparacaqlar.

## Boksçularımız növbəti mərhələdə



**Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda yeniyetmə boksçular arasında Avropa çempionatı davam edir.**

Komandamızın üzvlərindən Rza Rzayev (kq), Səftər Məmmədzadə (+80 kq) uğurla çıxış edərək dörddəbir finala vəsiqə qazanıblar. R.Rzayev növbəti döyüşünü italiyalı Tiberio Nokadello ilə keçirəcək. S.Məmmədzadə isə Boqdan Bajzertlə (Polşa) mübarizə aparacaq.

Qeyd edək ki, Avropa çempionatına iyunun 30-da yekun vurulacaq.

## Badmintonçularımız 4 medal qazanıblar



**Serbiyanın Novı Sad şəhərində keçirilən "Serbian Youth International 2024" turnirində Azərbaycanın yeniyetmə badmintonçuları 1 qızıl, 2 gümüş və 1 bürünc medal qazanıblar.**

9 yaşadək bamdintonçu qızların fərdi yarışında Mələk Təhməzli qızıl medal qazanıb. Ömər Teymurlu isə 13 yaşadək oğlan bamdintonçuların fərdi mübarizəsində gümüş medala yiyələnib. Bu yaş qrupunda oğlan badmintonçuların qoşa yarışında Ömər Mehdi - Ömər Teymurlu tandemi də 2-ci yeri tutub. İsmayıl Qarayev və Həsən Məmmədov isə 11 yaşadək oğlan badmintonçuların qoşa yarışında bürünc medal qazanıblar.

***L.QURBANOVA***
***XQ***

Bakı milyonçuları

# Muxtarov – diplomsuz neft mühəndisi, unudulmaz xeyriyyəçi





**Bakı milyonçularının əksəriyyəti bu məqama fəhləlikdən yüksəliblər. Onlardan biri də Murtuza Muxtarov olub. Onun adı Bakı milyonçuları Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev və Şəmsi Əsədullayevdən sonra gəlir.**

Bakıda neft çıxarılması texnologiyasının inkişafı daha çox onun adı ilə bağlıdır. Heç bir texniki və ali təhsili olmasa da, həm neft yataqlarının, həm də qazma işlərinin sirrini o dövrdə neft maqnatlarının hamısından yaxşı mənimsəyib. Hər bir sənətin ölçüyə-biçiyə gələn cəhətləri və texnologiyası var. Eynilə hər bir sənətin də fitri istedadla bağlı daxili, sirli cəhətləri olur. Murtuza Muxtarovun uğurlarında fitri istedadı və işə həssaslıqla yanaşması böyük rol oynayıb. O, diplomsuz neft mühəndisi kimi böyük ad-san qazanıb. Neft sənayesi sahəsində özünün ixtiraları ilə şöhrətlənib.

Murtuza Muxtarova qədər qazma işləri primitiv üsullarla aparılıb. Ona görə də qazma işlərini xüsusi üsulla idarə edən avadanlıqlar quraşdırıb. Hətta, həmin avadanlıqlara görə, patent də alıb. Onun yaratdığı "Podrat qazma" idarəsi Balaxanı, Suraxanı, Ramanı və Sabunçuda neft quyularının qazılmasında əhəmiyyətli rol oynayıb. Həmin ərazilərdəki neft quyularının çoxu onun idarəsi tərəfindən qazılıb. Bununla yanaşı, Murtuzanın xüsusi neft mədənləri olub. Vaxtilə "Muxtarovka" adlanan ərazidəki əksər neft quyuları Murtuza Muxtarova məxsus olub.

Murtuza Muxtarov 1865-ci ildə Bakının Əmircan kəndində anadan olub. Kiçik yaşlarından özünü zəhmətə alışdırıb. Suvaqçılıq edib, əl arabası ilə neft daşıyıb. İşə, zəhmətə həvəsi onun həyat yolunu düzgün müəyyənləşdirməyə kömək edib. Bu həvəs parlaq şəkildə uğur qazanmasına səbəb olub. Gərgin, yorulmaz əməyi ilə ucalıb. Milyonçu olub, xeyriyyəçi kimi hörmət-izzət sahibi olub. Onun geniş xeyriyyəçilik fəaliyyəti haqqında bu gün də ictimaiyyət arasında danışılır. O, şəhərdəki çox sayda ictimai binaların, məktəblərin tikintisinə milyonlarla vəsait xərcləyib.

Murtuza Muxtarov xalqının gələcəyini maariflənmədə, təhsildə görüb. Bakı Realnı Məktəbinin, Temirxan-Şura Qadın gimnaziyasının təsisçisi, "Şimali Qafqaz xalqları arasında savadın və texniki biliklərin yayılması" cəmiyyətinin fəxri üzvü kimi də fəaliyyət göstərib. Həmçinin Peterburqdakı müsəlman xeyriyyə cəmiyyətinin fəxri üzvü olub. Ali və orta ixtisas məktəblərinin tələbələri üçün 40 təqaüd təsis edib.

O, Qərbi Avropa mədəniyyətinə pərəstiş edirdi. Cəmiyyətdə xurafata qarşı mübarizə aparıb. Elə bu məqsədlə də Bakıda çoxlu məktəblər tikdirib. Əhməd bəy Ağayevin rəhbəri olduğu "Tərəqqi" qəzetini nəşr etdirib, "İrşad" mətbəəsinə vəsait xərcləyib. Əhməd bəy Ağayev İstanbula köçdükdən sonra da Murtuza Muxtarov qəzetin fəaliyyətini davam etdirməsinə şərait yaradıb. Sözün həqiqi mənasında, bir ziyalı kimi cəmiyyətdə nüfuz qazanıb. Digər mətbu nəşrlərə də qayğı ilə yanaşıb. Onların bir çoxunu maliyyələşdirib. Muxtarov incəsənət xadimlərinin, mədəniyyət işçilərinin maddi ehtiyaclarını qarşılamaqda xəsislik etməyib.

O dövrlərdə Azərbaycan teatr səhnəsinin korifeylərindən olan Hüseyn Ərəblinski vərəm xəstəliyinə tutulub. Vəziyyəti gündən-günə ağırlaşıb. "Sədaye haqq" qəzeti 1913-cü il 21 avqust tarixli nömrəsində bu haqda belə yazıb: "Müsəlman səhnəsinin ən adil, məşhur və köhnə artistlərindən biri – Ərəblinskinin cavan ömrü ümumsəhnə artistlərinin, səhnə həvəskarlarının gözü qabağında şam kimi əriyib getməkdədir".

Xeyirxah və mehriban bir insan olan Murtuza Muxtarov böyük aktyor və rejissorla bağlı bu xəbərə biganə qalmayıb. O, xəstə artistin halına acıyaraq, ona maddi yardım edib. Müalicə olunmaq üçün Abastumana göndərib. Hüseyn Ərəblinski müalicə olunub qayıtdıqdan sonra "Bakı" qəzeti vasitəsilə ona öz minnətdarlığını belə bildirib: "Cənab redaktor! İcazə verin sizin qəzet vasitəsilə, xəstə artistin halına acıyaraq, pozulmuş səhhətimi düzəltmək üçün 700 manat pul vermiş və habelə sonrakı xərcləri də öz üzərinə götürmüş böyük ürək sahibi cənab Murtuza Muxtarova öz dərin minnətdarlığımı bildirim. Bununla bağlı mən də, mənim ailəm də dərin təşəkkürümüzü bildiririk".

Murtuza Muxtarovun incəsənət xadimlərinə göstərdiyi qayğı ilə bağlı çox misal çəkmək mümkündür. O, Rusiyanın Saratov şəhərində (burada onun neft məhsulları kontoru vardı) küçədə qaraçıya oxşayan qara saçlı bir qız görüb. Qız şarmankada çalıb, oxuyurmuş. Qızın səsindən xoşu gəlir. Azərbaycanlı olduğunu biləndən sonra onu konservatoriyaya aparıb. Qızın vokal şöbəsinə daxil olmasına kömək edib. Hətta, sonradan onu övladlığa götürüb. Həmin "qara qız" gələcəkdə məşhur opera artisti kimi tanınan Fatma Muxtarova idi!



Deyirlər ki. Murtuza Muxtarovun həyat və fəaliyyət tarixçəsi baxımlı bir filmin süjeti qədər maraqlıdır. O, Abşeronu gəzib yarımadanın ən gözəl guşəsində özünə bağ evi tikib. İqlim şəraitini nəzərə alaraq, bağ evinə ən münasib yer kimi Mərdəkanı seçib. Bu gün həmin bağ evində Dendralogiya İnstitutu fəaliyyət göstərir. O, Bakı milyonçuları arasında öz romantik təbiətli ilə də seçilib. Demək olar ki, Bakının bütün xeyriyyə cəmiyyətlərinin işində yaxından iştirak edib.

Muxtarov neft sənayesində qazandığı nailiyyətlərlə bərabər, digər sahələrdə də böyük uğurlara imza atıb. Paytaxtımızda və Bakı kəndlərində, eləcə də Rusiyanın bir çox böyük şəhərlərində, Avropanın bəzi ölkələrində bugünədək mühafizə olunub saxlanılan bir çox gözəl binalar onun adı ilə bağlıdır. O cümlədən, Şüvəlanda "Mayak", Abşeronda 17 bina, Əmircan kəndində məktəb, Mərdəkanın Pirhəsən adlanan məhəlləsində Axund Mirzə Abu Turabın qəbri üstündə günbəz, Kislovodskda və Rusiyanın başqa şəhərlərində, İtaliyanın Florensiya şəhərində mövcüd olan gözəl, yaraşıqlı binalar bu Bakı milyonçusunun şəxsi vəsaiti ilə ərsəyə gəlib.

O, 1908-ci ildə Vladiqafqazda öz vəsaiti hesabına nadir memarlıq nümunəsi sayılan məscid tikdirib. Bu gün də Şimali Qafqazın ən nəhəng məscidlərindəndir. Həmin məscid UNESCO-nun mühafizə olunan tarixi abidələr siyahısına salınıb. Əmircan kəndində inşa etdirdiyi məscid



binası da öz memarlıq quruluşu və əzəməti ilə göz oxşayır. Qeyd etmək lazımdır ki, Muxtarov görkəmli memar Zivər bəy Əhmədbəyovu məscidlərin tikintisi işlərinə cəlb edib.

Murtuza Muxtarov 2 dəfə ailə həyatı qurub. Birinci ailəsindən olan qızları vəfat etdikdən sonra o, ayrılıb. İkinci dəfə Vladiqafqazda general Tuqanovun qızı Luiza Tuqanova ilə evlənib. Bu evlilikdən övladı olmayıb. Yuxarıda qeyd etdiyimiz kimi, Fatma Muxtarovanı övladlığa götürüb.

Murtuza Muxtarov təbiətcə çox məğrur və əyilməz insan olub. Bütün varlığı ilə haqsızlığa qarşı üsyan edib. Sözü də, əməli də düz olan əsl vətənpərvər və alicənab insan kimi həyatının sonunda ölümün gözünə də dik baxıb. O, xeyriyyə işləri və əməlləri ilə həmvətənlilərinin qəlbində nəcib toxumlar səpib. Hələ də onun haqqında xoş sözlər danışılır.

…Bakıda Aprel inqilabının ilk günlərində Muxtarovun "Səadət sarayı"ndakı mənzilinə 2 silahlı hərbçi basqın edib. Muxtarov onların qarşısından qaçmayıb, əksinə, onlara atəş açıb. Onlardan birini öldürüb, sonuncu gülləni də özünə vurub. Beləliklə, onun həyatı 1920-ci ildə faciəli sonluqla bitib.

***Həzi HƏSƏNLİ,***
***şair-publisist***

***✓ Milli Məclisin Aparatı tərəfindən Aparatın əməkdaşı Məmmədov Faiq Ceyhun oğluna verilmiş IX-03/A saylı xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.***

Hava

# Yağış, duman və külək...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, iyunun 26-da Bakıda və Abşeron yarımadasında hava əsasən yağmursuz keçəcək. Lakin səhər bəzi yerlərdə az çiskinli olacağı, axşam isə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir.**

Gecəyə doğru yarımadanın bəzi yerlərində leysan xarakterli intensiv olacağı ehtimalı var. Mülayim şimal-qərb küləyinin səhər saatlarından başlayaraq güclənəcəyi gözlənilir. Gecə 21-26°, gündüz 26-29° isti olacaq. Atmosfer təzyiqi 751 mm civə sütunundan 755 mm civə sütununa yüksələcək, nisbi rütubət 60-70 faiz olacaq. Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 24-25° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil,



Şıx) 25-26° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin səhər şimal və qərb rayonlarından başlayaraq arabir leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv və güclü olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə sulu qara keçəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi rayonlarda arabir güclü olacaq. Havanın temperaturu gecə 20-25°, gündüz 26-31°, dağlarda gecə 8-13°, gündüz 13-16° isti olacaq.

***Q. QASIMOV***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

ATU-nun uşaq stomatologiyası kafedrasının müdiri professor Rəna Əliyeva və kollektivi ortopedik stomatologiya kafedrasının professoru

**ZÖHRAB QARAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4090
SİFARİŞ 1413
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI
Çapa imzalanmışdır 00:00